Azərbaycan Respublikasının
Vəkillər Kollegiyası

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF THE HIGH COMMISSIONER

AZƏRBAYCAN RESPUBLİKASI VƏKİLLƏR KOLLEGİYASININ DEKABR 2017 - DEKABR 2022-Cİ İLLƏR ÜZRƏ FƏALİYYƏTİ BARƏDƏ HESABAT

BİZ BİRLİKDƏ GÜCLÜYÜK!

2022

Hesabatı hazırladılar:

Anar Bağırov,
Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri,
Məhkəmə-Hüquq Şurasının üzvü, hüquq üzrə fəlsəfə doktoru

Bayram Orucov,
Azərbaycan Respublikası Vəkillər Kollegiyasının
Aparat rəhbəri, Bakı Dövlət Universitetinin doktorantı

AZƏRBAYCAN RESPUBLİKASI VƏKİLLƏR KOLLEGİYASININ

DEKABR, 2017 – DEKABR, 2022-Cİ İLLƏR

ÜZRƏ FƏALİYYƏTİ BARƏDƏ

HESABAT

BİZ BİRLİKDƏ GÜCLÜYÜK!

MÜNDƏRİCAT

1. HÜQUQ İSLAHATLARINA DƏSTƏK, VƏKİLLİK SAHƏSİNDƏ İSLAHATLAR 1
2. VƏKİLLƏRİN FƏALİYYƏTİNƏ DƏSTƏK 15
3. VƏKİL HƏMRƏYLİYİ VƏ KARANTİN DÖVRÜNDƏ VƏKİLLİK 18
4. VƏKİLLİYİN TƏŞKİLATLANMASI VƏ VƏKİLLİYƏ QƏBUL 20
5. REGİONLARDA VƏKİLLİK VƏ VƏKİL BÜROLARI 26
6. BEYNƏLXALQ ƏMƏKDAŞLIQ 43
7. 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ (II QARABAĞ MÜHARİBƏSİ) 73
8. VƏKİLLİKDƏ İNNOVASİYALARIN TƏTBİQİ - ELEKTRON XİDMƏTLƏR 82
9. TƏLƏBƏ VƏ GƏNCLƏRƏ DƏSTƏK 85
10. SOSİAL AKSİYALAR, YARIŞMALAR VƏ İCTİMAİ FƏALİYYƏT 96
11. VƏKİLLƏRİN İNTİZAM MƏSƏLƏLƏRİ 106
12. ÖDƏNİŞSİZ HÜQUQİ YARDIM 111
13. DÖVLƏT HESABINA HÜQUQİ YARDIM 114
14. TƏDRİS - VƏKİLLƏRİN PEŞƏ HAZIRLIĞI VƏ İXTİSASININ ARTIRILMASI 117
15. ƏMƏKDAŞLIQ MEMORANDUMLARI VƏ YERLİ TƏDBİRLƏR 122
16. ARVK QURUMLARI VƏ İCLASLARININ SAYI 156
17. VƏKİLLİK FƏALİYYƏTİ İLƏ BAĞLI QƏBUL EDİLMİŞ HÜQUQİ AKTLAR 166

AZƏRBAYCAN RESPUBLİKASI VƏKİLLƏR KOLLEGİYASININ 2018-2022-Cİ İLLƏR ÜZRƏ FƏALİYYƏTİ

"Güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyəti vardır"

İlham Əliyev

1. HÜQUQ İSLAHATLARINA DƏSTƏK, VƏKİLLİK SAHƏSİNDƏ İSLAHATLAR

a. Vəkillik tarixinin araşdırılması və "Vəkil günü"nün təsis edilməsi

Vəkillik tarixinin araşdırılmasının, o cümlədən vəkillərin peşə bayramı gününün təsis olunmasının böyük əhəmiyyət daşıdığını nəzərə alaraq, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının (ARVK) Rəyasət Heyəti tərəfindən arxiv sənədlərinin araşdırılması və təhlil edilməsi ilə bağlı müvafiq Komissiyanın yaradılması barədə qərar qəbul olunmuşdur. Milli Arxiv İdarəsində aparılmış tədqiqatın nəticəsinə uyğun olaraq, vəkilliyin tarixinin Azərbaycan Xalq Cümhuriyyətində münsiflər heyətinin təşkili və yaradılma tarixi ilə bağlılığı müəyyən olunmuş və bu barədə əsaslandırılmış təkliflər Rəyasət Heyətinə təqdim edilmişdir.

Belə ki, 30 iyul 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyinin qərarı ilə Azərbaycan Məhkəmə Palatası Dairəsi üzrə Andlı Müvəkkillər Şurasının təşkili işinə başlanılmış, 12 noyabr 1919-cu ildə isə AXC-nin Ədliyyə Nazirliyinin müraciəti əsasında vəkillərin dəqiqləşdirilmiş siyahısı təqdim edilmiş və Əlimərdan bəy Topçubaşov, İsmayılxan Ziyadxanov, Xəlil bəy Xasməmmədov və Fətəli xan Xoyskinin adları həmin dövrdə tərtib olunan vəkillərin reyestrində aşkar olunmuşdur.

Vəkillik institutunun müstəqil təsisat kimi formalaşması və fəaliyyəti isə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Ümummilli Lider tərəfindən 28 dekabr 1999-cu ildə Azərbaycan Respublikasının "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunu imzalanmış, Azərbaycan tarixində ilk dəfə olaraq vəkillik tam müstəqil, hakimiyyətin heç bir qolundan asılı olmayan bir təsisat kimi təsbit edilmiş və həmin dövrdə qəbul olunmuş yeni prosessual qanunvericiliyə əsasən, vəkillik çəkişmə prinsipi əsasında prosesin bərabər hüquqlu tərəfinə çevrilmişdir. Ulu Öndərin vəkillik sahəsindəki

islahatları cənab Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilmiş, məhz onun rəhbərliyi ilə bu sahədə ciddi irəliləyişlər əldə olunmuşdur.

Bütün bu fəaliyyətin məntiqi davamı olaraq isə Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2019-cu il tarixli Sərəncamı ilə hər il dekabrın 28-nin ölkəmizdə "Vəkil günü" peşə bayramı kimi qeyd edilməsi qərara alınmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

SƏRƏNCAMI

"Vəkil günü" peşə bayramının təsis edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Hər il dekabrın 28-i Azərbaycan Respublikasında "Vəkil günü" peşə bayramı kimi qeyd edilsin.

İlham ƏLİYEV,

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 dekabr 2019-cu il

№ 1728

Vəkillər Kollegiyasının təşəbbüsü ilə vəkillərin peşə bayramı münasibətilə bəstələnmiş, sözləri Əməkdar incəsənət xadimi Barat Vüsala, musiqisi isə Əməkdar incəsənət xadimi Nailə Mirməmmədliyə məxsus olan "Vəkil marşı" ilk dəfə məhz həmin tarixi Sərəncamdan sonra peşə bayramı günündə səsləndirilərək, geniş vəkil ictimaiyyətinə təqdim olunmuşdur.

Vəkil Marşı

Biz Xalqın vəkiliyik,
Biz Haqqın vəkiliyik.
Vəkil adını seçdik,
Vəkillik andı içdik.

Nəqarət
Sadiqik adımıza,
Müqəddəs andımıza!
Hey!
Sadiqik adımıza,
Müqəddəs andımıza!
Qoy hüquq pozulmasın,
Haqsız bir iş olmasın!
Qanun olsun yalnız şah,
Xalqımızı qoruyaq!

Nəqarət
Sadiqik adımıza,
Müqəddəs andımıza!
Hey!
Sadiqik adımıza,
Müqəddəs andımıza!

Ətrafılı məlumat üçün QR Kodu oxudun

b. Çoxşaxəli fəaliyyətin təmin edilməsi üçün maliyyə müstəqilliyinin formalaşdırılması

Vəkillik sahəsində həyata keçirilən digər islahatlara gəldikdə isə, ilk öncə qeyd olunmalıdır ki, vəkillik təsisatının güclü, nüfuzlu və müstəqil təsisat kimi fəaliyyəti üçün hər şeydən əvvəl onun maliyyə müstəqilliyinin olması zəruridir. ARVK-da nə yerli, nə də beynəlxalq qurumlardan dəstək və qrant almadan maliyyə müstəqilliyinin təmin olunması üçün Vəkilliyin İnkişafı Fondu yaradılıb və qardaş Türkiyə təcrübəsindən faydalanaraq order markalarının tətbiqi nəticəsində Fondun vəsaiti formalaşır. Çünki yalnız üzvlük haqları hesabına ARVK-nın qanunla müəyyən olunmuş çoxşaxəli fəaliyyətini təmin etmək çətindir. Eyni zamanda beynəlxalq audit standartlarına və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Kollegiyanın maliyyə hesabatlarının yoxlanılması məqsədilə başa çatmış illər üzrə audit yoxlaması həyata keçirilir.

c. "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 fevral 2018-ci il tarixli Sərəncamı

Vəkilliyin yeni inkişaf mərhələsinə təkan vermiş Dövlətimizin başçısı 22 fevral 2018-ci il tarixli Sərəncamında dövlət hesabına göstərilən hüquqi yardıma görə müəyyən edilmiş məbləğin 3 dəfə artırılması, ixtisas imtahanlarının müntəzəm keçirilməsi, üzvlüyə xüsusən gənc hüquqşünasların qəbul edilməsi üçün şərait yaradılması, vəkillərin peşə hazırlığının və ixtisasının artırılması ilə bağlı zəruri tədbirlərin görülməsi, aztəminatlı şəxslər üçün ödənişsiz hüquqi xidmətlər göstərilməsinin təşkil edilməsi, müasir İKT-nin tətbiqi, hüquqi xidmətlərin elektron formada göstərilməsi təcrübəsini genişləndirmək üçün vəkilliyin vahid elektron informasiya sisteminin təşkili və bu sistemin "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiyası istiqamətində tədbirlərin görülməsi və sair məsələlər öz əksini tapmışdır. Sərəncamda qeyd olunan işlər bu gün də tam gücü ilə icra olunmaqdadır.

Belə ki, regionlarla bağlı apellyasiya məhkəmələrinin yurisdiksiyasına uyğun olaraq Gəncə, Sumqayıt, Şəki və Şirvan şəhərlərində Vəkillər Kollegiyasının regional vəkil qurumları yaradılmış, müvafiq binalarla təmin edilmiş, Lənkəran və Zaqatalada torpaq sahəsi ayrılmış, müasir İKT-nin imkanlarından yararlanmalarına dəstək göstərilmiş, bir çox bürolar əsaslı təmir edilmiş, maddi-texniki avadanlıqlarla təchiz edilmiş, regionlarda vəkillərin sayı bir neçə dəfə artırılmış, aylıq üzvlük haqları Bakıdakı vəkillərlə müqayisədə azaldılmış və onların fəaliyyətlərinin stimullaşdırılması üçün müxtəlif tədbirlərin görülməsi daim diqqət mərkəzində saxlanılmışdır. Bununla yanaşı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 iyun 2021-ci il tarixli Sərəncamı ilə Vəkillər Kollegiyasının Rəyasət Heyətinə Bakı şəhərində ümumi sahəsi təxminən 3212 kvadrat metr olan bina da ayrılmışdır.

Ölkəmizdə vəkilliyə verilən əhəmiyyətdən bəhs edərkən, bir məsələyə də toxunmadan keçmək olmaz. Hazırda vəkillər məhkəmə hakimiyyətinin özünü idarə edilməsi, formalaşdırılması, yəni Məhkəmə-Hüquq Şurasının və Hakimlərin Seçki Komitəsinin işində də üzv kimi fəaliyyət göstərirlər. Həmçinin,

bu gün Vəkillərin İxtisas Komissiyasının işində həm məhkəmə hakimiyyətinin təmsilçiləri, həm də hüquqşünas alimlər iştirak edirlər.

d. "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli Fərmanı

Prezident cənab İlham Əliyevin 3 aprel 2019-cu il tarixli Fərmanı vəkilliyin daha da mütərəqqi quruma çevrilməsi baxımından tarixi sənəd olmaqla yanaşı, gələcək dövr üçün onun inkişaf trayektoriyasını müəyyən edən yol xəritəsidir. Sənəddə mülki işlər və iqtisadi mübahisələr üzrə məhkəmə icraatının effektivliyinin artırılması, xüsusən sahibkarlıqla bağlı məsələlərin məhkəmələrdə daha sürətli və səmərəli həllinin təmin edilməsi məqsədilə digər qurumlarla bərabər Vəkillər Kollegiyasına mülki prosessual qanunvericiliyi kompleks şəkildə birgə təhlil edib, bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, onun təkmilləşdirilməsi barədə təkliflərin hazırlanması, vəkillərin cinayət təqibini həyata keçirən orqanların əməkdaşları ilə qeyri-prosessual münasibətlərə yol verməsinin qarşısının alınması üçün tədbirlərin gücləndirilməsi tövsiyə olunub. Fərmanın qəbul olunmasından qısa zaman sonra 31 may 2019-cu il tarixində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və Vəkillər Kollegiyasının təşkilatçılığı ilə "Məhkəmə-hüquq islahatlarına vəkil baxışı" mövzusunda konfrans baş tutmuşdur.

Bu gün də həmin istiqamətdə Kollegiya tərəfindən çevik və əməli işlər görülməkdədir. Belə ki, Fərmanın icrası ilə bağlı ARVK tərəfindən mülki və cinayət hüququ istiqamətləri üzrə 2 işçi qrup formalaşdırılmış və hər 2 qrupun hazırladığı geniş məzmunlu təkliflər paketi qanunverici orqana göndərilmişdir.

Bundan başqa, Sərəncamda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılıb ki, dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin birbaşa ARVK-ya ayrılması barədə işlər görülsün. Fərmandan irəli gələrək, dövlət hesabına göstərilən hüquqi yardıma görə vəsait artıq müvafiq icra hakimiyyətinə deyil, birbaşa ARVK-ya ayrılır, bürokratik maneələr aradan qaldırılaraq, şəffaflıq tam təmin olunur və ödənişlər yalnız nağdsız qaydada həyata keçirilir.

Fərmandan irəli gələn tələblərin icrası ilə əlaqədar, 30 noyabr 2019-cu ildə ARVK və Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının birgə təşkilatçılığı ilə və 20-dən artıq hakim, 40-dan çox vəkil, Ədliyyə Nazirliyi, Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin təmsilçilərinin iştirakı ilə dəyirmi masa keçirilmiş və əsas məqsədi hakimlər, vəkillər, cinayət təqibini həyata keçirən orqanların əməkdaşları arasında qarşılıqlı prosessual münasibətlərə işıq tutulması, bu sahədə qarşılaşıla bilən problemlərin təhlili təşkil edir.

Həmçinin, Fərmana uyğun olaraq, ARVK-nın həmtəsisçiliyi ilə Mediasiya Şurası yaradılmış və ölkədə mediasiyanın normal fəaliyyətinin təşkili üçün hər tərəfli dəstək göstərilir. Bu istiqamətdə, həmçinin, maliyyə yardımı ilə bağlı Şuradan ünvanlanan müraciətə əsasən Rəyasət Heyətinin iclasında ianə verilməsinə dair müsbət qərar qəbul edilmiş, habelə mediasiya sahəsində üzləşilən problemlər, onların həlli yolları və formalaşan təcrübə ilə bağlı Şuranın rəhbərliyi, vəkil və mediatorların iştirakı ilə bir neçə görüşlər keçirilmişdir.

e. Vəkillərin sosial sığorta ödənişlərinin 2 dəfə azaldılması

Cənab Prezidentin "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" imzaladığı Fərmanla illərdir ki, vəkilləri narahat edən məsələ də öz ədalətli həllini tapmışdır. Aparılan müzakirələr və edilən müraciətlər nəticəsində vəkillərin məcburi dövlət sosial sığorta haqqının 20 %-dən 10 %-ə (xərclər çıxılmaqla) endirilməsini nəzərdə tutan Qanun 02 iyun 2020-ci il tarixində təsdiq olunmuşdur. Qeyd edək ki, bu vaxtadək xərclər çıxılmadan sosial sığorta haqqı 20 %, gəlir vergisi isə 14 % təşkil edirdi. Qanuna edilmiş dəyişiklikdən sonra isə, xərclər çıxılmaqla müvafiq olaraq 10 % və 14 % təşkil edir. Ümumi vergi və icbari ödəniş yükü bundan sonra xərclər çıxılmaqla ödənildiyi üçün əslində daha da aşağı olacaqdır. Vergi orqanları ilə də tərəfimizdən işçi qaydada müzakirə və yazışmalar davam edir, xərclərin çıxılmasının vacibliyini onlar da artıq təsdiq ediblər.

f. Qanunvericiliyin təkmilləşdirilməsi, hüquqi yardımın keyfiyyətli həyata keçirilməsi ilə bağlı

Cənab Prezidentin 7 noyabr 2017-ci il tarixli Sərəncamları ilə Azərbaycan Respublikasının Mülki Prosessual, İnzibati Prosessual Məcəllələrinə və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanununa dəyişikliklər təsdiq edilmiş və həmin Sərəncamlarla vəkillik institutunun hüquq sistemində yerinin gücləndirilməsi, peşəkar və yüksək keyfiyyətli hüquqi yardımın həyata keçirilməsinin məhz vəkillərə həvalə olunması qərara alınmışdır.

Digər tərəfdən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 noyabr 2020-ci il tarixli qərarına əsasən, 2020-ci ilin noyabrından etibarən, məhkəmədən başqa, cinayət prosesini həyata keçirən digər orqanlara (təhqiqat, istintaq və prokurorluq orqanlarına) da dövlət hesabına göstərilən hüquqi yardıma görə vəkilə ödənişi nəzərdə tutan qərarların qəbul edilməsi səlahiyyəti verilmişdir. Beləliklə də, yalnız məhkəmə qərarı əsasında deyil, o cümlədən, həmin orqanların əsaslandırılmış qərarları əsasında da vəkillərə ödəniş həyata keçirilir.

Həmçinin, vəkillərin məhkəmə ekspertizasının aparılmasını sifariş vermələri, sübutların toplanılması üzrə fəaliyyətlərinin təmin edilməsi üçün "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilmişdir.

Bundan başqa, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində Milli Avtomatlaşdırılmış Pasport Sistemi üzrə məlumat şöbəsinə ünvanlanan vəkil sorğuları ilə bağlı cavabların gec verilməsi probleminin həlli üzrə əldə olunmuş razılığa əsasən, artıq həmin sorğuları elektron qaydada göndərib dərhal cavab almaq mümkün olmuşdur. Hazırda vəkillərin hüquqi yardımı vaxt itirmədən daha səmərəli şəkildə həyata keçirə bilmələri üçün vahid proqram təminatına inteqrasiya ilə bağlı danışıqlar aparılmaqdadır.

Bununla yanaşı, vəkillərin təşəbbüsləri, müxtəlif hüquq sahələrində qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq təcrübə nəzərə alınaraq, Vəkillər Kollegiyasının nəzdində "Biznes hüququ", "Əmək hüququ", "Elektron vəkillik", "Kibercinayətkarlıq və kibertəhlükəsizlik" və "Mübahisələrin alternativ həlli üzrə" komitələri təsis edilmişdir.

Biznes Hüququ Komitəsinin ilk ümumi yığıncağı

Eyni zamanda, qadın vəkillərin cəmiyyətdə rolunun artırılması, bilik və bacarıqlarının təkmilləşdirilməsi, məişət zorakılığı qurbanlarının müdafiəsində onların rolunun və qadın hüquqşünasların vəkilliyə marağının artırılması məqsədilə Azərbaycan Qadın Vəkillər Alyansı yaradılmışdır.

Bu və ya digər sahələrdə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı xüsusilə mərkəzi icra hakimiyyəti orqanları da daxil olmaqla, hər ay çoxsaylı qurumlardan, eyni zamanda, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsindən daxil olan sorğular, müraciətlər üzrə rəylər, yazılı mülahizələr, təkliflər mütəmadi olaraq ARVK işçi qrupları və Komitələri tərəfindən hazırlanır, real-praktiki problemlərin həlli daim diqqət mərkəzində saxlanılır. Bundan başqa, vəkillərin hüquqi yardımı vaxt itirmədən daha səmərəli şəkildə həyata keçirə bilmələri üçün innovasiyaların və elektron xidmətlərin tətbiqi uğurla təmin edilir.

Habelə, tərəfimizdən ölkəmizin mövcud qanunvericiliyi, beynəlxalq təcrübə, milli qanunvericiliyimizin müasir dünya hüquq sisteminə inteqrasiyası məsələləri nəzərə alınmaqla, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda dəyişikliklər edilməsi barədə Qanun layihəsi - geniş təkliflər paketi hazırlanmış və aidiyyəti normayaratma təşəbbüsünün subyektlərinə təqdim edilmişdir. Bu zaman Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurasının (CCBE) əsaslı təklifləri də nəzərə alınmışdır.

Həmçinin, 2019-cu ilin əvvəlindən etibarən, ARVK tərəfindən "Prodemos - Xalq üçün" layihəsi həyata keçirilməyə başlanılmışdır. Bu layihənin əsas məqsədi qanunvericilikdəki ictimai əhəmiyyət kəsb edən yenilikləri sadə dildə vətəndaşlarımıza izah etmək, hüquqi yardıma ehtiyacı olanlara dəstək olmaq, o cümlədən hər həftə ən aktual mövzular üzrə həmin sahədə ixtisaslaşmış vəkilləri dəvət etmək, vətəndaşlarımızın suallarını onlayn cavablandırmaqdan ibarətdir.

Son nəticədə görülən işlərin hamısının əsas qayəsini şəxslərin keyfiyyətli hüquqi yardımla təmin edilməsi təşkil edir ki, bu, ölkəmizdə vətəndaşların hüquqlarının müdafiəsi istiqamətində həyata keçirilən dövlət siyasətinin tamamlayıcı seqmentlərindən biridir. ARVK bu sahədə aparılan mütərəqqi dövlət siyasətinin daim dəstəkləyicisi və həmin siyasətin bir parçası olmaqda bundan sonra da davam edəcəkdir.

g. Metodik tövsiyələr

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanuna uyğun olaraq, Vəkillər Kollegiyası Rəyasət Heyətinin fəaliyyətinə aid olan məsələlərdən biri də metodik tövsiyələrin hazırlanmasıdır.

Bu məqsədlə ildə bir neçə dəfə "Azərbaycan vəkili" jurnalı; BMT, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) və s. beynəlxalq təşkilatlarla birgə "Vəkilin cinayət işində müdafiə fəaliyyəti" metodik

vəsaiti; “Vəkil məsləhətləri” toplusu; Uşaq hüquqlarının müdafiəsinə dair bələdçi/təlimat; “Nizami Gəncəvi: nəsihətləri, kəlamları, hikmət və aforizmləri” adlı kitab; Fərdin Xəlilovun “Cinayət mühakimə icraatında vəkil araşdırması” monoqrafiyası; 1958-ci il Nyu-York Konvensiyasının şərhinə dair Beynəlxalq Kommersiya Arbitraj Şurasının Təlimatı: Hakimlər üçün Azərbaycan dilində əl kitabı; BMT İnkişaf Proqramı ilə birlikdə “Həssas qruplara sosial hüquqlar üzrə hüquqi yardım” adlı bələdçi; “Hüquq və Mən” məktəblilər üçün qanunlar və məhkəmələr haqqında” bələdçi və “Hüquq və Mən” məktəblilər üçün işçi dəftər” də daxil olmaqla, müxtəlif hüquq sahələrinə aid kitablar, metodik vəsaitlər, təlimatlar, tövsiyələr, dərs vəsaitləri və s. hazırlanaraq dərc edilmiş və hüquq ictimaiyyətinin istifadəsinə pulsuz verilmişdir.





Cənab Prezidentin sərəncamı ilə ölkədə 2021-ci ilin “Nizami Gəncəvi İli” elan edilməsi ilə əlaqədar ARVK-nın dəstəyi ilə nəşr edilmiş “Nizami Gəncəvi: nəsihətləri, kəlamları, hikmət və aforizmləri” adlı kitab.

unicef

CRC30 YEARS
CONVENTION ON THE RIGHTS OF THE CHILD

Həmçinin, ARVK-nın demək olar ki, bütün fəaliyyət istiqamətləri üzrə qaydalar, təlimatlar hazırlanmış və hər biri rəsmi veb-saytda ictimaiyyətə əlçatanlıq üçün dərc edilmişdir.

2. VƏKİLLƏRİN FƏALİYYƏTİNƏ DƏSTƏK

a. Vəkillik fəaliyyətinin maneəsiz həyata keçirilməsi

Öncəki dönəmlərdən fərqli olaraq, Vəkillər Kollegiyasının rəhbərliyi vəkillərin müxtəlif dövlət orqanlarında rastlaşdıqları problemlərə operativ reaksiya verərək onların qarşılaşdıqları çətinliklərin həllinə öz dəstəyini verməkdədir. Həm dövlət orqanlarında müəyyən hallarda yarana bilən süni maneələr, həm də "Elektron məhkəmə" və digər elektron informasiya sistemlərində olan texniki problemlər barədə vəkillərin haqlı narahatlığı ARVK tərəfindən geniş təhlil olunur, Ədliyyə Nazirliyi və digər dövlət orqanları ilə əməkdaşlıq və danışıqlar çərçivəsində bu məsələlər öz həllini tapır. O cümlədən, hər hansı bir hüquq sahəsinin təkmilləşdirilməsi ilə bağlı vəkillərin təklifləri olduqda, bunlar ümumiləşdirilərək aidiyyəti qurumlara göndərilir və nəticəsi barədə vəkillər məlumatlandırılır.

Eyni zamanda, ARVK-nın fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı vəkillərin rəy və təklifləri nəzərə alınır, ixtisaslaşmalarından asılı olaraq onlar ARVK-nın tədris fəaliyyətinə, innovativ layihələrə, habelə qanunvericiliyin təkmilləşdirilməsi üzrə işlərə cəlb olunurlar.

Bununla paralel, ölkə Prezidentinin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən, hüquq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə ARVK-nın bir qrup üzvləri "Tərəqqi" medalı ilə təltif edilmişlər. Daha sonra isə, bir qrup xanım vəkilin "Tərəqqi" medalı ilə təltif edilməsi barədə Prezident tərəfindən 07.03.2022-ci il tarixli Sərəncam imzalanmışdır. Həmçinin, ARVK-nın Ağsaqqallar Şurasının sədri İkram Kərimov Prezidentin 04.04.2022-ci il tarixli Sərəncamına əsasən, hüquq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Habelə, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Dövlət Təhlükəsizliyi Xidməti və digər qurumlar tərəfindən cinayətlərin və cinayətkarların aşkar olunmasında hüquq müdafiə fəaliyyətini yüksək peşəkarlıqla icra etmiş, prinsipial və cəsarətli bir qrup vəkilin təltif edilməsi barədə ARVK-ya müraciətlər göndərilmiş və müvafiq olaraq Rəyasət Heyətinin iclaslarında bu barədə qərarlar qəbul edilmişdir.

b. Vəkillərə maddi yardım

Rəyasət Heyətinin müvafiq qərarları ilə ötən dövr ərzində müxtəlif xəstəliklərdən əziyyət çəkən 28 vəkilə maddi yardım göstərilmişdir.

Bundan əlavə, 258-dən çox vəkil isə analıq məzuniyyəti, təhsil və digər əsaslarla üzvlük haqqı ödəməkdən azad edilmişdir.

Həmçinin, 2-ci Qarabağ müharibəsində iştirak etmiş ARVK-nın 9 üzvü 2021-ci il üzrə ödənilməli olan üzvlük haqqından azad edilmiş, hər birinə maddi yardım verilmiş, eyni zamanda Rəyasət Heyəti tərəfindən tibbi-sosial reabilitasiyası məqsədilə müalicəyə göndərilmişdir.



3. VƏKİL HƏMRƏYLİYİ VƏ KARANTİN DÖVRÜNDƏ VƏKİLLİK

a. Ölkədəki çağırışlara dəstək

Öz həmvətənləri və həmkarları üçün birliyin nümayiş etdirilməsi, o cümlədən, ölkədəki çağırışlara dəstək məqsədilə, Rəyasət Heyətinin müvafiq qərarlarına uyğun olaraq, müxtəlif zamanlarda "Koronavirusla Mübarizəyə Dəstək" Fonduna, "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım" Fonduna, "YAŞAT" Fonduna, "Qarabağ Dirçəliş" Fonduna, Ukrayna Milli Vəkillər Kollegiyasına vəsaitlər köçürülmüşdür.

Həmin vəsaitlər Vəkilliyin İnkişafı Fonduna vəkillərin ödədikləri order markası xərcindən yığılan vəsait hesabına köçürüldüyündən, bu aksiyalarda bütün vəkilllərin iştirakı təmin olunmuşdur.

b. Karantin dövründə vəkillik

Ölkədə koronavirusla mübarizə sahəsində Kollegiya tərəfindən görülmüş işlərə gəldikdə isə, ilk olaraq qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq müraciət ünvanlanmış və qəbul edilmiş qərara əsasən, ən ciddi karantin rejimində belə, vəkillərin üzvlük vəsiqələri əsasında ölkə ərazisində sərbəst hərəkəti tam təmin edilmişdir.

O cümlədən, ARVK və TƏBİB-in birgə əməkdaşlığı çərçivəsində 2021-ci ilin aprel ayından etibarən ilk vaksinasiyalar üçün vəkillərə müvafiq yer və tibbi personal ayrılmışdır.

Daha sonra vəkillər karantin dövründə (2020-ci ilin iyul, dekabr və 2021-ci ilin yanvar aylarında) üzvlük haqqından azad olunmuş, 60 və daha yuxarı yaşlı vəkillər isə bundan əlavə 2020-ci ilin mart ayının 24-dən iyun ayının 1-nə kimi üzvlük haqqından tam azad edilmiş, karantin dövründə onların növbətçiliyə cəlb olunmaması üzrə tədbirlər görülmüşdür.

Karantin rejimi nəzərə alınmaqla, "LegalAid" elektron hüquqi yardım mobil tətbiqi "Legalaid" Hüquq Şirkəti ilə birgə hazırlanaraq vətəndaşların istifadəsinə verilmişdir. "LegalAid"-in yaradılmasında başlıca məqsəd vətəndaşların günün istənilən vaxtında və yerindən asılı olmayaraq onlayn, rahat və keyfiyyətli hüquqi yardıma çatımlılığını təmin etmək və vətəndaşlara ilkin ödənişsiz hüquqi yardım göstərməkdir.

Həmçinin, koronavirus infeksiyası ilə bağlı vəziyyət və bu infeksiyanın yayılmasının qarşısının alınması məqsədilə Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzində vətəndaşlar üçün ödənişsiz onlayn hüquqi yardım xidmətləri göstərilmişdir.

4. VƏKİLLİYİN TƏŞKİLATLANMASI VƏ VƏKİLLİYƏ QƏBUL

2018-ci ildən başlayaraq ARVK tərəfindən ölkəmizdə vəkillərin sayının artırılması üzrə geniş miqyaslı işlərin görülməsinə başlanılmışdır.

Qəbulla bağlı statistika

Vəkilliyə test üsulu ilə qəbulun 2004-cü ildən başladığını nəzərə alaraq qeyd olunmalıdır ki, 2004-2018-ci il aralığında (14 il ərzində) 5 yazılı test imtahanı keçirilməklə, vəkillərin sayı 931 nəfər təşkil edib. Son 5 il ərzində isə 10 yazılı test imtahanı keçirilib və vəkillərin sayı 2.5 dəfədən çox artaraq 2267 nəfərə çatıb (vəkillik fəaliyyətini davam etdirən ARVK üzvlərinin hazırki sayı 2240 təşkil edir). Nəticə etibarilə, gənc vəkillərin sayı da artaraq vəkillik xeyli cavanlaşmışdır.





Ümumilikdə isə, 4270 nəfərdən çox hüquqşünas bu imtahanlarda iştirak üçün müraciət edib.

Hazırda ölkədə 1836 nəfər kişi, 404 nəfər qadın vəkil var. Ölkə üzrə vəkillərin 1770 nəfəri Bakıda, 470 nəfəri isə rayonlarda fəaliyyət göstərir. Beləliklə də, həm xanım vəkillərin, həm də regionlardakı vəkillərin sayı da dəfələrlə artmışdır.



Lakin unutmaq olmaz ki, Azərbaycanda hüquqşünas məzunların sayı digər ölkələrdən təqribən 10 dəfə azdır. Bu da vəkillərin sayına birbaşa təsir edən amildir.

Müsabiqələrin keçirilməsi

2018-ci ildən etibarən elektron formaya keçirilmiş sənəd qəbulu həm də daimi əsaslarla aparılır. Ədalət mühakiməsinin iştirakçısı olan orqanlar sırasında ilk dəfə ARVK tərəfindən yazılı test mərhələsinin elektron qaydada Dövlət İmtahan Mərkəzində həyata keçirilməsinə başlanılmışdır. Şifahi imtahan mərhələsində isə, ARVK-nın veb-səhifəsində qeyd olunan imtahan proqramına uyğun olaraq eyni gündə imtahana gələn namizədlərə obyektivlik naminə eyni suallar verilir. Halbuki, əvvəlki illərdə fərqli şifahi imtahan təcrübəsi mövcud idi. Şəffaf keçirilən qəbul prosesləri BMT, GIZ, Avropa Şurası kimi beynəlxalq təşkilatlar, ABŞ və digər səfirliklərin nümayəndələri tərəfindən izlənilir.

Həmçinin, Avropa İttifaqı, Avropa Şurası, BMT-nin ixtisaslaşmış qurumları, Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ), Ali Məhkəmə, Ədliyyə

Akademiyası və s. çoxsaylı beynəlxalq və yerli qurumlarla birgə əməkdaşlıq çərçivəsində 5 il boyunca fərqli-fərqli mövzularda keçirilmiş təlimlərdə ümumilikdə 2130-dan çox vəkil iştirak etmişdir.

Hüquqi Yardım və Tədris Mərkəzi

Prezidentin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 22.02.2018-ci il tarixli Sərəncamından irəli gələrək ARVK Rəyasət Heyəti tərəfindən yaradılmış və 26.12.2019-cu il tarixdən fəaliyyətə başlamış Hüquqi Yardım və Tədris Mərkəzi (HYTM) əsas etibarı ilə vətəndaşlara peşəkar hüquqi yardımın göstərilməsi, mövcud qanunvericiliyə əsasən vəkillərin dövlət hesabına hüquqi yardımın göstərilməsinə cəlb olunduğu işlərin təşkil edilməsi və vəkillərə həmin işlər üzrə məhkəmə qərarı ilə müəyyən edilmiş haqqın vaxtında ödənilməsi, habelə vəkillərin peşəkarlıq səviyyəsinin daha da artırılması üçün onların tədrisə cəlb olunması işlərini təmin etməkdədir.

Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədov öz təşəbbüsü ilə yeni istifadəyə verilmiş Hüquqi Yardım və Tədris Mərkəzinə baş çəkərək onun fəaliyyəti və müasir iş şəraiti ilə tanış olub.

Beynəlxalq sahədə vəkilliyə qəbulla bağlı

Bundan əlavə, Birləşmiş Krallığın vəkillər birliyi olan Hüquq Cəmiyyəti ilə əldə olunmuş razılığa əsasən, artıq ARVK-nın üzvləri Böyük Britaniyada vəkilliyə qəbul üzrə müvafiq imtahanı verməklə orada vəkilliyə qəbul oluna və İngiltərə və Uels ərazisində vəkillik fəaliyyəti ilə məşğul ola bilərlər.

Vəkil vəsiqəsi və vəkil köməkçiləri

Rəyasət Heyətinin ilk qərarlarından biri də vəkil vəsiqələrinin yeni formasının hazırlanaraq vəkillərin istifadəsinə verilməsi barədə olmuşdur.

Vəkil köməkçiləri ilə bağlı isə, ilk öncə qeyd olunmalıdır ki, Rəyasət Heyətinin qərarı ilə "Vəkil köməkçilərinin fəaliyyətinin tənzimlənməsi" Qaydaları təsdiq edilmişdir. Bu Qaydalara uyğun olaraq vəkil köməkçiləri ilə əmək müqaviləsi bağlanmazdan əvvəl büro rəhbəri və ya fərdi vəkil tərəfindən müvafiq sənədlər təqdimatla ARVK-nın aparatına göndərilir. Qanunun tələblərinə uyğunluq yoxlanıldıqdan sonra vəkil köməkçisinin barəsində rəy tərtib olunur və bundan sonra vəkil köməkçisi müvafiq büro və ya fərdi vəkillə əmək müqaviləsi bağlayaraq fəaliyyətə başlayır.
Qeyd edək ki, həmin Qaydalarla ilk dəfə olaraq vəkil köməkçilərinə 3 il müddətinə etibarlı olan vəsiqənin verilməsi də nəzərdə tutulmuşdur.
Hazırda 245 nəfər vəkil köməkçisi fəaliyyət göstərir. Onlardan 95 nəfəri qadındır (39%).

AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASI
BAR ASSOCIATION OF THE REPUBLIC OF AZERBAIJAN
VƏKİL KÖMƏKÇİSİ VƏSİQƏSİNİN№ / LAWYER ASSISTANT'S CARD No: 0001
SOYADI/SURNAME:
ADI/NAME:
ATASININ ADI/PATRONYMIC:
VERİLMƏ TARİXİ/ISSUANCE DATE:
Səlahiyyət müddətində etibarlıdır. / Valid during the tenure.
Sədr /Chairman
Anar Bağırov

5. REGİONLARDA VƏKİLLİK VƏ VƏKİL BÜROLARI

2018-ci ildən öncə vəkil qurumlarının sayı 39 olsa da, hazırda bu rəqəm artaraq 125-i ötmüş və onların bir çoxu yenilənmiş, təmir olunmuş, maddi-texniki baza ilə təchiz edilmişdir.

Bu görülən işlər çərçivəsində də, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əldə olunmuş razılığa əsasən, bütün "ASAN Xidmət" Mərkəzlərində də Vəkil Büroları yaradılıb və səyyar vəkil xidmətləri göstərilir.

Ələlxüsus, öncə də qeyd olunduğu kimi, "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, regionlarla bağlı apellyasiya məhkəmələrinin yurisdiksiyasına uyğun olaraq Gəncə, Lənkəran, Sumqayıt, Şəki və Şirvan şəhərlərində ARVK-nın regional vəkil qurumları yaradılmış, onların fəaliyyəti üçün müvafiq binalarla (yerlərlə) təmin edilmişdir.

Bundan əlavə, regionlarda vəkillərin sayı bir neçə dəfə artırılmış, aylıq üzvlük haqları Bakıdakı vəkillərlə müqayisədə azaldılmış və onların fəaliyyətlərinin stimullaşdırılması üçün müxtəlif tədbirlərin görülməsi daim diqqət mərkəzində saxlanılmışdır.

ƏVVƏL
İNDİ

ADVOKAT
BAKI CITY
LEGAL ADVICE
BUREAU
VƏKİL BÜROSU
ƏVVƏL
İNDİ

ƏVVƏL
İNDİ

Eyni zamanda, ARVK-nın rəhbərliyi tərəfindən tez-tez regional səfərlər də daxil olmaqla, vəkil bürolarına ziyarət və vəkillərin peşə fəaliyyəti zamanı üzləşdikləri problemlərin, təkliflərin dinlənilməsi mütəmadi həyata keçirilir və aktual mövzular üzrə təlimlər də təşkil edilir.

1. ***Cənub bölgəsi vəkillərinin iştirakı ilə regional müşavirə***

2. ***Naxçıvana səfər və vəkillər üçün vəkil etikası mövzusunda seminar***

3. ***Respublikanın qərb regionu vəkillərinin iştirakı ilə elmi-praktik seminar***

4. ***Füzuli, Zaqatala, Beyləqan, Tərtər, Xızı, Masallı, İmişli, Mingəçevir, Yevlax və Ağcabədi rayonlarında məktəblilər üçün həyata keçirilən "Hüquq və Mən" layihəsi***

5. Sumqayıtda Vəkillər Kollegiyasının ilk regional vəkil qurumunun açılış mərasimi

6. Masallı "ASAN"da fəaliyyət göstərən hüquqi yardım mərkəzi ilə tanışlıq

7. ***“Gəncə Regional Qadın Mərkəzi” İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində gənclərlə görüş***

8. ***Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramova öz peşə həyatına 1980-ci ildə məhz vəkil kimi başlaması, 1986-cı ildə dövlət qulluğuna keçdiyi dövrədək qüsursuz fəaliyyəti nəzərə alınaraq, Rəyasət Heyətinin qərarına əsasən, “Azərbaycan Respublikası Vəkillər Kollegiyasının fəxri vəkili” adı ilə təltif olunması münasibətilə diplom və rəmzi vəkil mantiyası təqdim olunub.***

9. ***Şirvan Regional Vəkil Bürosunun açılış mərasimi***

10. Sumqayıt şəhəri 1 saylı Vəkil Bürosunun əsaslı təmirdən sonra açılış mərasimi

11. Şəki Regional Vəkil Bürosunun açılış mərasimi

12. Regional səfər çərçivəsində - Zaqatala

13. Regional səfər çərçivəsində - Mingəçevir

14. Regional səfər çərçivəsində - Yevlax

15. Regional səfər çərçivəsində - Göyçay

16. Şəki və Gəncə şəhərlərində "Mediasiya və perspektivləri" mövzusunda seminarlar

Bakı şəhərində və regionlarda vəkil bürolarının açılış mərasimləri

1. ***"Faiq Nağıyev və partnyorları" Vəkil Bürosu***

2. ***Bakı şəhəri 20 saylı Vəkil Bürosu***

3. *“Mirzəyev və partnyorları” Vəkil Bürosu*

4. *“Femida” Vəkil Bürosu*

5. *“Yusif Allahverdiyev və partnyorları” Vəkil Bürosu*

6. *Bakı şəhəri 33 saylı Vəkil Bürosu*

7. “Verdiktum” Vəkil Bürosu

8. “Xəzər Konsaltinq” Vəkil Bürosu

9. “Arbitrium” Vəkil Bürosu

10. “Kamandar Nəsibov və Partnyorları” Vəkil Bürosu

11. “Sirius” Vəkil Bürosu

12. “Universal” Vəkil Bürosu

13. “Union” Vəkil Bürosu

14. “Kəngərli və partnyorları” Vəkil Bürosu

15. Bakı şəhəri 14 saylı Vəkil Bürosunun əsaslı təmirdən sonra açılışı

16. Bakı şəhəri 11 saylı Vəkil Bürosunun əsaslı təmirdən sonra açılışı

17. Bakı şəhəri 13 saylı Vəkil Bürosunun əsaslı təmirdən sonra açılışı

18. Bakı şəhəri "Mərkəz" Vəkil Bürosunun əsaslı təmirdən sonra açılışı

19. Bakı şəhəri 10 saylı Vəkil Bürosunun əsaslı təmirdən sonra açılışı

6. BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Əvvəlki illərdə beynəlxalq əməkdaşlığın demək olar ki, yox səviyyəsində olmasına baxmayaraq, 2018-ci ildən artıq vəziyyət dəyişməyə başladı. Fəaliyyətini ictimaiyyətə açıq və şəffaflıq üzərində quran ARVK, məlumdur ki, qısa zaman kəsiyində beynəlxalq arenada çoxsaylı nailiyyətlər əldə etdi.

Bu dövr ərzində BMT-nin çoxsaylı ixtisaslaşmış qurumları, Avropa Şurası, Avropa İttifaqı, Dünya Bankı, Beynəlxalq Qırmızı Xaç Komitəsi, GIZ, həm ayrı-ayrı ölkələrin Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri, həm də bu təşkilatların müxtəlif qitələrdəki beynəlxalq birlikləri, habelə digər ölkələrin Azərbaycandakı səfirlikləri və Ticarət Palataları ilə əməkdaşlıq münasibətləri qurularaq möhkəmləndirilmişdir.

Həmçinin, vəkillik sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla (CCBE, ICJ) səmərəli əməkdaşlıq münasibətləri qurulmuşdur. Bu təşkilatların tövsiyələri ilə "Vəkillərin davranış qaydaları haqqında" Əsasnaməyə əlavə və dəyişikliklər edilməklə həmin sənədlər təkmilləşdirilmişdir. Daha sonra, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanuna edilmiş təkliflər də nəzərə alınmışdır.

ÜZVLÜK

ARVK Türkdilli və Əqrəba Ölkələrin Vəkillik Təşkilatları Birliyinə (Türk-Av) həmtəsisçi və üzv, daha sonra Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurasına (CCBE), Beynəlxalq Vəkillər Assosiasiyasına (UIA), Asiya və Sakit Okean Hüquq Assosiasiyasına (LAWASIA), Avropa Vəkillər Assosiasiyasına (AEA-EAL) üzv seçilmişdir.
Bundan əlavə, 16.02.2022-ci ildən etibarən ARVK rəsmi olaraq "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq 2019-2021" (PGG II) çərçivəsində Avropa Şurası və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Şərq Tərəfdaşlığı ölkələrində vəkillik peşəsinin Avropa standartlarına uyğun olaraq gücləndirilməsi" regional

layihəsinin fəaliyyətinə qoşulmuşdur. Layihə çərçivəsində Kollegiya "Genderlə əlaqəli məsələlərin peşəyə və ədalətə çatımlılığa təsiri" adlı VIII analitik buraxılışın onlayn təqdimatlarında müşahidəçi qismində, Avropa Hakimlərinin Məşvərət Şurasının 16 saylı Şərhinin tətbiq edilməsi ilə bağlı hakimlərin və vəkillərin görüşlərində və qadın vəkillərin assosiasiyalarının dəstəklənməsi sahəsində yol xəritələri və konsepsiya sənədlərinin tərtib edilməsində iştirak etmiş, o cümlədən Azərbaycanda gənc hüquqşünaslar assosiasiyalarının üzvləri əlaqəli regional layihələrə cəlb olunmuşdur.

2022-ci ildə, həmçinin, Avropa Şurasının Hüquqi əməkdaşlıq üzrə Avropa Komitəsinin (CDCJ) yeni təsis edilmiş alt-qurumu olan Vəkillərin (hüquqşünasların) müdafiəsi üzrə Ekspertlər Komitəsində (CJ-AV) ARVK-nın 3 nümayəndəsi - Aparat rəhbəri Bayram Orucov, sədrin müşaviri Fərhad Nəcəfov və ARVK üzvü Allahverən Oruclu təmsil olunma imkanı əldə edib. Belə ki, Strazburqda hibrid formada keçirilən iclaslarda hazırlanmaqda olan Vəkillik peşəsinin müdafiəsini gücləndirməyə yönəlmiş Konvensiyanın lahiyəsi üzrə müzakirələr aparılır və bu istiqamətdə əlavə və dəyişikliklərlə bağlı ARVK-nın xeyli təklifləri səsləndirilib.

Xüsusilə qeyd edək ki, Avropa Şurasına və Avropa İttifaqına üzv olan ölkələrin vəkillər kollegiyalarını, hüquq cəmiyyətlərini və 1 milyondan çox vəkili özündə birləşdirən CCBE təşkilatı Avropada ən böyük və nüfuzlu təşkilatlardan sayılır və Avropa hüquq peşəsinin səsi kimi tanınır. 4 il ərzində davam edən danışıqların, keçirilən iclasların, hazırlanan hesabatların nəticəsi olaraq, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası müstəqil peşə birliyi olaraq rəsmən tanınmış və 13 may 2022-ci il tarixdə İrlandiyanın paytaxtı Dublin şəhərində keçirilən plenar iclasda təqdimat və çıxışlarımızdan sonra, bütün ölkələrin suallarının cavablandırılmasının nəticəsi etibarilə böyük səs çoxluğu ilə CCBE-yə üzv qəbul olunmuşdur.

CCBE təşkilatına üzv olaraq Azərbaycan vəkillərinin avropalı vəkillər, kollegiyalar, o cümlədən hüquq cəmiyyətləri ilə əməkdaşlıq imkanları genişlənəcək, Avropada təcrübə keçmək imkanları mümkün olacaq, vəkillərin peşə hazırlığı artırılmaqla, onların fəaliyyətinin Avropa standartlarına uyğun həyata keçirilməsində müstəsna əhəmiyyət kəsb edəcəkdir. Bu, eyni zamanda, Vəkillər Kollegiyasının işinin daha da təkmilləşdirilməsi üçün böyük imkanlar yaradır və hesab edirik ki, CCBE-yə üzvlüyə nail olma son 4 ilin ən böyük uğurlarından biridir.

Qeyd edək ki, bu uğur ölkəmizin imicinə də müsbət təsir göstərir. İllər ərzində həmin təşkilatla gərginlik yaşanıb və tənqidi fikirlər səsləndirilib. Amma dövlətimizin uğurlu xarici siyasəti nəticəsində bizə qarşı münasibətlər artıq dəyişir, beynəlxalq sahədə aktiv fəaliyyət, bu kimi uğurlar və üzvlüklərlə əsassız fikirlərə qarşı mövqe sərgiləmək və ölkəmizin maraqlarını dəstəkləmək imkanı daha çox yaranmış olur.



Bundan başqa, ARVK-nın təqdimatı əsasında Vəkillərin İntizam Komissiyasının sədri, HYTM-nin direktoru Şahmar Məmmədov Avropa Vəkillər Assosiasiyasının (AEA-EAL) Deontologiya Komitəsinə üzv seçilmişdir.

BEYNƏLXALQ SAZİŞLƏR VƏ MEMORANDUMLAR

1. 07 mart 2018 - Tbilisidə Azərbaycan, Gürcüstan və Türkiyənin Vəkillər kollegiyalarının rəhbər şəxslərinin görüşü keçirilib. Görüşdə Cənubi Qafqazda həyata keçirilən iri miqyaslı layihələrdə iştirak edən ölkələr arasında hüquqi yardımın təşkili, vəkillik institutlarının inkişafı, Vəkillər kollegiyaları arasında əməkdaşlıq, qarşılıqlı hüquqi yardımın göstərilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, bu sahədə qanunvericiliyin öyrənilməsi, təcrübə mübadiləsi və s. məsələlər müzakirə olunub. Həmçinin, gələcəkdə hər üç ölkənin Vəkillər kollegiyaları arasında əməkdaşlığın daha da gücləndirilməsi barədə sənəd imzalanıb. Beləliklə, Ermənistan vəkillik sahəsində də regional əməkdaşlıqdan kənarda qaldı.

2. 15 sentyabr 2018 - Türk generalı Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu tərəfindən azad edilməsinin 100-cü ildönümü təntənəli surətdə qeyd edilib. Bu əlamətdar hadisə ilə bağlı həmin gün artıq Azərbaycan-Türkiyə vəkillərinin dostluq-həmrəylik günü kimi qeyd olunur;

3. 08 oktyabr 2018 - Belarus Respublikasının Vəkillər Kollegiyası ilə əməkdaşlıq haqqında memorandum imzalanıb;

4. May 2019 - ARVK ilə Birləşmiş Krallığın vəkillər birliyi olan Hüquq Cəmiyyəti arasında Azərbaycan Respublikasının Vəkillər Kollegiyası üzvlərinin Birləşmiş Krallıqda vəkilliyə qəbul üzrə müvafiq imtahanı verməklə orada vəkilliyə qəbul olunması və İngiltərə və Uels ərazisində vəkillik fəaliyyəti ilə məşğul olması ilə bağlı razılıq əldə olunub;

5. 4 oktyabr 2019 - ARVK MDB ölkələrinin, o cümlədən Gürcüstan və Monqolustanın üzv olduğu Vəkilliyin Əsas Prinsipləri Xartiyasına qoşulub;

6. 09-10 dekabr 2019 - Çinin Quançjou şəhərində 60-dan çox ölkədən 850-dək hüquqşünas və vəkilin iştirakı ilə keçirilən Vəkillərin Qlobal Forumunda iştirak edilmiş və Bütöv Çin Vəkillərinin Assosiasiyası (ACLA) ilə ARVK arasında əməkdaşlıq haqqında saziş imzalanıb;

世界律师大会
GLOBAL LAWYERS FORUM
新 闻 发 布 会
PRESS CONFERENCE

世界律师大会
GLOBAL LAWYERS FORUM

CCTV 12

7. 13 oktyabr 2020 - ARVK Asiya və Sakit Okean Hüquq Assosiasiyasının (LAWASIA) üzvlüyünə qəbul edilib;

8. 16 fevral 2022 - ARVK rəsmi olaraq “Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq 2019-2021” (PGG II) çərçivəsində Avropa Şurası və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Şərq Tərəfdaşlığı ölkələrində vəkillik peşəsinin Avropa standartlarına uyğun olaraq gücləndirilməsi” regional layihəsinin fəaliyyətinə qoşulub;
9. 13 may 2022 - Ötən 4 il ərzində davam edən əməkdaşlığın nəticəsi olaraq, CCBE tərəfindən ARVK müstəqil peşə birliyi olaraq rəsmən tanınıb və böyük səs çoxluğu ilə üzv qəbul olunub;
10. 25 may 2022 - VKRH üzvlərinin, hüquq müdafiəçilərinin, 140-dan çox vəkilin və mətbuat nümayəndələrinin iştirakı ilə CCBE-yə üzvlüyə qəbulla bağlı ictimai təqdimat keçirilib.

11. 29 sentyabr 2022 - ARVK-nın Avropa Vəkillər Assosiasiyasına (AEA-EAL) üzvlüklə bağlı müraciəti müsbət qiymətləndirilmə və uğurlu keçən prosesdən sonra, ARVK rəsmi olaraq AEA-EAL-a üzv qəbul olunub.

12. Xaricdəki soydaşlarımızın hüquqlarının səmərəli müdafiəsi ilə bağlı Rusiya, Belarus, Özbəkistan, Gürcüstan da daxil olmaqla, digər MBD ölkələri ilə də memorandumlar imzalanıb.

ƏCNƏBİ HƏMKARLARA DƏSTƏK

Bunlarla yanaşı, Ukraynadakı vəkil həmkarlarımızın, onların ailələrinin ağır durumları və yardıma ehtiyacları nəzərə alınaraq, ayrı-ayrı vaxtlarda Azərbaycan vəkilləri öz ukraynalı həmkarlarına dəstək məqsədilə ianələr ediblər. Həmçinin, Rəyasət Heyətinin iclasında da ARVK-nın Ukrayna Milli Vəkillər Kollegiyasına ianə etməsi ilə bağlı məsələyə baxılaraq müsbət qərar verilmişdir.

SƏFƏRLƏR

Beynəlxalq əməkdaşlıqların qurulması və davam etdirilməsi məqsədilə ARVK rəhbərliyi və üzvləri beynəlxalq tədbirlərə, elmi-nəzəri konfranslara qatılmaq, çıxışlar, tezislər, hesabatlar təqdim etmək də daxil olmaqla, müxtəlif formalarda aktiv iştirak edir, Azərbaycan vəkilliyini təmsil edirlər.

Eyni zamanda, həmin beynəlxalq təşkilatların rəhbərliyinin də ölkəyə səfəri zamanı ARVK-nı ziyarət etməklə əməkdaşlığın gücləndirilməsi isqamətində bir çox razılıqlar əldə olunmuşdur.

Birgə əməkdaşlıq çərçivəsində ölkə daxilində hər il onlarla geniş miqyaslı və silsilə tədbirlər, layihələr icra olunmuş, çoxsaylı hesabatlar, fəaliyyət proqramları tərtib edilmiş, qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflər hazırlanmışdır.

Belə ki:

ARVK RƏHBƏRLİYİNİN VƏ ÜZVLƏRİNİN BEYNƏLXALQ TƏDBİRLƏRDƏ İŞTİRAKI VƏ ÇIXIŞLARI, HABELƏ ONLAYN KONFRANSLAR:

1. 23 mart 2018 - Türkiyənin Ankara şəhərində Türkiyə Vəkillər Kollegiyaları Birliyinin (TVKB) təşkilatçılığı ilə Türkdilli və Qohum Ölkələrin Vəkillik Qurumlarının Birliyinə (TÜRK-AV) üzv ölkələrin ümumi yığıncağı;

2. 15-19 may 2018 - Rusiyanın Sankt Peterburq şəhərində VIII Beynəlxalq Hüquq Forumu;
3. 29-30 iyun 2018 - TÜRK-AV və TVKB-nin Kastamonu şəhərində "Ölkələrarası əlaqələrin inkişafında vəkillər və vəkillər kollegiyalarının rolu" mövzusunda beynəlxalq konfrans;
4. 15-16 iyun 2018 - Qazaxıstanın Almatı şəhərində "Vəkillər 2018 - hüquqi xidmətlərin keyfiyyətinin artırılması" mövzusunda konfrans;
5. 20 iyul 2018 - Türkiyənin İstanbul şəhərində Beynəlxalq Hüquqşünaslar Birliyi, Türkiyə Hüquq Platforması, Konstitusiya Hüquqçuları Dərnəyi, Türkiyə Ədliyyə Akademiyası və İstanbul Universitetinin birgə təşkil etdiyi "Dövlətə qarşı 3-cü qiyam ilə mübarizə və 15 iyul" adlı simpozium;
6. 26 oktyabr 2018 - Beynəlxalq Cinayət Məhkəməsi ilə Gürcüstan Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə Tiflis şəhərində konfrans;
7. 02 noyabr 2018 - Belarusun paytaxtı Minskdə Belarus və Rusiya Vəkillərinin Federal Palatası tərəfindən təşkil olunmuş "Dövlət və vəkillik: qarşılıqlı əlaqə yolları" mövzusunda konfrans;
8. 08-09 noyabr 2018 - Gürcüstanın Tiflis şəhərində Vəkillərin Beynəlxalq Konfransı;

9. Noyabr, 2018 - Vəkillərin İntizam Komissiyası üzvlərinin Almaniyaya təcrübə səfəri; Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) dəstəyi ilə baş tutan səfərin əsas məqsədi Azərbaycan və Almaniya Vəkillər Kollegiyaları arasında əməkdaşlıq münasibətlərinin qurulması, vəkillərin intizam məsələlərinə baxılması ilə bağlı Almaniya təcrübəsinin öyrənilməsi, habelə müvəkillər və vəkillər arasında hüquqi xidmətlərin göstərilməsi sahəsində yaranan mübahisələrin həlli və sair məsələlər barəsində təcrübə mübadiləsinin təmin edilməsi olmuşdur.

10. 29 noyabr 2018 - Türkiyənin İstanbul şəhərində Avropa Şurası və Avropa İttifaqı tərəfindən birgə təşkil olunan "Nəzarət orqanları tərəfindən çirkli pulların yuyulmasına qarşı mübarizədə risk əsaslı yanaşma" mövzusunda təlim;

11. 18 dekabr 2018 - Moskva şəhərində Rusiya Federal Vəkillər Palatasının təşkilatçılığı ilə baş tutan "Vəkillik, dövlət və cəmiyyət" mövzusunda XIII elmi-praktik konfrans;

12. 8 fevral 2019 - "Hüquqi dövlətin formalaşmasında məhkəmə sisteminin rolu" mövzusunda Belarus ədliyyəsinin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfrans;

13. 14-15 fevral 2019 - Rusiyanın Yekaterinburq şəhərində "Səhv: hüquq yaxud məsuliyyət?" mövzusunda XVI elmi-praktiki konfrans;
14. 28 fevral - 01 mart 2019 - Avstriyanın Vyana şəhərində "Avropa Vəkillər Kollegiyaları rəhbərlərinin 47-ci Toplantısı"ı;

15. 05 aprel 2019 - Almaniyanın Berlin şəhərində vəkillərin peşə sirri məsələlərinə həsr olunmuş 42 müxtəlif ölkənin VK nümayəndələrinin iştirakı ilə keçirilmiş konfrans;
16. 25-26 aprel 2019 - Özbəkistanda "Daşkənd Beynəlxalq Yaz Hüquq Forumu";

17. 14-18 may 2019 - Rusiyanın Sankt-Peterburq şəhərində IX Beynəlxalq Hüquq Forumu;
18. 21 iyun 2019 - Rusiyanın Kalininqrad şəhərində vəkillik fəaliyyətinin VII Beynəlxalq Praktiki Konfransı;

19. 04-05 iyul 2019 - Fransanın Strazburq şəhərində Avropa Şurası tərəfindən həyata keçirilən Hüquqşünaslar üçün İnsan Hüquqlarının Tədrisi üzrə Proqramın (HELP) 2018-ci ilin yekunları üzrə hesabat konfransı;



20. 04-07 iyul 2019 - Polşanın Qdansk şəhərində "Fərdi məlumatların mühafizəsi: nəzəriyyə və təcrübə" mövzusunda konfrans;
21. 27-28 sentyabr 2019 - Dağıstanın Mahaçqala şəhərində "Xəzəryanı əməkdaşlıq çərçivəsində vəkillik fəaliyyəti" mövzusunda I beynəlxalq elmi-praktik konfrans;
22. 25 oktyabr 2019 - Özbəkistanın Daşkənd şəhərində "Vəkillik institutunun inkişafı konsepsiyası: Özbəkistan və xarici ölkələrin təcrübəsi" mövzusunda konfrans;
23. 08 noyabr 2019 - Gürcüstanın Tiflis şəhərində Avropa Şurası və Gürcüstan Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə baş tutan Gürcüstan vəkilliyinin 100 illiyinə həsr olunmuş "Ədalət mühakiməsinin səmərəli idarə olunmasında vəkillər kollegiyaları və hüquq cəmiyyətlərinin rolu" mövzusunda konfrans;

24. 19 noyabr 2019 - Prezident cənab İlham Əliyevin "Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin qeyd edilməsi haqqında" 10.04.2019-cu il tarixli Sərəncamının icrası ilə əlaqədar Ankara Universitetində ARVK, Azərbaycanın Türkiyədəki Səfirliyi, Türkiyədəki Azərbaycanlı İş Adamlarının Birliyi, Anadolu Xəbər Agentliyinin birgə təşkilatçılığı ilə tanınmış mütəfəkkir Əhməd bəy Ağaoğlunun 150 illiyi ilə əlaqədar keçirilən silsilə tədbirlər çərçivəsində "Ortaq dəyərimiz – Əhməd bəy Ağaoğlu" mövzusunda konfrans keçirilmişdir. Tədbirdən sonra Hüquq fakültəsində Ə.Ağaoğlunun xatirəsinin əbədiləşdirilməsi məqsədilə onun adı verilmiş mühazirə otağının təntənəli açılışı keçirilmiş və ARVK tərəfindən Ə.Ağaoğlunun doğulduğu Şuşa şəhərində yerləşən "Gövhər Ağa məscidi" rəsm əsəri mühazirə otağında asılması üçün fakültə rəhbərliyinə hədiyyə verilmişdir;

25. 15 noyabr 2019 - Çelyabinsk şəhərində Rusiya vəkilliyinin 155 illiyi və Çelyabinsk vəkilliyinin 85 illiyi münasibətilə keçirilmiş tədbir;

26. 21-22 noyabr 2019 – Bolqarıstanda Sofiya Vəkillər Kollegiyasının yubiley ili çərçivəsində "Demokratik cəmiyyətdə qanunun aliliyi naminə vəkilliyin rolu" mövzusunda konfrans;

27. 15 dekabr 2019 - Qazaxıstanın Nursultan şəhərində "Müdafiə hüquq və çəkişmənin Qazaxıstanda səmərəli həyata keçirilməsi" mövzusunda IV forum;

28. 21 fevral 2020 - Avstriyanın Vyana şəhərində "Avropa Vəkillər Kollegiyalarının Rəhbərlərinin 48-ci Toplantısı"ı;

29. Mart, iyun, iyul 2022 - CCBE-nin ən mühüm Komitəsi "PECO"-nun (Mübadilə, əməkdaşlıq və dəstək platforması) hibrid formada keçirilən hesabat iclasları;

30. 27 aprel 2020 - Honq Konq Vəkillər Kollegiyasının təşkilatçılığı və 80-dən artıq ölkənin vəkillər kollegiyalarının iştirakı ilə "COVID-19-un çağırışlarına hüquq cəmiyyəti necə cavab verməlidir?" mövzusunda videokonfrans;
31. 18 may 2020 - Rusiya Federal Vəkillər Palatasının təşəbbüsü ilə "Azərbaycan, Belarus respublikaları və Rusiya Federasiyasında vəkilliyin rəqəmsal ekosisteminin formalaşdırılması" mövzusunda elmi-təcrübi videokonfrans;
32. 09 iyun 2020 - Almaniya Federal Vəkillər Palatasının təşkilatçılığı ilə "COVID-19: mövzu vəkil peşəsidir" adlı videokonfrans;
33. 12 sentyabr 2020 - Vəkillərin Avropa Assosiasiyasının (AEA-EAL) təşkilatçılığı ilə "Vəkillik fəaliyyətində elektron xidmətlərdən istifadə" mövzusunda konfrans;
34. 27 oktyabr 2020 - UIA (Beynəlxalq Vəkillər Assosiasiyası) təşkilatı üzvlərinin illik Baş Assambleyası;
35. 30 oktyabr 2020 - Alman Vəkillər Kollegiyaları Birliyinin videokonfransı;
36. 25 noyabr 2020 - UIA-nın təşkilatçılığı ilə "Vəkillər Kollegiyaları üzvlərinin COVID-19 pandemiyasından sonra mənəvi və psixoloji sağlamlıqlarını qoruma mexanizmləri, yardım mexanizmləri və çətin anlarda stresi idarə etməsi" mövzusunda tədbir;
37. 27 noyabr 2020 - "Rəqəmsallaşdırma və vəkil: qanunun aliliyi, ədalət və insan hüquqlarının qorunması üçün yeni çağırışlar" mövzusunda Qazaxıstan Beynəlxalq Hüquqşünaslar (onlayn) Forumu;
38. 17 dekabr 2020 - UIA təşkilatının "İctimai hüquq təhsilinin təşviqi üçün atılan addımlar" mövzusunda onlayn forum;
39. 12 yanvar 2021 - Hong Kong Hüquq Cəmiyyəti ilə Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə "Koronavirus pandemiyası zamanı vəkillik üçün çətinliklər və imkanlar" mövzusunda Prezidentlərin Dəyirmi (Onlayn) Masası;
40. 19 fevral 2021 - Ukraynanın Lvov şəhərində "Əqli mülkiyyət obyektlərinin məhkəmə ekspertizası" mövzusunda elmi-praktik konfrans;
41. Mart, iyun, iyul 2022 - CCBE-nin ən mühüm Komitəsi "PECO"-nun (Mübadilə, əməkdaşlıq və dəstək platforması) hibrid formada keçirilən hesabat iclasları;
42. 15 mart 2021 - Azərbaycan və İran Vəkillər Kollegiyalarının rəhbərliyi arasında onlayn görüş;
43. 22-23 aprel 2021 - "Daşkənd Hüquq Baharı" onlayn Forumu;
44. 12-15 sentyabr 2021 - Belarusun Minsk şəhərində "Qlobal iqtisadi çağırışların insanların əmək və sosial hüquqlarına təsiri" mövzusunda konfrans;
45. 04 oktyabr 2021 - "Qırğız vəkillərinin II qurultayı" və Qırğızıstan Respublikasının Prezidenti ilə görüş;

Qırğızıstan Respublikasının Prezidenti cənab Sadır Japarov ilə görüş

ARVK-nın sədri Anar Bağırovun Qurultayda çıxışı

46. 12 oktyabr 2021 - Moskva şəhərində "Vəkillik, Dövlət, Cəmiyyət" mövzusunda XVII elmi-praktik konfrans;

47. 04-05 noyabr 2021 - Qazaxıstanın Almatı şəhərində “İnzibati hüquqda sübutlar və sübutetmə” mövzusunda konfrans;
48. 15 dekabr 2021 - Özbəkistan Respublikasının Vəkillər Palatasının təşkilatçılığı ilə “Vəkillər şiddətə qarşı!” adlı onlayn dəyirmi masa;
49. Mart, iyun, iyul 2022 - CCBE-nin ən mühüm Komitəsi “PECO”-nun (Mübadilə, əməkdaşlıq və dəstək platforması) hibrid formada keçirilən hesabat iclasları;
50. 06-08 aprel 2022 - Avropa Şurasının Hüquqi əməkdaşlıq üzrə Avropa Komitəsinin (CDCJ) yeni təsis edilmiş alt-qurumu olan Vəkillərin (hüquqşünasların) müdafiəsi üzrə Ekspertlər Komitəsinin (CJ-AV) Strazburqda keçirilən ilk iclası;
51. 02-03 iyun 2022 - Polşanın Varşava şəhərində 5-ci Müasir Vəkillər Kollegiyaları Konfransı;
52. 9-11 iyun 2022 – Avstriyanın Vyana şəhərində “Avropa Vəkillər Kollegiyaları rəhbərlərinin 50-ci yubiley Konfrans”ı;
53. 22-24 iyun 2022 - İlk dəfə CCBE-yə üzv Kollegiya olaraq, Bolqarıstanın Sofiya şəhərində keçirilən növbəti CCBE Komitələrinin iclaslarında iştirak.

54. 07 iyul 2022 - Belarusun Minsk şəhərində Belarus Vəkillər Kollegiyasının 100 illiyinə həsr olunmuş Vəkillərin I Qurultayı;
55. 11-13 iyul 2022 - Fransanın Strasburq şəhərində Avropa Şurasının Hüquqşünasların (Vəkillərin) Müdafiəsi üzrə Ekspertlər Komitəsinin (CJ-AV) Vəkillərin Müdafiəsi barədə Konvensiya layihəsinin hazırlanması istiqamətində 2-ci iclasında iştirak;
56. 16-18 sentyabr 2022 - Dağıstan vəkilliyinin 100 illiyinə həsr olunmuş tədbir;

57. 29-30 sentyabr 2022 - Almaniya Federal Vəkillər Palatası tərəfindən təşkil olunmuş 5-ci Beynəlxalq Vəkillər Forumu;
58. 4-5 noyabr 2022 - Özbəkistanda keçirilən II Beynəlxalq Vəkillər Konfransı.

BEYNƏLXALQ TƏŞKİLATLARIN NÜMAYƏNDƏLƏRİNİN VƏ DİGƏR XARİCİ RƏSMİLƏRİN ARVK-YA SƏFƏRİ *(ARVK tərəfindən görülmüş işlərlə tanışlıq, qurumun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əməkdaşlıq perspektivlərinin müzakirəsi)*

1. 17 yanvar 2018 - BMT-nin Azərbaycan Respublikasındakı Rezident Əlaqələndiricisi Qulam İsakzai, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ölkə üzrə nümayəndəsi Furio De Angelis və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Azərbaycandakı ofisinin rəhbəri Kamran Bağırov;
2. 27 fevral 2018 - Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin 1-ci müşaviri Denis Daniilidis;
3. 11 iyul 2018 - GIZ-in Cənubi Qafqaz üzrə Hüquq Layihəsinin rəhbəri Thomas Meyer;
4. 08 oktyabr 2018 - Belarus Respublikasının Vəkillər Kollegiyasının sədri, Belarus parlamentinin Dövlət Quruculuğu və Hüquq Siyasəti Daimi Komissiyasının sədr müavini və Prezident yanında Əfv Komissiyasının üzvü Viktor Çayçitsin rəhbərlik etdiyi nümayəndə heyəti;
5. 14 noyabr 2018 - CCBE-nin sədr müavini Ranko Poliçariç;
6. 14 noyabr 2018 - Hüquqşünasların Beynəlxalq Komissiyasının (ICJ)-nin baş katibi Saman Zarifinin rəhbərlik etdiyi nümayəndə heyəti;
7. 08 fevral 2019 - BMT-nin Cənubi Qafqazdakı Ofisinin İnsan Hüquqları üzrə Baş Müşaviri Vladimir Şkolnikov və nümayəndə heyəti;

8. 13 fevral 2019 - Meksikanın Azərbaycan Respublikasındakı səfiri Rodriqo Labardini;

9. 15 fevral 2019 - GIZ-in "Cənubi Qafqazda Avropa standartlarına hüquqi yaxınlaşma" regional proqramının rəhbərliyi;
10. 19 fevral 2019 - ABŞ-nin ölkəmizdəki səfirliyinin rəhbəri - müvəqqəti işlər vəkili cənab Uilyam Gilin rəhbərlik etdiyi nümayəndə heyəti;



11. 18 mart 2019 - Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) Azərbaycan nümayəndəliyinin rəhbəri Vladimir Qyroqiyevin rəhbərlik etdiyi nümayəndə heyəti;
12. 07 may 2019 - Avropa Şurasının Siyasi məsələlər direktoratlığının rəhbəri Aleksandr Qesselin rəhbərlik etdiyi nümayəndə heyəti;

13. 17 may 2019 - Çin Hüquq Cəmiyyətinin nümayəndə heyəti;
14. 13 iyun 2019 - Avropa Şurasının İnsan Hüquqları Siyasəti və İnkişaf Departamentinin rəhbəri Mixail Lobovun rəhbərlik etdiyi nümayəndə heyəti;
15. 12 iyul 2019 - Avropa Şurasının İnsan Hüquqları üzrə komissarı Dunya Miyatoviçin rəhbərlik etdiyi nümayəndə heyəti;

16. 06 iyul 2019 - ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberqerin rəhbərlik etdiyi nümayəndə heyəti;

17. 22 avqust 2019 - BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsi Quido Ambrosonun rəhbərlik etdiyi nümayəndə heyəti;
18. 21 oktyabr 2019 - Fransa Vəkillər Kollegiyasının üzvü, tanınmış vəkil Olivye Pardo;
19. 28 noyabr 2019 - Qazaxıstan Parlamentinin, Ali Məhkəməsinin, Baş Prokurorluğunun yüksək səviyyəli təmsilçiləri;
20. 16 yanvar 2020 - Almaniya Federativ Respublikasının Azərbaycandakı səfiri Volfqanq Maniqin rəhbərlik etdiyi nümayəndə heyəti;

21. 27 yanvar 2020 - Dünya Bankının Azərbaycanda həyata keçirilən "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu layihəsi" üzrə missiyası;
22. 24 sentyabr 2020 - BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Cənubi Qafqazdakı ofisinin nümayəndələri;
23. 19 fevral 2021 - BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqazdakı ofisinin nümayəndələri;
24. 22 aprel 2021 - Paris Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvü Yasin Yakuti və media sahəsində geniş əlaqələrə malik olan digər vəkil Elis Arfi;
25. 28 oktyabr 2021 - Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Direktoratlığının rəhbəri (baş direktoru) Xristos Cakoumopoulosun başçılıq etdiyi nümayəndə heyəti;

26. 11 noyabr 2021 - BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqazdakı ofisinin nümayəndələri;
27. 20 dekabr 2021 - Qazaxıstan Respublikasının Ali Məhkəməsinin hakimləri;
28. 6 aprel 2022 - BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının Cənubi Qafqazdakı ofisinin nümayəndələri;
29. 22 sentyabr 2022 - Monqolustanın Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvü, əməkdar hüquqşünası və fəxri konsulun müşaviri;
30. 19 oktyabr 2022 - Ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Direktoratlığının Məhkəmə qərarlarının icrası departamentinin bölmə rəhbəri Pavlo Puşkarın başçılıq etdiyi nümayəndə heyəti;
31. 2 noyabr 2022 - Gürcüstan Vəkillər Kollegiyasının sədri, Avropa Vəkillər Assosiasiyasının (AEA-EAL) vitse-prezidenti cənab David Asatianinin rəhbərlik etdiyi nümayəndə heyəti.

ÖLKƏMİZDƏ TƏŞKİL EDİLMİŞ BEYNƏLXALQ TƏDBİRLƏR, LAYİHƏLƏR, TƏLİMLƏR, HABELƏ ONLAYN KONFRANSLAR

1. 15-16 noyabr 2018 - Avropa Şurası, Hüquqşünasların Beynəlxalq Komissiyası (ICJ) və ARVK-nın birgə təşkilatçılığı, o cümlədən 10-dan çox xarici ölkənin və beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə "Vəkillərin rolu və müstəqilliyi: müqayisəli perspektivlər" mövzusunda beynəlxalq konfrans;

2. 29 aprel 2019 - ARVK, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Hüquq və İnsan Haqları İnstitutu (HİHİ) və Türkiyənin Özyeğin Universitetinin Hüquq Fakültəsinin birgə təşkilatçılığı ilə "Hüquqi məsuliyyət" mövzusunda beynəlxalq elmi-praktik konfrans;
3. Oktyabr 2019 - Azərbaycan vəkilliyinin 100 illiyi münasibətilə Bakıda 20-dən çox ölkənin vəkillər kollegiyalarının rəhbərliyi, beynəlxalq təşkilatların nümayəndələri daxil olmaqla, 200-dən çox xarici qonaq, o cümlədən yüksək vəzifəli dövlət rəsmiləri, hüquq ictimaiyyətinin təmsilçiləri, QHT və KİV nümayəndələri ilə birlikdə, ümumilikdə, 700-dək iştirakçının qatıldığı müxtəlif proqramlardan ibarət yubiley tədbirləri və "Güclü və nüfuzlu vəkillik – müasir dövrün çağırışları" mövzusunda beynəlxalq konfrans; Konfransın yerli və xarici qonaqları Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında baş tutan konsert proqramında iştirak etmiş, Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında müxtəlif klassik əsərləri dinləmişlər. Tədbirin sonunda qonaqların şərəfinə rəsmi ziyafət verilmiş, ziyafətdə müxtəlif ölkələrdən ölkəmizə təşrif buyurmuş nümayəndə heyətlərinin rəhbərləri çıxış etmiş, təmsil etdikləri ölkələr adından ARVK-ya hədiyyələr təqdim etmişlər. Bundan əlavə, oktyabr ayının 5-6-sı tarixlərində ölkəmizdə səfərdə olan qonaqlar üçün Qəbələ-Şəki turu təşkil olunmuşdur. Qonaqlar Şəkidə Xan Sarayı, Karvansaray, Qəbələdə Tufandağ kanat xətti, Savalan şərab zavodu, Çuxur Qəbələ Arxeoloji Mərkəzini gəzmişlər. Azərbaycanın səfalı guşələrində olan qonaqlar Şəki Məhkəmə Kompleksi və Qəbələ rayon Məhkəməsinin müasir binaları ilə tanış olmuşlar. Yubiley tədbirləri çərçivəsində Azərbaycan və Gürcüstan Vəkillər Kollegiyalarının birgə təşkilatçılığı ilə "Vəkillər arasında 1-ci Cənubi Qafqaz Beynəlxalq Futbol Turniri" də keçirilmişdir;

"Güclü və Nüfuzlu Vəkillik –
Müasir Dövrün Çağırışları"
mövzusunda
BEYNƏLXALQ KONFRANS
"Strong and Prestigious Advocacy –
Modern Challenges"
INTERNATIONAL CONFERENCE
1919
2019
Azərbaycan Vəkilliyi
giz

mövzusunda
BEYNƏLXALQ KONFRANS
"STRONG AND PRESTIGIOUS ADVOCAC
MODERN CHALLENGES"
INTERNATIONAL CONFERENCE
Baku, 04.10.2019
1919
2019
Azərbaycan Vəkilliyi
AZƏRBAYCAN RESPUBLİKASININ
VƏKİLLƏR KOLLEGİYASI
alman
əməkdaşlığı
giz
Sonia Fontain
Thomas Herrmann

Ətraflı məlumat üçün QR Kodu oxudun

4. 15 noyabr 2019 - ARVK, AMEA HİHİ və Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) birgə təşkilatçılığı ilə "Süni intellekt və insan hüquqları" mövzusunda beynəlxalq konfrans;
5. 22 iyul 2020 - Almaniya-Azərbaycan Ticarət Palatası və ARVK-nın birgə təşkilatçılığı ilə onlayn dəyirmi masa;



6. 24 avqust 2021 - LAWASIA-nın prezidenti Chunghwan Choi ilə onlayn görüş;
7. 09 mart 2021 - Türkiyə Barolar Birliyi və ARVK-nın təşkilatçılığı ilə "Qadına qarşı yönələn şiddətlə mübarizədə hüquq və psixologiyanın yeri" mövzusunda videokonfrans;

8. 28-29 oktyabr 2021 - Avropa Şurasının Bakı Ofisi ilə Ədliyyə Akademiyasının birgə əməkdaşlığı və ARVK HYTM-nin təşkilatçılığı ilə vəkillər üçün "Gender Bərabərliyi və Media Azadlığı" mövzusunda ixtisasartırma kursu;
9. 02 dekabr 2021 - Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birgə əməkdaşlıq çərçivəsində ARVK üzvləri üçün "Beynəlxalq humanitar hüquq çərçivəsində məhkəmə zəmanətləri" mövzusunda beynəlxalq eskpertlərin iştirakı ilə təlim;
10. Avropa Şurasının əsas ekspertlərindən Mark Seqal tərəfindən ənənəvi qaydada "Vəkil təlimçilər üçün təlim", "Qeyri-verbal kommunikasiya üzrə təlim";
11. Dünyada ən nüfuzlu arbitr hesab olunan Qari Born və Patrisiya Şonessinin iştirakı ilə beynəlxalq videokonfrans;
12. 07-10 sentyabr 2021 - Beynəlxalq Miqrasiya Təşkilatı və ARVK-nın birgə təşkilatçılığı ilə Birləşmiş Ştatların Beynəlxalq İnkişaf Agentliyi (USAID) tərəfindən maliyyələşdirilən "İnsan Alverinə qarşı Mübarizə üzrə Fəaliyyət" layihəsi çərçivəsində vəkillər və praktik hüquqşünaslar üçün insan alveri mövzusunda silsilə təlimlər;
13. Aprel, oktyabr, noyabr 2021 - Avropa İttifaqı və Avropa Şurasının birgə layihəsi, o cümlədən ARVK ilə birgə əməkdaşlıq çərçivəsində HELP üzrə vəkillər üçün "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinə giriş" mövzusunda təqdimatlar, görüşlər və uzun müddətli təlim kursları;
14. 10 dekabr 2021 - "İnsan Hüquqları günü" münasibətilə Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov və AŞ Katibliyinin əməkdaşları ilə onlayn təqdimat;
15. 12 yanvar 2022 - CCBE və ARVK-nın birgə təşkilatçılığı ilə "İntizam məsələləri – peşə sirri və vəkillərin ifadə azadlığı" mövzusunda vebinar;
16. 16 fevral 2022 - ARVK-nın "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq 2019-2021" (PGG II) çərçivəsində Avropa Şurası və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Şərq Tərəfdaşlığı ölkələrində vəkillik peşəsinin Avropa standartlarına uyğun olaraq gücləndirilməsi" regional layihəsinin fəaliyyətinə rəsmi olaraq qoşulması.

7. 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ (II QARABAĞ MÜHARİBƏSİ)

(ARVK tərəfindən görülən işlər)

Məlum olduğu kimi, 27 sentyabr 2020-ci ildə Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının mülki əhalisinə qarşı törədilən təxribatlara və yeni təcavüz aktına cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələri özünü müdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirlərini həyata keçirmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi və yenilməz, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində, 44 gün ərzində ərazi bütövlüyümüz bərpa edildi. Bu Şanlı Zəfər qəhrəman oğullarımızın qanı və canı bahasına qazanıldı. Müharibədə həlak olmuş şəhidlərimizin əziz xatirələri bugünkü və gələcək nəsillərin yaddaşında əbədi yaşayacaq. Bu tarixin əbədiləşdirilməsi məqsədilə cənab Prezidentin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə hər il 8 noyabr Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd olunur.

Yalnız cəbhədə deyil, həmçinin informasiya sahəsində gedən müharibədə ARVK da erməni yalanlarının ifşa edilməsi, erməni faşizminin və Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində uğurlu mübarizə aparmışdır.

ARVK müxtəlif mövzular üzrə hüquqi və faktiki cəhətdən əsaslandırılmış hesabat xarakterli müraciətini beynəlxalq hüquq-müdafiə təşkilatları, xarici ölkələrin vəkillər kollegiyaları və hüquq cəmiyyətləri daxil olmaqla, yüzlərlə beynəlxalq təşkilata ünvanlamış və Ermənistan tərəfindən müharibə cinayətləri əməllərinə son qoymasının tələb edilməsinə, həmin cinayətlərə qiymət verilməsinə və bu hərəkətlərin kəskin şəkildə qınanılmasına çağırmışdır.

Belə ki:

1) Müharibə dövründə Ermənistan Respublikası tərəfindən Azərbaycan əhalisinin sıx yerləşdiyi yaşayış məntəqələrinin məqsədyönlü şəkildə raket atəşinə tutulması, qadağan olunmuş silah və sursatlardan istifadə edilməsi, münaqişəyə müxtəlif yerlərdən terrorçu qruplaşmaların cəlb edilməsi, iki dəfə razılaşdırılmış və elan olunmuş humanitar atəşkəsin pozulması və s. müharibə cinayətlərinə qiymət verilməsi ilə bağlı ARVK tərəfindən xarici dillərdə hazırlanmış geniş hesabatla 150-dən çox beynəlxalq təşkilata müraciət göndərilmişdir;

2) Müharibədən sonra, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatla Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsinə, uzun illər davam edən işğala son qoyulmasına və Ermənistan tərəfinin işğal etdikləri ərazilərin bir neçəsindən mərhələli şəkildə çıxmaları nəzərdə tutulmasına baxmayaraq, erməni faşistləri bu zaman çərçivəsində boşaltdıqları ərazilərdə evləri, məktəbləri, tarixi-mədəni abidələri dağıtmış, talamış, meşələri yandırmış, ağacları kəsmiş, memarlıq abidələrinin bir qismi ermənilşdirilmiş, digər qismi vandalizmə uğradılmış, bağ, park, memarlıq və dini abidələr dağıdılmışdır. ARVK bu ekoloji və mədəni terrorla bağlı xarici dillərdə hazırladığı digər hesabatı 230 beynəlxalq təşkilata və ali qurumların 40 səlahiyyətli şəxslərinə ünvanlamışdır;

3) Ermənistan Respublikası rəsmilərinin, Ermənistan Vəkillər Palatasının və beynəlxalq media nümayəndələrinin səsləndirdiyi, yaydığı yalan bəyanatlara və iddialara ARVK tərəfindən rəsmi təkzib, anti-tezis hazırlanmış və bütün beynəlxalq təşkilatlara göndərilmişdir (ilk müraciətə qoşma kimi əlavə olunub);

4) Hazırlanan hesabatlardan ən mötəbərlərindən biri də dünyaca tanınan, beynəlxalq, müstəqil ekspertlərin hazırladığı "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanda mülki şəxslərin hədəfə alınması, sentyabr -noyabr 2020" adlı aralıq hesabat olmuşdur. Bu hesabatı "BM Morrison Partners" beynəlxalq hüquq firmasının rəhbəri Fərhad Mirzəyevin təşəbbüsü,

ARVK-nın dəstəyi və dəvəti ilə “Queen’s Counsel” statuslu, beynəlxalq cinayət hüququ üzrə görkəmli vəkil, “9 Bedford Row” vəkillər palatasının nümayəndəsi Steven Keyin başçılıq etdiyi qrup ölkəmizə gələrək və regionlara səfər edərək, müharibə cinayətlərini yerində araşdırıb hazırlamışdır. Hesabatda müharibə dövründə Azərbaycanın müxtəlif şəhərlərində dinc əhaliyə edilən hücumlara, ermənilər tərəfindən işğalda olduğu zaman Füzuli rayonunda törədilən əməllərə və hərəkətlərə də hüquqi qiymət verilmişdir. Hesabat beynəlxalq hüququn mənbələrinə, müvafiq norma və prinsiplərinə, həmçinin oxşar presedentlərə (keçmiş Yuqoslaviya, Kosovo və Ruanda) əsasən hazırlanmışdır.

5) 04 iyun 2021-ci ildə Kəlbəcərdə bir qrup şəxsin və jurnalistlərin minaya düşməsinə, baş verən insan hüquqları pozuntusuna etinasız qalmamağa, o cümlədən Ermənistanın minalanmış ərazilərin xəritələrini Azərbaycana verməklə bağlı öhdəliklərinə və beynəlxalq humanitar hüququn normalarına əməl etmələri üçün tədbirlər görmələrinə çağırmaq məqsədilə, 230 beynəlxalq təşkilata ARVK tərəfindən xarici dillərdə hazırlanmış hesabatla birlikdə növbəti müraciət də ünvanlanmışdır;

6) ARVK-nın "ProDemos-Xalq üçün" layihəsinin komandası ilə birlikdə "What is happening in Karabakh?" adlı ingilis dilində tezis - 30.09.2020;



7) ARVK-nın "ProDemos-Xalq üçün" layihəsinin komandası ilə birlikdə "Relocation of Armenians from the Regions Liberated by Azerbaıjan" adlı ingilis dilində məqalə - 19.11.2020;

8) ARVK-nın “ProDemos-Xalq üçün” layihəsinin komandası ilə birlikdə “Attacks on Civilians” adlı ingilis dilində məqalə - 20.11.2020;

9) Qarabağ münaqişəsi haqqında səhih məlumatların (azərbaycan, rus və ingilis dillərində tarixi sənədlər, gündəlik məlumatlar, foto və video görüntülər və s.) toplandığı "Qarabağ Azərbaycandır" adlı portalın təbliği və təşviqi üçün ARVK tərəfindən də dəstək göstərilmişdir;

10) Müharibə zamanı ARVK rəhbərliyi tərəfindən Gəncə şəhərinə səfər edilərək, erməni terrorundan zərər çəkmiş şəxslərə müvafiq hüquqi sənədlərin hazırlanmasında və digər müxtəlif istiqamətlərdə dəstək göstərilmişdir;

11) Azərbaycana dəstək və erməni işğalı ilə bağlı Şərqi Azərbaycan Vəkillər Kollegiyasının İnsan Hüquqları Komissiyasının Bəyanatı - 03.10.2020;

12) Ermənistan tərəfindən mülki insanların qətlə yetirilməsi, törədilən müharibə cinayətləri və vəhşiliklər Pakistanın Vəkillər Kollegiyaları tərəfindən pislənmişdir;

13) Demək olar ki, müharibənin getdiyi hər gündə Türkiyənin bütün bölgələrindəki Vəkillər Kollegiyaları ARVK-ya və Azərbaycan xalqına dəstəklərini nümayiş etdirmiş, beynəlxalq təşkilatlara bəyanatlar göndərmişlər;

14) 13.10.2020-ci ildə ARVK-nın nüfuzlu LAWASIA təşkilatına (5 qitəni əhatə edən, hüquq peşəsinin maraqları və problemləri ilə bağlı fəaliyyət göstərən, hakim, vəkil və hüquq təşkilatlarının üzv olduğu qlobal assosiasiya) üzv qəbul olunması zamanı ARVK sədri Anar Bağırov tədbir iştirakçılarının diqqətinə Ermənistanın Azərbaycana qarşı işğalçı və təcavüzkar siyasətini, 1949-cu il tarixli Cenevrə Konvensiyasının müddəalarının və digər beynəlxalq humanitar hüquq normalarının kobudcasına pozulmasını çatdıraraq, bu cinayətkar əməllərin kəskin qınanılmasının zəruriliyini bildirmişdir;

15) Xüsusilə qeyd edək ki, müharibənin informasiya cəbhəsində də getməsi ilə bağlı ARVK tərəfindən minlərlə üzvün qatıldığı "ƏKS-PROPOQANDA" adlı "Facebook" sosial şəbəkə qrupu yaradılmış

və erməni yalanlarının ifşa edilməsi istiqamətində sistemli-komanda şəklində mübarizə aparılmışdır;

16) Vətən Müharibəsi zamanı və sonrakı dönəmdə ARVK üzvləri - vəkillər tərəfindən görülən saysız-hesabsız işlər və çoxsaylı fəaliyyətlər ictimaiyyətə məlumdur. Lakin, xüsusilə qeyd olunmalıdır ki, Aprel döyüşləri şəhidi, əfsanəvi kəşfiyyatçı, "Murov Qartalı" ləqəbli şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı vəkil Sevinc Əsgərxan qızı Alızadənin təşəbbüsü ilə yaradılmış "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin fəaliyyəti mühüm əhəmiyyətə malikdir (www.zafer.az). Onun tərəfindən görülən çoxsaylı işlər ilə ətraflı aşağıdakı QR kod vasitəsilə tanış olmaq mümkündür;

17) Səfərbərlik üzrə hərbi xidmətə çağırılan bütün vəkillərimiz tərxis olunanadək, onların ailələrinə hər ay maliyyə yardımının göstərilməsi, həmin vəkillərimizin üzvlük və saxlama xərclərindən azad edilməsi, eyni zamanda, səfərbər olunan vəkillərin icraatında olan işlərin əvəzsiz qaydada digər vəkil həmkarlara həvalə edilməsi, o cümlədən, tərxisdən sonra da Vətən Müharibəsində iştirak etmiş 9 vəkilin "Azərbaycan vəkilliyinin 100 illiyi" yubiley döş nişanları ilə təltif olunması, ailələrinə əlavə olaraq maliyyə yardımının edilməsi və tibbi-sosial reabilitasiyası məqsədilə müalicəyə göndərilməsi barədə Rəyasət Heyəti tərəfindən müvafiq qərarlar qəbul edilmişdir.

Cabbarlı Polad Arif oğlu

Məcidli Elşən Seyidəli oğlu

Cabbarov Mirhəsən Miri oğlu

Əzimov Rauf Nəriman oğlu

Səmədzadə Xəyal Natiq oğlu

Babayev Bəxtiyar Rəhim oğlu

Kərimov Fərhad Azad oğlu

Pənahov Pənah Səməd oğlu

Məhərrəmov Elvin Zamin oğlu

8. VƏKİLLİKDƏ İNNOVASİYALARIN TƏTBİQİ - ELEKTRON XİDMƏTLƏR

Vəkillikdə innovasiyaların tətbiqi məsələsi hər zaman xüsusi həssaslıqla yanaşılan məsələlərdən biridir. Vətəndaşların hüquqi yardıma çatımlılığını təmin etmək üçün Vəkillər Kollegiyasının veb-saytında bütün vəkil qurumlarının və vəkillərin onlayn reyestri yaradılmış və buradakı bütün informasiyaların yenilənməsi daim təmin edilməkdədir.

Məlum olduğu kimi, vəkillik sahəsini tənzimləyən qanunvericilikdə vəkillərin ixitsaslaşmalarına görə fərqləndirilməsi aparılmasa da, real olaraq ARVK-nın rəsmi internet səhifəsində (reyestrində) vəkillərin ixtisaslaşmalarına uyğun olaraq bölgüsü həyata keçirilmişdir.



Bundan başqa, hər bir vəkil üçün elektron kabinet istifadəyə verilmiş və həmin kabinetlər "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiya olunmuşdur. Həmçinin, Kollegiyanın rəsmi sənədlərinin və vəkillərə aid sənədlərin dövriyyəsi həmin elektron kabinet üzərindən həyata keçirilir. O cümlədən, göndərilən yeni sənədlər və məlumatlar barədə vəkillər sms və e-poçt vasitəsilə də məlumatlandırılırlar.

Cari VKRH fəaliyyətə başladığı zamandan etibarən vəkilliyə qəbulla bağlı sənəd qəbulu elektronlaşdırılmış və hazırda bu, daha da təkmilləşdirilərək, namizədlər sənədlərini veb-sayt üzərindən müvafiq platforma vasitəsilə də onlayn qaydada göndərə biləcəklər.

ARVK Aparatı daxilində sənəd mübadiləsinin elektronlaşdırılması çərçivəsində vəkillərin şəxsi işləri də elektronlaşdırılaraq elektron baza yaradılmışdır.

Digər tərəfdən, 2020-ci ildə pandemiya səbəbindən karantin rejimi nəzərə alınmaqla "LegalAid" elektron hüquqi yardım mobil tətbiqi hazırlanaraq vətəndaşların istifadəsinə verilmişdir. "LegalAid"-in yaradılmasında başlıca məqsəd vətəndaşların günün istənilən vaxtında və yerindən asılı olmayaraq onlayn, rahat və keyfiyyətli hüquqi yardıma çatımlılığını təmin etmək və vətəndaşlara ilkin ödənişsiz hüquqi yardım göstərməkdir.

Dövlət hesabına hüquqi yardımın göstərilməsi ilə bağlı isə, qərarlar mərkəzləşdirilmiş qaydada ARVK-nın HYTM-ə elektron qaydada göndərilir və bu qərarlar HYTM-dən bürolara və fərdi vəkillərə şəxsi kabinet vasitəsilə də onlayn qaydada ötürülür.

Eyni zamanda, qeyd etmək istərdik ki, artıq ödənişsiz hüquqi yardımlar – yəni, "Pro Bono"lar ənənəvi qayda ilə yanaşı, həmçinin, onlayn formada da aparılır.

Bundan başqa, ötən dövrdə "Davamlı tədris üzrə" elektron platforma vəkillərin istifadəsinə təqdim olunmuşdur. Bununla da regionlardakı vəkillərin paytaxta gəlmədən onlayn qaydada kurslarda iştirakı təmin edilir və sonda onlar üçün onlayn qiymətləndirmə keçirilir.

Həmçinin, vəkil sorğularının elektron formada əldə olunması üzrə hazırda müvafiq qurumlarla işlər davam etdirilməkdədir.

Bununla yanaşı, yaxın gələcəkdə "Elektron vəkil orderi" platforması da istifadəyə veriləcəkdir.

Digər tərəfdən, Çinin "Huawei" şirkətinin rəhbərliyi ilə ARVK-da görüş keçirilmiş, innovativ texnologiyalardan vəkillərin istifadə perspektivlərinin stimullaşdırılması, habelə vəkillər üçün dəstək xarakterli tədbirlərin görülməsi və gələcək əməkdaşlığın möhkəmləndirilməsi üzrə planlar barədə fikir mübadiləsi aparılmışdır.

Bu sahədə dövlət qurumları ilə də əməkdaşlıqlar çərçivəsində, vəkillərin məhkəmələrə müraciətlərin elektron göndərilməsinin təmin olunması məqsədilə 2018-ci ildə 100-ə yaxın vəkilə "ASAN imza" verilmiş, daha sonra 300-dən artıq vəkil üçün elektron imza hazırlanmışdır.

Eyni zamanda, 1000-dən çox vəkilə "Elektron məhkəmə" informasiya sistemində elektron kabinetin imkanları və elektron müraciət qaydalarına dair təlimlər keçirilmiş, həmçinin bu təlimlərdə istifadə olunan vəsait geniş istifadə üçün Kollegiyanın saytında yerləşdirilmişdir.

9. TƏLƏBƏ VƏ GƏNCLƏRƏ DƏSTƏK

Memorandumlar

Gənc hüquqşünasların vəkilliyə marağının artırılması da diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu mənada ARVK-nın Bakı Dövlət Universiteti (BDU), Prezident yanında Dövlət İdarəçilik Akademiyası (DİA), Milli Aviasiya Akademiyası, Dövlət Gömrük Komitəsinin Akademiyası, ADA Universiteti ilə bağlanmış əməkdaşlıq sazişləri uğurlu təşəbbüs kimi qiymətləndirilə bilər və yaxın zamanda oxşar sazişlərin DİN-in Polis Akademiyası və digər ali təhsil müəssisələri ilə də imzalanmasına dair ilkin razılıqlar əldə olunub.

Həmin əməkdaşlıqlar çərçivəsində ARVK-nın maddi dəstəyi ilə DİA-da "Hüquq ədəbiyyatı kitabxanası" yaradılmış, təmir edilərək kitabla təmin edilmiş, o cümlədən, həm universitetlərlə birgə elmi-praktik konfrans keçirilmiş, həm də müxtəlif layihələr və proqramlar icra edilmişdir.

Təqaüd, Təcrübə proqramları və Tövsiyələr

Həssas sosial qrupa aid ailələrdən olan və yüksək akademik göstəricilərlə fərqlənən tələbələrə ARVK tərəfindən təsis edilmiş "Əlimərdan bəy Topçubaşov" adına təqaüd verilir.

Eyni zamanda, tələbələrin həm könüllü formada, həm də ali təhsil müəssisələrinin istehsalat təcrübəsi ilə bağlı müraciəti vasitəsilə vəkil qurumlarında peşəkar təcrübə keçmələri təmin olunur.

Son illər ərzində edilən müraciətlərə əsasən, ümumilikdə 235 tələbə təcrübəyə cəlb olunmuşdur. Onlardan 120 nəfəri ali təhsil müəssisələrinin müraciəti, 115 tələbə isə fərdi müraciət əsasında bir neçə aylıq təcrübə proqramlarında iştirak ediblər.

Digər tərəfdən, xaricə təhsil üçün gedən və ya digər ölkələrdə vəkilliyə sənəd verən onlarla hüquqşünasların hər il ARVK-ya ünvanladıqları müraciətlərə dərhal reaksiya verilir, həmçinin ARVK tərəfindən xüsusi tövsiyə məktubu və arayış tərtib edilərək həmin ölkələrə göndərilir.

O cümlədən, Böyük Britaniya ilə əldə olunmuş razılıq formasına uyğun olaraq, digər ölkələrdə də vəkilliyə qəbulla bağlı prosedurların asanlaşdırılması ARVK üçün əsas prioritet məsələlərdən biridir.

Tələbə təşkilatları ilə əməkdaşlıq

2 il ard-arda “Philip C. Jessup” Beynəlxalq Məhkəmə Müsabiqəsinin həm Azərbaycanda keçirilməsi həm də qaliblərin ABŞ-dakı raundlarda iştirakı üçün maddi dəstək göstərilmiş, habelə, 3 fərqli ildə Vyanada keçirilən Beynəlxalq Kommersiya Arbitraj Müsabiqəsində (Willem C. Vis Moot) Azərbaycanı

təmsil edən komandanın səfər və ya iştirak xərcləri qarşılanmış, pandemiya zamanı onlayn raundlarda isə təşkilati dəstək göstərilmişdir.

Bundan əlavə, DİA Hüquq Klubunun məhkəmə simulyasiya üzrə layihəsinə maddi yardım edilmiş, həmçinin, BDU "Sabah" qrupunun tələbələrinin məhkəmə müsabiqələri də daxil olmaqla, ali təhsil müəssisələrinin daxili tədbirlərinə, tələbələrin digər təşəbbüslərinə müxtəlif formalarda dəstək göstərilmişdir.

Hər il Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə tərəfdaşlığımıza uyğun olaraq ADA Universitetində də Məhkəmə Müsabiqələri (Moot Court) təşkil olunur.

ARVK ilə ELSA (Avropa Hüquqşünas Tələbələr Assosiasiyası) arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən, ARVK-nın dəstəyi ilə ELSA Azərbaycan hər il 3 instansiya məhkəmələrində Milli Məhkəmə, Arbitraj Məhkəməsi, Avropa İnsan Hüquqları Məhkəməsi Simulyasiyaları və digər müxtəlif formatlarda Səhnələşdirilmiş Məhkəmə Müsabiqələri təşkil edir və final mərhələsi təntənəli şəkildə Ali Məhkəmədə keçirilir.

Bu müsabiqələr zamanı kazusların hazırlanması, çoxsaylı təlimlərin təşkil olunması birbaşa vəkillər tərəfindən aparılır, habelə, ARVK-nın müraciəti əsasında məhkəmələrdə real hakimlərin iştirakı təmin edilir.

Bundan başqa, HYTM-nin inzibati binası və bir neçə vəkil bürosunda vəkillərin təlimçi kimi iştirakı ilə 44 təlim, vörkşop, panel müzakirə, "Career Talks" - "Karyera Söhbətləri", müştəri konsultasiya müsabiqələri, kampaniyalar, iclaslar baş tutmuşdur.

ARVK, Gənclər Fondu, Ali Məhkəmənin dəstəyi və ELSA Azərbaycanın təşkilatçılığı ilə "Məhkəmə-hüquq islahatları mövzusunda gənclərin maarifləndirilməsi" mövzusunda silsilə tədbirlər keçirilmiş, Ali Məhkəmədə açılış mərasimi baş tutmuş, növbəti günlər ARVK sədri və üzvləri tərəfindən müxtəlif mövzularda təlimlər keçirilmişdir.

ARVK ilə ELSA-nın birgə layihəsi olan “ProDemos-Xalq üçün”ün komanda üzvləri potensiallı ELSA-lılardan formalaşdırılmış və onlar tərəfindən onlayn şəkildə hər gün sosial şəbəkələr və veb-sayt vasitəsilə vətəndaşların ictimai maarifləndirilməsi, habelə, onlara ilkin hüquqi məsləhətlərin verilməsi həyata keçirilir.

Şagirdlər-məktəblilər üçün layihələr

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) ilə əməkdaşlıq çərçivəsində ARVK respublikamızın 10 orta məktəbində (Füzuli, Zaqatala, Beyləqan, Tərtər, Xızı, Masallı, İmişli, Mingəçevir, Yevlax və Ağcabədi rayonlarında) “Hüquq və Mən” layihəsi keçirmişdir.

Şagirdlər üçün təcrübi-nəzəri təlimlər 5 həftə davam etmiş və sonuncu - 6-cı həftə isə onların məhkəmələrin fəaliyyəti ilə tanış olmaları, həmçinin açıq məhkəmə iclaslarında iştirak etmələri məqsədilə müvafiq rayonların məhkəmələrinə ekskursiyalar təşkil edilmişdir.

Layihə çərçivəsində şagirdlərə təlimlərdə istifadə üçün illüstrativ formatda oxu kitabı və işçi dəftər təqdim olunmuşdur. Məxsusi olaraq vəsaitlər üçün illüstrasiyalar Almaniyanın Potsdam Universitetinin qrafika-dizayn fakültəsi tərəfindən hazırlanmışdır.

Eyni zamanda, ADA Universiteti gənclərinin təşəbbüsü və ARVK-nın maddi-akademik dəstəyi ilə Bakı və Gəncədə çoxsaylı məktəblərdə yüzlərlə şagird üçün "Voice of law" hüquqi maarifləndirmə layihəsi həyata keçirilmişdir.

Yay Məktəbi

Ölkədə ilk dəfə ARVK və Gənclər Fondunun birgə təşkilatçılığı ilə 13 yerli və xarici universitetdən 300-dən artıq hüquqşünas tələbənin müraciət etdiyi "Vəkil olmaq istəyirəm" adlı 1 aylıq Yay Məktəbi təşkil olunub və proqramı fərqlənmə ilə bitirən 36 tələbə isə bölgələrdə keçirilən yay düşərgəsində iştirak etmək hüququ qazanıblar.

“Yüksəliş” müsabiqəsi

İstedadlı kadrların seçilərək inkişaf etdirilməsinə, idarəetmə bacarıqlarının gücləndirilməsinə və məqsədlərinə çatmalarına dəstək olmaq istiqamətində həyata keçirilən bu müsabiqədə ARVK sədri Anar Bağırov idarəçi rəhbərlərindən biri seçilib və müsabiqədə qalib olmuş şəxs bir illik fərdi inkişaf proqramı-mentorluq çərçivəsində A.Bağırovla təcrübəyə cəlb olunur.

EXPO BAKU

10. SOSİAL AKSİYALAR, YARIŞMALAR VƏ İCTİMAİ FƏALİYYƏT

Qocalar və uşaqlar evinə tez-tez səfərlər, ətraf mühitin mühafizəsi üçün kampaniyalar, ödənişsiz hüquqi yardım aksiyaları (təfərrüatlı məlumat HYTM bölməsindədir) daim təşkil edilir, o cümlədən idman və elmi səhələrdə çoxsaylı yarışlar, müsabiqələr həyata keçirilir. Bunlara misal olaraq beynəlxalq və yerli futbol və şahmat turnirlərini, rəssamlıq, ədəbiyyat və bir çox bədii yaradıcılıq müsabiqələrini göstərə bilərik.

Bunlardan söz açmışkən, "Vəkil günü" peşə bayramı, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il, Novruz Bayramı və s. də daxil olmaqla, ARVK-nın aparatının və üzvlərinin iştirakı ilə hər il bir neçə dəfə təşkil olunan korporativ tədbirləri qeyd etmək yerinə düşərdi.

Sərgilər - ***İlk dünya vəkil cübbələri sərgisi və Rəsm sərgisi***

17-29 dekabr 2021-ci il tarixlərində dünyada ilk dəfə ARVK tərəfindən "Dünya vəkil cübbələri və atributları" sərgisi keçirilib. Bu sərgidə, həmçinin vəkillik və ədliyyə tarixinə dair medallar, ordenlər, döş nişanları, markalar və pul əskinasları da nümayiş olunub. Sözügedən sərgiyə hər gün yüzlərlə insan gələrək eksponatlarla yaxından tanış olmaq fürsəti əldə etmişlər.

Qeyd etmək istərdik ki, hər ölkənin daxili qaydalarına uyğun olaraq, ağır pandemiya şəraitində iki il içində 70-ə yaxın müxtəlif ölkədən Vəkil və Hakim Cübbələri toplanılmışdır.

Bununla yanaşı, xarici ölkələrin Vəkillər Kollegiyaları ilə danışıqlar davam edir və yaxın gələcəkdə bu Cübbə-Mantiyaların sayı 100-dən çox ölkəni əhatə edəcək, o cümlədən yaradılacaq Muzeydə müxtəlif ölkələrin Hakim Cübbələri də yer alacaqdır.

Bundan başqa, 18.06.2022-ci ildə Azərbaycanda İnsan Hüquqları gününə həsr olunmaqla, ilk dəfə ARVK tərəfindən "Vəkillik peşəsi uşaqların gözü ilə" adlı uşaq rəsm sərgi-müsabiqəsi və Qarabağ Dirçəliş Fonduna dəstək aksiyası baş tutub və Azərbaycan Rəssamlar İttifaqının sərgi salonunda keçirilən sərgidə 80-dən çox şagirdin rəsm əsəri nümayiş etdirilib.

İntellektual oyunlar - *"Nə? Harada? Nə zaman?" və Şahmat*

12.03.2022-ci ildə hüquq sahəsindəki qurumlar sırasında ilk dəfə olaraq vəkillər arasında “Nə? Harada? Nə zaman?” intellektual oyunu təşkil olunmuş, 22 komanda iştirak etmiş, onlardan biri “Yüksəliş” müsabiqəsinin qalib və finalçılarından ibarət olmuş və 3 mərhələli turnirin nəticələrinə görə, “BM-Prospekt” komandası qalib olmuş, “Femida” və “Ədalət” komandaları isə müvafiq olaraq 2-ci və 3-cü yerdə qərarlaşmışlar.

Habelə, ölkədə və vəkillikdə şahmatın inkişafına dəstək olmaq, vəkillərin bacarıqlarını nümayiş etdirməsinə şərait yaratmaq məqsədilə, 2 yerli və 4 beynəlxalq turnir təşkil edilmiş, ələlxüsus, dünyada ən güclü komandalardan sayılan Fransa vəkillərindən ibarət komanda üzərində qələbə qazanılmışdır.

Vəkil futbolu və İdmançı Vəkillər Fondu

Qeyd edək ki, ayrı-ayrı ölkələrin vəkilləri arasında beynəlxalq futbol turnirləri, o cümlədən qitə və dünya çempionatları yarım əsrə yaxın müddətdir ki, keçirilir.

Azərbaycan vəkil futbolu bu prosesə 2017-ci ildə qoşulmuş və "Advokat" adlı komanda təsis edilərək, futzal üzrə Azərbaycan çempionatının 2-ci liqasında çıxış etməyə başlamış, 2019/2020-ci il mövsümünü 2-ci pillədə başa vurmuş, pandemiyadan sonra, 2021-2022-ci il mövsümündə isə çempion olmuşdur.

1	ADVOKAT	23	20	2	1	132-45	62
2	BAKU FİRE-3	23	16	2	5	81-51	50
3	RƏVAN	23	15	4	4	128-76	49
4	BAKER TİLLY	23	13	2	8	71-60	41
5	BİBİ-HEYBƏT	23	12	1	10	88-79	37
6	BORÇALI	23	11	2	10	119-115	35
7	İSMA BAKU	23	10	5	8	101-76	35
8	ATLETİKO BAKU	23	10	5	8	77-51	35
9	XAN-LƏNKƏRAN	23	9	4	10	77-81	31
10	DALĞA	23	7	1	15	70-88	22
11	TİMSPORT	23	7	0	16	81-132	21
12	ZÜLFÜQAR	23	6	2	15	77-114	20
13	STAR KARGO-2	23	4	2	17	74-113	14
14	HÖVSAN	23	4	2	17	73-168	

"Advokat" komandasının təşkilatlanması digər futbolsevər vəkilləri də birləşməyə sövq edib. Nəticədə, 2018-ci ildə 10 komandanın iştirakı ilə Vəkil Futbol Liqasının (VFL) əsası qoyulmuş, 2019/20-ci illərdə 2-ci VFL baş tutmuş, daha sonra növbəti dönəm keçirilən 3-cü VFL isə 44 günlük Vətən Müharibəsində qazanılmış qələbəyə həsr edilmiş və hər komanda öz adının qarşısına böyük Zəfərlə bağlı şərəfli adları əlavə etmiş, habelə AFFA ilə razılaşmaya əsasən oyunları peşəkar hakimlər idarə etmiş, həmçinin, turnirə qatılan bütün oyunçular AFFA-nın Kütləvi Futbol Departamentində rəsmi şəkildə həvəskar futbolçu kimi qeydiyyatdan keçmişlər.

Digər tərəfdən, qısa zaman ərzində beynəlxalq turnirlərdə də uğurlu çıxışlarından sonra vəkillərin futbol komandası həm Avropada, həm də dünyada "vəkil futbol ictimaiyyəti" arasında hörmət və nüfuz qazanmış, komanda 2018-ci ilin iyununda Polşadakı beynəlxaq turnirin qalibi, 2018-ci ilin sentyabrında Litvadakı beynəlxalq regional turnirin 3-cüsü, 2018-ci ilin oktyabrında Ukraynadakı futzal üzrə beynəlxalq regional turnirin qalibi olmuşdur.

2019-cu ilin oktyabrında Azərbaycan vəkilliyinin 100 illiyinə həsr olunan və 10 ölkədən 16 komandanın qatıldığı 1-ci Cənubi Qafqaz turnirinin həm qalibi, həm də gümüş mükafatçısı ARVK komandaları olmuşlar.

Beynəlxalq arenadakı uğurların məntiqi nəticəsi kimi, yığma komandamız dünyada vəkil futbolunu bir araya gətirən "Mundiavocat"- ILFF (International Lawyers Football Federation) təşkilatına üzv seçilmişdir.

Nəhayət, 2022-ci ildə 40-dan çox ölkənin vəkil komandalarının təmsil olunduğu, Mərakeşdə keçirilən "Mundiavocat" dünya çempionatında Azərbaycan dünya 3-cüsü olmaqla, ilk iştirakdan yüksək nəticə əldə etmişdir. Xüsusi olaraq vurğulanmalıdır ki, turnirin ən yaxşı oyunçusu, ən yaxşı "bombardiri" nominasiyaları da komandamızın üzvünə verilmiş, komandamız ən çox qol vuran komanda olmaqla yanaşı, turnirin qalibi İtalyanın "Polermo" komandasına məğlub olmayan yeganə komanda olmuşdur.

Təsis edilərək rəsmi şəkildə 2020-ci ildə dövlət qeydiyyatına alınmış "İdmançı vəkillər" fondunun yaradılması ARVK-nın futbol və idmanın digər sahələrinə dəstəyinin təzahürü olmaqla yanaşı, həm də Azərbaycan Vəkil Futbolunun gələcək inkişafının möhkəm bir təməlini də qoyub.

11. VƏKİLLƏRİN İNTİZAM MƏSƏLƏLƏRİ

Vəkillərin İntizam Komissiyasının fəaliyyəti "Avropada vəkil peşəsinə dair əsas prinsiplər haqqında" Xartiya və "Avropa vəkillərinin davranış Kodeksi" də daxil olmaqla, yerli qanunvericiliyə və beynəlxalq təcrübəyə uyğun təşkil olunmuşdur.

Belə ki, 2017-ci ildə CCBE-nin davranış qaydaları əsasında "Vəkillərin davranış qaydaları haqqında" Əsasnamə yenidən hazırlanmış, daha sonra 2020-ci ildə Beynəlxalq Hüquqşünaslar Komissiyası (ICJ) və CCBE-nin əlavə təklifləri də nəzərə alınmaqla, Vəkillərin konfransında müvafiq dəyişikliklər edilmişdir.

Bundan əlavə, vəkillərin peşə sirri, ifadə azadlığı və digər etik davranış qaydaları sahəsində fəaliyyət göstərən Avropa Vəkillər Assosiasiyasının (AEA-EAL) Deontologiya Komitəsinin üzvlüyündə də ARVK 2022-ci ildən etibarən təmsil olunur.

Eyni zamanda da, 2018-ci ilin əvvəlində ARVK-nın təşəbbüsü ilə Komissiya üzvlərinin Almaniyaya təcrübə səfəri baş tutmuş, orada intizam icraatının aparılması, işlərin araşdırılması istiqamətində Almaniya təcrübəsi öyrənilmiş və bu sahədə fikir mübadiləsi aparılmışdır.

Qeyd edək ki, Komissiya üzvləri ARVK üzvlərinin ümumi yığıncağı tərəfindən seçilir və onlar vəkillərin peşə fəaliyyəti ilə əlaqədar araşdırmaları Rəyasət Heyətindən asılı olmayaraq müstəqil qaydada aparırlar. Komissiya hər bir şikayəti vəkilin birbaşa iştirakı ilə ətraflı araşdırır və şikayətə qarşı vəkillərin özlərini müdafiə etmək hüquqlarını təmin edir və yekun rəyini sadə səs çoxluğu ilə qəbul edir. Rəylər və qərarlar yalnız araşdırmalar zamanı müəyyən edilmiş dəlillər əsasında verilir və bu zaman vəkillik sahəsində beynəlxalq norma və təcrübələr də nəzərə alınır. Komissiyanın hazırladığı rəy Rəyasət Heyəti tərəfindən baxılır və intizam tənbehləri verilir.

GİZ eksperti, almaniyalı tanınmış vəkil, dr. Rudolf Lauda tərəfindən "Almaniyada vəkillərə münasibətdə intizam icraatının bəzi xüsusiyyətləri və bu sahədə Avropa standartları" mövzusunda seminar.

Rudolf Lauda iştirakı ilə Respublikanın qərb regionundakı vəkillər üçün keçirilmiş "Vəkillik etikası: müasir çağırışlar" adlı 2 günlük elmi-praktik seminar.

Son illərdə vəkillərin intizam tənbehi məsələsinə münasibətdə ARVK tərəfindən əvvəlki illərə nisbətdə daha humanist yanaşma nümayiş etdirilmişdir. Vəkillərin sayı artsa da, intizam işlərinin sayı azalmışdır.

Vəkillərin fəaliyyətinin dayandırılması və ya onların ARVK üzvlüyündən xaric edilməsi əsasları "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda müəyyən edilmişdir.
Nəzərinizə çatdırmaq istədiyimiz çox vacib bir məsələdə ondan ibarətdir ki, ARVK-nın hər hansı vəkili üzvlükdən xaric etmək hüququ və səlahiyyəti yoxdur. Bu baxımdan ARVK yeganə qurumdur ki, öz üzvünü özü xaric etmir. Ən sərt cəza kimi ARVK vəkilin fəaliyyətini dayandırır və xaric edilməsi üçün məhkəməyə müraciət edilir. Məhkəmə müraciəti təmin edirsə, həmin vəkil üzvlükdən xaric edilir. Əks halda, fəaliyyətini davam etdirir. Bu isə hesab edirik ki, müasir dövrün demokratik prinsip və qaydalarına uyğun olaraq təşkil edilmiş və həyata keçirilən bir prosedurdur.

Bununla bərabər bildiririk ki, ARVK tərəfindən qanunları və etik davranış qaydalarını pozan vəkillərə qarşı qanunauyğun şəkildə intizam tənbehləri tətbiq olunur.

Belə ki, son 5 il ərzində Rəyasət Heyətinə ümumilikdə 3267 müraciət daxil olmuş, bunların böyük əksəriyyəti vətəndaşlar tərəfindən ünvanlanmışdır. Rəyasət Heyəti tərəfindən ilkin araşdırma nəticəsində 915 (28.9 %) müraciət üzrə əsas olduğundan intizam icraatı başlanılaraq araşdırılması üçün Komissiyaya göndərilmişdir.

Komissiyada araşdırma zamanı, 915 intizam icraatından 183-ü (20 %) üzrə vəkillər tərəfindən peşə borcunu həyata keçirərkən "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun, digər qanunvericilik aktlarının tələblərinin, "Vəkillərin davranış qaydaları haqqında" Əsasnamənin, o cümlədən vəkil etikası normalarının pozulduğu müəyyən edilmiş və bu barədə qəbul olunan rəylər Rəyasət Heyətinə təqdim edilmişdir.

Qeyd edilən 183 rəylə bağlı Rəyasət Heyəti tərəfindən 47 (25.7 %) intizam icraatı üzrə vəkillərə irad tutulmuş, 59 (32.2 %) intizam icraatı üzrə onlara töhmət verilmiş, 45 (24.6 %) intizam icraatı üzrə vəkillərin fəaliyyətinin müəyyən müddətə dayandırılması, 32 (17.5 %) intizam icraatı üzrə isə Vəkillər Kollegiyasından xaric edilməyə səbəb ola biləcək əsaslar olduğundan məhkəməyə müraciət edilməsi haqqında qərar qəbul edilmişdir.

Məlumat üçün bildiririk ki, Komissiya tərəfindən vəkillərin fəaliyyətində daha çox bu hallarla bağlı pozuntu müəyyən edilmişdir: (1) dövlət hesabına hüquqi yardımın keyfiyyətsiz göstərilməsi və bu sahədə formal vəkilliyə yol verilməsi, (2) müqavilədənkənar pul vəsaitinin alınması, (3) hüquqi yardıma görə alınan haqqın nağdsız qaydada ödənilməsi tələblərinin pozulması, (4) qeyri-etik ifadələrdən istifadə edilməsi, vəkil etikasına zidd olan, vəkilliyin nüfuzuna xələl gətirən, vəkilə yaraşmayan hərəkətlərə yol verilməsi və s.

07 dekabr 2017 - 06 dekabr 2022-ci il tarixləri üzrə intizam icraatlarına dair statistik məlumatlar

Rəyasət Heyətinə daxil olmuş şikayət və müraciətlərin sayı	İntizam icraatı başlanılmamışdır	İntizam icraatı başlanılmışdır
3267	2352 (71.9 %)	915 (28.9 %)

Vəkillərin İntizam Komissiyası tərəfindən pozuntu müəyyən olunmuş işlərlə bağlı qəbul edilmiş rəylər üzrə Rəyasət Heyəti tərəfindən 5 il ərzində verilmiş intizam tənbeh tədbirləri barədə məlumat (rəqəmlərlə):

Cəmi	İrad tutuma	Töhmət	Vəkillik fəaliyyətinin müəyyən müddətə dayandırılması	Üzvlükdən xaric edilmə ilə əlaqədar məhkəməyə müraciət olunması
183	47 (25,7%)	59 (32,2%)	45 (24.6%)	32 (17.5%)

Lakin, eyni zamanda da, çoxsaylı vəkillər öz fəaliyyətlərini yüksək peşəkarlıqla icra etdikləri üçün və onların səmərəli fəaliyyətlərinin stimullaşdırılması məqsədilə, təcrübələri və öncəki təltifləri nəzərə alınmaqla, ardıcıl olaraq Rəyasət Heyətinin qərarları ilə daim təltif olunurlar. Ümumilikdə isə, son 5 il ərzində təqdim edilmiş təltiflərinin sayı 832 təşkil edir. Buraya daxildir: "Təşəkkürnamə", "Fəxri fərman", "Fəxri hüquq doktoru", habelə "Fəxri vəkil", "Azərbaycan vəkilliyinin 100 illiyi" yubiley döş nişanı.

12. ÖDƏNİŞSİZ HÜQUQİ YARDIM

İlk olaraq qeyd olunmalıdır ki, 2018-ci ilin əvvəllindən başlayaraq, bölgələrdə hüquqi yardıma ehtiyacı olan aztəminatlı əhalinin bu yardıma çatımlılığını təmin etmək üçün Rəyasət Heyəti tərəfindən mikroavtobus vasitəsilə hər həftə vəkillərin regionlara səyyar hüquqi yardım səfərləri təşkil edilmişdir.

2020-ci ildən etibarən isə, ARVK Rəyasət Heyəti tərəfindən yaradılmış və 26.12.2019-cu il tarixdən fəaliyyətə başlamış Hüquqi Yardım və Tədris Mərkəzi (HYTM) əsas etibarı ilə aztəminatlı şəxslərə hüquqi yardımın göstərilməsi, mövcud qanunvericiliyə əsasən vəkillərin dövlət hesabına hüquqi yardımın göstərilməsinə cəlb olunduğu işlərin təşkil edilməsi və vəkillərə həmin işlər üzrə ilə müəyyən edilmiş haqqın vaxtında ödənilməsi, habelə vəkillərin peşəkarlıq səviyyəsinin daha da artırılması üçün onların tədrisə cəlb olunması işlərini təmin etməkdədir.

HYTM tərəfindən ödənişsiz hüquqi yardıma dair tədbirlərin davamlılığı təmin edilmiş, ümumilikdə isə, ARVK tərəfindən ölkə üzrə 30 000-dən çox aztəminatlı şəxslərə ödənişsiz hüquq yardım xidmətləri göstərilmişdir.

2020-2022-ci illərdə HYTM-yə ödənişsiz hüquqi yardımla bağlı dövlət qurumlarından, qeyri-dövlət qurumlarından, vətəndaşlardan yazılı şəkildə 462 müraciət daxil olub. Bunlardan:

1. Birbaşa vətəndaşlardan – 281
2. Dövlət qurumları vasitəsilə - 172
3. Qeyri-dövlət qurumları vasitəsilə - 9

Bundan başqa, HYTM tərəfindən 1175 yerində müraciət üzrə aztəminatlı şəxsə ödənişsiz hüquqi göstərilmişdir

Rəyasət Heyətinin 09 dekabr 2020-ci il tarixli qərarına əsasən şəhid ailələrinə və qazilərə ödənişsiz hüquqi yardım göstərilməsi, o cümlədən məhkəmə proseslərində ödənişsiz təmsilçilik həyata keçirilməsi qərara alınmışdır. Həmin qərarın icrası ilə əlaqədar HYTM-Yə 111 müraciət daxil olmuşdur.

Bundan savayı, hər il ölkədə qeyd edilən Novruz Bayramı, İnsan Hüquqları Günü, Milli Qurtuluş günü, Uşaqların Beynəlxalq Müdafiəsi Günü, Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü, Zəfər günü və s. milli bayramlar münasibətilə keçirilən silsilə tədbirlər çərçivəsində Respublika üzrə fəaliyyət göstərən bütün vəkil qurumları tərəfindən yüzlərlə aztəminatlı əhaliyə, məcburi köçkünlərə, qaçqınlara pulsuz hüquqi yardım göstərilib. Aksiyalar çərçivəsində Ahıllar evləri, Uşaq və Ailələrə Dəstək Mərkəzləri, Uşaq evləri və İnternat məktəbləri və s. vəkillər tərəfindən ziyarət edilir.

Çox sevindirici haldır ki, regionlara təşkil edilən ödənişsiz hüquqi yardım aksiyalarına dövlət və qeyri-dövlət qurumları tərəfindən maraq olduqca çox olmuş və onlarla birlikdə ARVK tərəfindən daha geniş formatda aksiyalar təşkil edilmişdir.

Misal üçün, Milli Məclisin 46 deputatının müraciəti əsasında ARVK-nın dəstəyi ilə vəkillər tərəfindən 44 ayrı rayon üzrə ümumilikdə 979 nəfər vətəndaşa ödənişsiz hüquqi yardım göstərilmişdir.

Bundan başqa, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Həbsxanasında, 4 saylı Qadın Cəzaçəkmə Müəssisəsi və Penitensiar Xidmətin Tərbiyə Müəssisəsində, 7 saylı, 8 saylı,12 saylı, 13 saylı, 14 saylı Cəzaçəkmə Müəssisələrində vəkillər tərəfindən məhkumlara ödənişsiz hüquqi yardım göstərilmişdir. Ümumilikdə 750-dən çox məhkum aksiyalar çərçivəsində hüquqi yardımdan yararlanmışdır.

UNICEF ilə "ASAN Könüllüləri" Gənclər Təşkilatının müraciəti əsasında, Vətən Müharibəsi zamanı narahatlıq və qorxu keçirən şəxslərə psixoloji və psixososial dəstəyin, o cümlədən, ödənişsiz hüquqi yardımın göstərilməsi məqsədilə, müxtəlif vaxtlarda vəkillər tərəfindən Goranboy və Tərtər rayonlarında aksiyalar keçirilmişdir.

“Sosial hüquqların araşdırılması” ictimai birliyi, Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və digər qurumlarla da birgə müxtəlif aksiyalar təşkil edilmişdir.

13. DÖVLƏT HESABINA HÜQUQİ YARDIM

Bu sahədə də ARVK-nın vəzifələri sırasına yeni fəaliyyət əlavə olundu. Qeyd edildiyi kimi, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli Fərmanı ilə 2020-ci ildən etibarən dövlət büdcəsində dövlət hesabına göstərilən hüquqi yardıma görə vəsaitin müvafiq icra hakimiyyətinə deyil, birbaşa Vəkillər Kollegiyasına ayrılması müəyyən olunmuşdur.

Bununla da, həm bürokratik maneələr aradan qalxmış, həm də vəsaitin müvafiq bölgüsünün şəffaf şəkildə aparılmasına nəzarət təmin olunmuşdur.

Bu sahədə vəkillərə ödənilməli olan məbləğlər cinayət prosesini həyata keçirən orqanın əsaslandırılmış qərarı əsasında ARVK tərəfindən vəkil qurumuna və ya fərdi vəkillərə 01 yanvar 2020-ci ildən başlayaraq nağdsız qaydada ödənilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 noyabr 2020-ci il tarixli qərarına əsasən, 2020-ci ilin noyabrından etibarən, məhkəmədən başqa, cinayət prosesini həyata keçirən digər orqanlara (təhqiqat, istintaq və prokurorluq orqanlarına) da dövlət hesabına göstərilən hüquqi yardıma görə vəkilə ödənişi nəzərdə tutan qərarların qəbul edilməsi səlahiyyəti verilmişdir. Beləliklə də, yalnız məhkəmə qərarı əsasında deyil, o cümlədən, həmin orqanların əsaslandırılmış qərarları əsasında da vəkillərə ödəniş həyata keçirilir.

Eyni zamanda, səmərəli və keyfiyyətli fəaliyyətin təmin edilməsi məqsədilə, "Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən növbəlilik üzrə dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi" qaydalarına dəyişikliklər edilərək, qərarlar icra edilməsi üçün Bakıda yerləşən məhkəmələr tərəfindən mərkəzləşdirilmiş-elektron qaydada HYTM-yə göndərilir və həmin qərarlar HYTM-dən vəkil bürolarına onlayn formada ədalətli və çevik qaydada bölünür. Hazırda bir proqram təminatı yekunlaşmaq üzrədir ki, sözügedən qərarlar HYTM tərəfindən bürolara avtomatik qaydada növbəlilik əsasında bölünsün və insan faktorundan asılı olmaması təmin olunsun.

Məlumdur ki, Azərbaycan Respublikası Prezidentinin "Vəkilliyin inkişafı barədə əlavə tədbirlər haqqında" 22.02.2018-ci il tarixli Sərəncamına əsasən, dövlət hesabına göstərilən hüquqi yardıma görə ödənilən haqq 3 dəfə qaldırılaraq 6 manat olmuşdur.

Eyni zamanda, hüquqi yardıma görə vəkillərə məbləğlərin şəffaf və operativ surətdə ödənilməsini təmin etmək məqsədilə Rəyasət Heyəti tərəfindən "Dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın ARVK tərəfindən vəkillərə ödənilməsi prosedurları üzrə sənədləşmə işlərinin aparılması barədə Təlimat" təsdiq edilmiş və haqqın vəkillərə ödənilməsini nəzərdə tutan zəruri sənədlərin toplanması, onlara baxılması və ödənişlərin təmin olunması üçün sənədlər mərkəzləşdirilmiş qaydada HYTM tərəfindən ARVK aparatına təqdim olunur.

Həmçinin, ARVK və HYTM tərəfindən mütəmadi olaraq bütün vəkil bürolarının rəhbərlərinin iştirakı ilə bu sahədə işlərin təhlili, mövcud problemlərin müzakirəsi istiqamətində geniş tərkibli iclaslar keçirilir və hesabatlar təqdim olunur.

Statistik məlumat olaraq, 2020-ci ildə 5 519 250 manat, 2021-ci ildə 4 518 000 manat, 2022-ci ildə isə 4 365 225 manat ayrılmış vəsait üzrə 2020-ci il, 2021-ci il və 2022-ci il ərzində 61 865 məhkəmə qərarı üzrə 7 273 183,19 manat, 16 244 istintaq qərarı üzrə isə 3 551 656,04 manat ödənişin 83 vəkil qurumuna və 37 fərdi qaydada fəaliyyət göstərən vəkilə, ümumilikdə isə, 935 vəkilə ödənişi təmin edilmişdir.

14. TƏDRİS - VƏKİLLƏRİN PEŞƏ HAZIRLIĞI VƏ İXTİSASININ ARTIRILMASI

İstər ARVK-nın birbaşa özü tərəfindən, istərsə də yerli və beynəlxalq qurumlarla əməkdaşlıq çərçivəsində vəkillər üçün geniş miqyaslı təlimlər, ixtisasartırma kursları, cari təlimlər və s. təşkil edilir, peşəkarlıq səviyyələrinin daha da artırılması üçün onlar tədris proqramlarına cəlb olunur.

Habelə, regionlardakı vəkillərin paytaxta gəlmədən onlayn qaydada kurslarda iştirakının təmin edilməsi məqsədilə "Davamlı tədris üzrə" elektron platforma vəkillərin istifadəsinə təqdim olunmuşdur.

ARVK həm təşkil etdiyi təlimlərdə, həm də vəkilliyə namizədlər üçün keçirilən icbari təlimlərdə iştirak edən bütün təlimçi vəkillər üçün qonorar ödəyir, təlimlərin mövzusu isə beynəlxalq və yerli təcrübə nəzərə alınmaqla, aktual və zəruri mövzular üzrə hazırlanır.


Vəkillər və hüquqşünaslar üçün arbitrajda təmsilçilik təlimi

MEDİASİYA
9-11, 14, 16-18 və 21-25 iyun tarixlərində keçirilən təlimlərdə 250-dən çox vəkil iştirak etmişdir.
Şəki və Gəncə ətraf regionlarda "Mediasiya və perspektivləri" mövzusunda seminarlar keçirilib

"Prosessual sənədlər-çağdaş tələblər" mövzusunda təlim
"DÖVLƏT RÜSUMU HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNA EDİLƏN SON DƏYİŞİKLİKLƏR"
ONLAYN TƏLİM

11, 18, oktyabr və 11, 16, 18, 23 Noyabr 2021-ci il
Təlimçi: Sənan Hacıyev
"Oktyabrın 1-dən qüvvəyə minmiş Mülki Prosessual qanunvericiliyə edilmiş dəyişikliklər" mövzusund a Bakı, Sumqayıt, Şəki, Şirvan və Gəncə Apellyasiya Məhkəmələrinin yurisdiksiyalarına aid olan regionlar üzrə ixtisasartırma təlimləri

İXTİSASARTIRMA KURSLARI
"Korrupsiyaya qarşı mübarizə beynəlxalq və milli qanunvericilikdə. Maraqların toqquşması və onun qarşısının alınması üzrə tədbirlər"
"İnsan alveri qurbanlarına kompensasiya və müavinətlərin ödənilməsi"
6 Dekabr 2021-ci il
Vəkillər Kollegiyasının üzvləri üçün "Korrupsiyaya qarşı mübarizə beynəlxalq və milli qanunvericilikdə. Maraqların toqquşması və onun qarşısının alınması üzrə tədbirlər" və "İnsan alveri qurbanlarına kompensasiya və müavinətlərin ödənilməsi" mövzusunda onlayn qaydada ixtisasartırma kursları təşkil edilir.

"Qeyri-verbal kommunikasiya" üzrə təlim
VƏKİL TƏLİMÇİLƏRİN TƏLİMİ
Avropa İttifaqının layihəsi üzrə əsas ekspertlə görüş keçirilib

HELP Tədris Proqramı üzrə birgə təlim kursunun yekun GÖRÜŞÜ
Sertifikatların təqdimetmə mərasimi

Vəkillər üçün Avropa Şurasının Kibercinayətkarlıqla Mübarizə Şöbəsi tərəfindən Kibercinayətkarlığa qarşı əməkdaşlığa dair Octopus konfransının sonuncu buraxılışı
OCTOPUS CONFERENCE
16- 18 Noyabr

IOM UN MIGRATION
USAID
Legal Aid and Training Center of Azerbaijani Bar Association
IOM UN MIGRATION
USAID
IOM UN MIGRATION
Beynəlxalq Miqrasiya Təşkilatı və Vəkillər Kollegiyasının sıx əməkdaşlığı çərçivəsində
Vəkillər üçün hazırlanmış Peşəkar Təlim

Avropa İttifaqı, Avropa Şurası, BMT-nin ixtisaslaşmış qurumları, Beynəlxalq Qızıl Xaç Komitəsi, GİZ və s. beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində ümumilikdə 63 təlim təşkil olunmuş və 1147 vəkil bu təlimlərdə iştirak etmişdir.

Ədliyyə Akademiyası ilə birgə tərəfdaşlığa uyğun olaraq, 32 ixtisasartırma kursu təşkil edilmiş və ümumilikdə 1208 vəkil bu kurslara cəlb olunmuşdur.

Azərbaycan Respublikası Ali Məhkəməsi ilə birlikdə inzibati məhkəmələrin yaradılmasının 10 illiyinə həsr olunmuş 4 dəyirmi masa təşkil edilmişdir.

"Mübahisələrin alternativ həlli və mediasiya məsələləri" mövzusunda, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa edilən son dəyişikliklər" mövzusunda, "Oktyabrın 1-dən qüvvəyə minmiş Mülki Prosessual qanunvericiliyə edilmiş dəyişikliklər" mövzusunda vəkillər üçün təlimlər keçirilmişdir.

ARVK ilə UNİCEF-in Azərbaycan nümayəndəliyinin birgə əməkdaşlığı çərçivəsində "Uşaqyönümlü hüquqi yardım (Uşaqların hüquqlarının cinayət, inzibati və mülki instansiyalarda müdafiəsində vəkilin fəaliyyəti)" mövzusunda vəkillər üçün təlimlər keçirilmişdir.

Vəkillər Kollegiyası ilə ELSA Azərbaycan arasında imzalanmış Anlaşma Memorandumuna əsasən ELSA Azərbaycannın ARVK HYTM-də 14 təlimi təşkil edilmişdir.

Avropa İttifaqı və Avropa Şurasının birgə layihəsi, o cümlədən ARVK ilə birgə əməkdaşlığı çərçivəsində HELP üzrə vəkillər üçün "Avropa İnsan Hüquqları Konvensiyası" və "Avropa İnsan Hüquqları Məhkəməsi" mövzuları istiqamətində 7 HELP kursu təşkil olunmuşdur. Son 5 ilin statistik göstəricilərini nəzərdən keçirdikdə görmək olar ki, HELP istifadəçilərinin sayına görə Azərbaycan ilk yerlərdə qərarlaşmışdır. Habelə, HELP platformasından istifadə edən vəkillərin sayı kifayət qədər artmış, eyni zamanda, bu proqramın təlimçilərinin böyük bir qismi ARVK üzvləridir. Bu da çox təqdirə layiq haldır ki, vəkillər ədalət mühakiməsinin həyata keçirilməsində əsas yerlərdən birini tuturlar.

Sonda bildirmək istərdik ki, pandemiya şəraiti də daxil olmaqla, yuxarıda qeyd olunanların vəkillik sahəsində son 5 ərzində görülmüş işlərin müəyyən hissəsini əhatə etməsinə baxmayaraq, ARVK öz missiyasına sadiq qalmaqla vətəndaşlara xidmət, qanunların keşiyində durmaq istiqamətində fəaliyyətini daha da möhkəmləndirəcəkdir.

15. ƏMƏKDAŞLIQ MEMORANDUMLARI VƏ YERLİ TƏDBİRLƏR

ƏMƏKDAŞLIQ MEMORANDUMLARI:

1. ***Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi - ASAN Xidmət Mərkəzləri***

2. ***Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutu***

3. ***Milli Aviasiya Akademiyası***

4. ***Bakı Dövlət Universiteti***

5. ADA Universiteti

6. Prezident yanında Dövlət İdarəçilik Akademiyası

7. Dövlət Gömrük Komitəsinin Akademiyası

8. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

9. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi

10. Paşa Bank

11. Dental Revolution

12. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Azərbaycan nümayəndəliyi

13. ELSA Azərbaycan

14. Auditorlar Palatası

15. "Bakcell" şirkəti

16. Mərkəzi Klinika, Xüsusi Müalicə Sağlamlıq Kompleksi və Gəncə Müalicə Diaqnostika Mərkəzi

17. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi

18. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

19. Azərbaycan Banklar Assosiasiyası

ARVK-NIN TƏŞKİLATÇILIĞI İLƏ KEÇİRİLMİŞ TƏDBİRLƏR:

1. 26 fevral 2018 - Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı tədbir;
2. 26 aprel 2018 - Naxçıvan şəhərində BMT-nin Miqrasiya Təşkilatının maliyyə dəstəyi və Azərbaycan Respublikası Vəkilləri Kollegiyası və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının təşkilati dəstəyi ilə "Vəkillik etikası: müasir çağırışlar" mövzusunda regional seminar;
3.
4. 1-18 may 2018 - ARVK, Beynəlxalq Miqrasiya Təşkilatı və Ədliyyə Akademiyasının birgə əməkdaşlığı ilə Respublikanın bir sıra regionlarında "Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna giriş" mövzusunda silsilə təlimlər;
5. 29-31 may 2018 - Beynəlxalq Qırmızı Xaç Komitəsi, Ədliyyə Akademiyası və ARVK-nın birgə təşkilatçılığı ilə vəkillər üçün "Saxlanmaya dair standartlar və məhkəmə zəmanətləri" mövzusunda təlim;
6. 1 iyun 2018 - ARVK və GIZ-in birgə təşkilatçılığı ilə vəkilliyə yeni qəbul olunmuş üzvlər üçün "İnzibati prosesdə müxtəlif iddia növlərinin yoxlanılması" mövzusunda seminar;

7. 6 iyun 2018 - ARVK Rəyasət Heyətinin üzvləri, yerli və beynəlxalq təşkilatların, həmçinin KİV nümayəndələrinin iştirakı ilə "Vəkilliyin elektron məhkəmə informasiya sisteminə inteqrasiyası" mövzusunda tədbir;
8. 13 iyul 2018 - ARVK və GIZ-in birgə təşkilatçılığı ilə vəkilliyə yeni qəbul olunmuş üzvlər üçün "İnzibati prosesdə müxtəlif iddia növlərinin yoxlanılması" mövzusunda seminar;
9. 11 senyabr 2018 - ARVK və GIZ-in birgə təşkilatçılığı ilə Respublikanın qərb regionunda fəaliyyət göstərən Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri üçün "Vəkillik etikası: müasir çağırışlar" başlığı altında elmi-praktik seminar;
10. 12 və 19 oktyabr 2018 - ARVK və GIZ-in birgə təşkilatçılığı ilə vəkilliyə yeni qəbul olunmuş üzvlər üçün "İnzibati prosesdə müxtəlif iddia növlərinin yoxlanılması" mövzusunda seminar;
11. 27 oktyabr 2018 - Vəkillər Kollegiyası üzvlüyünə yeni qəbul olmuş vəkillər üçün "Avropa İnsan Hüquqları Konvensiyasına giriş" mövzusunda təlim;
12. 26, 28 oktyabr və 2, 4 noyabr 2018 - ARVK və GIZ-in birgə təşkilatçılığı ilə vəkilliyə yeni qəbul olunmuş üzvlər üçün "Əmək hüququ: Azərbaycan qanunvericiliyi və təcrübə" mövzusunda seminar;
13. 15-16 noyabr 2018 - Avropa Şurası, Hüquqşünasların Beynəlxalq Komissiyası və ARVK-nın birgə təşkilatçılığı ilə "Vəkillərin rolu və müstəqilliyi: müqayisəli perspektivlər" mövzusunda beynəlxalq konfrans;

14. 19 və 21 noyabr 2018 - ARVK və GIZ-in birgə təşkilatçılığı ilə vəkilliyə yeni qəbul olunmuş üzvlər üçün "Bank qanunvericiliyinin tətbiqi" mövzusunda seminar;
15. 20 dekabr 2018 - ARVK və GIZ-in təşkilatçılığı, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Məhkəmə-Hüquq Şurasının tərəfdaşlığı ilə respublikamızın 10 orta məktəbində "Hüquq və Mən" layihəsi;

16. 26 dekabr 2018 - ASAN könüllüləri üçün ilkin hüquqi təlimlər silsiləsindən "Vəkillik - hüquqların peşəkar müdafiəsinin real təcrübədə tətbiqi" mövzusunda təlim;

17. 9 yanvar 2019 - ABŞ Ali Məktəblərinin Azərbaycanlı Məzunları Assosiasiyasının (US-Educated Azerbaijani Alumni Association) idarəçiliyi və ABŞ Səfirliyinin dəstəyi ilə, ARVK ilə əməkdaşlıq çərçivəsində vəkillər üçün sahibkarlıq hüququ mövzusunda seminar;

18. 10 yanvar 2019 - "AmCham"ın (Azərbaycandakı Amerika Ticarət Palatası) informasiya dəstəyi ilə "Kommersiya mediasiyası və mübahisələrin alternativ həlli sisteminin qurulması" mövzusunda əcnəbi ekspertlərin, Vəkillər Kollegiyası üzvlərinin və müxtəlif özəl müəssisələrdə işləyən hüquqşünasların iştirakı ilə konfrans;

19. 22 yanvar 2019 - Vəkillər Kollegiyası üzvlərinin "Elektron Məhkəmə" İnformasiya Sistemindən istifadəsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi və ARVK-nın birgə əməkdaşlığı çərçivəsində vəkillər üçün intensiv təlimlər;

20. 2 fevral 2019 – ELSA Azərbaycan və ARVK-nın birgə təşkilatçılığı ilə tələbə hüquqşünaslarla ARVK sədri Anar Bağırovun görüşü;

21. 22 fevral 2019 - ARVK və GIZ-in birgə təşkilatçılığı ilə vəkilliyə yeni qəbul olunmuş üzvlər üçün "İnzibati prosesdə müxtəlif iddia növlərinin yoxlanılması" mövzusunda seminar;
22. 9 mart 2019 - ARVK və Avropa Hüquqşünas Tələbələr Assosiasiyası - ELSA Azərbaycan ilə birgə gənc hüquqşünaslar üçün "Cinayət prosesində tutulma və həbsə alınma" mövzusunda təlim;
23. 10 mart 2019 - Azərbaycan Respublikasının Ali Məhkəməsində ARVK və Avropa Hüquqşünas Tələbələr Assosiasiyası – ELSA Azərbaycanın birgə təşkilatçılığı ilə Azərbaycan vəkilliyinin 100 illiyinə həsr olunmuş VIII Milli Məhkəmə Müsabiqəsinin final mərhələsi;
24. 12 və 16 aprel 2019 - ARVK və GIZ-in birgə təşkilatçılığı ilə vəkilliyə yeni qəbul olunmuş üzvlər üçün "İnzibati prosesdə müxtəlif iddia növlərinin yoxlanılması" və "Vergi Məcəlləsinə edilən son dəyişikliklər (hüquqi və iqtisadi istiqamətlərdə)" mövzularında seminarlar;
25. 18 aprel 2019 - ARVK və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Ofisinin birgə əməkdaşlığı çərçivəsində "Ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində BMT-nin İnsan Hüquqları Sistemi və Müdafiə Mexanizmi: Praktik tətbiqi və perspektivlər" mövzusunda seminar;
26. 20 aprel 2019 - ARVK və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə "Azərbaycan vəkilliyinin 100 illiyi"nə həsr olunmuş silsilə tədbirlər çərçivəsində ətraf mühitin tullantılardan təmizlənməsi aksiyası;

27. 20-21 aprel 2019 – ARVK və ELSA Azərbaycanın Azərbaycan vəkilliyinin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində birgə layihəsi, 2-ci ELSA Danışıqlar Müsabiqəsi;

28. 25 aprel 2019 - ABŞ-Azərbaycan Ticarət Palatası, GMN (Global mediators and negotiators) beynəlxalq təşkilatı ilə birgə əməkdaşlıq çərçivəsində "Mediasiya və mübahisələrin alternativ həlli" mövzusunda seminar;

29. 29 aprel 2019 - ARVK, Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutu və Türkiyənin Özyeğin Universitetinin Hüquq Fakültəsinin birgə təşkilatçılığı ilə "Hüquqi məsuliyyət" mövzusunda beynəlxalq elmi-praktik konfrans;

30. 31 may 2019 - Azərbaycan Respublikasının 1-ci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və ARVK-nın təşkilatçılığı ilə "Məhkəmə-hüquq islahatlarına vəkil baxışı" mövzusunda konfrans;

31. 21 iyun 2019 – ARVK-nın təşkilatçılığı ilə "Pensiya qanunvericiliyinin praktikada tətbiqi problemləri" mövzusunda seminar;

32. 5 iyul 2019 - ARVK və GIZ-in birgə təşkilatçılığı ilə vəkillər üçün "İnzibati prosesdə müxtəlif iddia növlərinin yoxlanılması" mövzusunda seminar;

33. 17 iyul 2019 - Gəncə Regional Qadın Mərkəzi İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti Yanında QHT-ə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə icra etdiyi "Ailə qanunvericiliyinin təbliği və məişət zorakılığının qarşısının alınması məqsədi ilə maarifləndirici tədbirlərin keçirilməsi" layihəsi çərçivəsində Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Gəncə şəhəri 1 saylı Vəkil Bürosunun vəkillərinin iştirakı ilə gənclərlə görüş;

34. 4 oktyabr 2019 - ARVK və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə təşkilatçılığı ilə, Azərbaycanda vəkillik peşəsi ilə bağlı yubiley tədbirləri çərçivəsində "Güclü və nüfuzlu vəkillik – müasir dövrün çağırışları" mövzusunda beynəlxalq konfrans;

35. 18-20 oktyabr - Şabran rayonunda ARVK və GIZ-in birgə təşkilatçılığı ilə vəkillər üçün "İnzibati prosesdə müxtəlif iddia növlərinin yoxlanılması" mövzusunda seminar;

36. 30 noyabr 2019 - ARVK və Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının birgə təşkilatçılığı ilə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli Fərmanından irəli gələn tələblərin icrası ilə əlaqədar dəyirmi masa;

37. 6 dekabr 2019 - Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və ARVK ilə birgə keçirilən qrant müsabiqəsi haqqında QHT-lər üçün məlumatlandırma sessiyası;

38. 5-6 dekabr 2019 - UNİCEF-in Azərbaycan nümayəndəliyi və ARVK-nın birgə təşkilatçılığı ilə "Uşaqlar üçün hüquqi yardım göstərilməsinə dair beynəlxalq standartlar" mövzusunda vəkillər üçün təlim;

39. 20 dekabr 2019 - Ədliyyə Nazirliyinin və ARVK-nın təşkilatçılığı ilə "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Qanunun və Fərmanın ictimai müzakirəsi ilə bağlı brifinq;

40. 28 yanvar 2020 – Avropa İttifaqının "Mübahisələrin alternativ həlli mexanizmlərinin tətbiqində və əhaliyə hüquqi yardım xidmətlərinin göstərilməsində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin institusional potensialının artırılması" layihəsi çərçivəsində vəkillər üçün mediasiya üzrə təlim;

41. 3 mart 2020 – ARVK-nın və Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə "Biznesin əlçatan və peşəkar hüquqi yardıma çıxış imkanları" mövzusunda konfrans;

42. 18 iyun 2020 - Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və ARVK-nın birgə təşkilatçılığı ilə 18 iyun – insan hüquqları gününə həsr olunmuş "İnsan hüquqlarının müdafiəsində Ombudsman təsisatının Vəkillər Kollegiyası ilə əməkdaşlığı" mövzusunda videokonfrans;

43. 3 iyul 2020 - “Caspian European Club”un təşəbbüsü ilə təşkilata üzv 40-dək kommersiya müəssisələrinin rəhbərləri ilə ARVK-nın sədri Anar Bağırovun onlayn dəyirmi masa görüşü;

44. 12 mart 2021 - Ali Məhkəməsinin və ARVK-nın birgə təşkilatçılığı ilə “Hakim və vəkil, prosessual və qeyri-prosessual münasibətlər” mövzusunda videokonfrans formatında dəyirmi masa;

45. 28 aprel 2021 - Avropa İttifaqı və Avropa Şurasının birgə layihəsi, o cümlədən ARVK ilə birgə əməkdaşlıq çərçivəsində HELP üzrə vəkillər üçün “Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinə giriş” mövzusunda təlimlərlə bağlı onlayn təqdimat;



46. 10 may 2021 - Azərbaycan Respublikasının Ali Məhkəməsində ARVK və Avropa Hüquqşünas Tələbələr Assosiasiyası – ELSA Azərbaycanın birgə təşkilatçılığı ilə X Milli Məhkəmə Müsabiqəsinin final mərhələsi;

47. 4 iyun 2021 - ARVK-nın təşkilatçılığı ilə "Sahibkarlıq və hüquqi yardım" mövzusunda dövlət və digər orqanların nümayəndələrinin, vəkillərin və sahibkarların iştirakı ilə onlayn qaydada dəyirmi masa;

48. 10 iyun 2021 – ARVK və Prezident yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə "Yüksək ixtisaslı hüquqşünas kadrların hazırlanması dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi" mövzusunda elmi konfrans;

49. 18 və 25 iyun, 2 və 10 iyul 2021 - Ali Məhkəməsi ilə ARVK tərəfindən həyata keçirilən birgə əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasında inzibati məhkəmələrin yaradılmasının 10 illiyinə həsr olunmuş inzibati məhkəmə icraatının aktual problemlərinə dair videokonfrans formatında müzakirələr;



50. 9 iyul 2021 – ARVK-nın "Çoxmənzilli binaların idarə olunmasına vəkil baxışı (yerli və beynəlxalq təcrübə)" mövzusunda dövlət və qeyri-dövlət orqanlarının nümayəndələrinin, vəkillərin və sahibkarların iştirakı ilə onlayn qaydada dəyirmi masa;

51. 12 iyul 2021 - HELP üzrə "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyaya və Avropa Məhkəməsinə giriş" mövzusunda Avropa Şurasının, Azərbaycan Respublikası Ali Məhkəməsinin və ARVK-nın birgə təlimi üzrə kursu müvəffəqiyyətlə başa vurmuş təlim iştirakçılarına sertifikatları təqdimetmə mərasimi;

52. 7-10 sentyabr 2021 - Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı Nümayəndəliyinin (BMqT) ARVK ilə sıx əməkdaşlıq şəraitində Birləşmiş Ştatların Beynəlxalq İnkişaf Agentliyi (USAID) tərəfindən maliyyələşdirilən "İnsan Alverinə qarşı Mübarizə üzrə Fəaliyyət" Layihəsi çərçivəsində vəkillər və praktik hüquqşünaslar üçün insan alveri mövzusunda 4 günlük təlimlər;

53. 16 sentyabr 2021 - ARVK ilə Mediasiya Şurasının rəhbərliyi və 100-dən çox vəkil və mediatorun iştirakı ilə "Vəkillər Kollegiyası və Mediasiya Şurası üzvləri arasında görüş - mövcud təcrübə və həllər" adlı onlayn tədbir;

54. 24, 27 və 28 sentyabr 2021 - ARVK ilə Ədliyyə Akademiyasının birgə əməkdaşlığı çərçivəsində vəkillər üçün "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa edilən son dəyişikliklər" mövzusunda onlayn qaydada ixtisasartırma təlimləri;

55. 8 oktyabr 2021 - Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Mübahisələrin alternativ həlli və ixtisaslaşmış məhkəmələrin inkişafına əlavə dəstək" layihəsi çərçivəsində "Vəkil təlimçilər üçün təlim" adlı təlim;

56. 11 oktyabr 2021 - ARVK ilə Ədliyyə Akademiyasının birgə əməkdaşlığı çərçivəsində Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri üçün "Oktyabrın 1-dən qüvvəyə minmiş Mülki Prosessual qanunvericiliyə edilmiş dəyişikliklər" mövzusunda onlayn qaydada ixtisasartırma təlimi;

57. 22 oktyabr 2021 – ARVK və Ədliyyə Akademiyasının birgə əməkdaşlığı çərçivəsində HELP üzrə vəkillər və hakimlər üçün "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinə giriş" mövzusunda təlimlərlə bağlı onlayn təqdimat;

58. 28-29 oktyabr 2021 - Avropa Şurasının Bakı Ofisi ilə Ədliyyə Akademiyasının birgə əməkdaşlığı çərçivəsində vəkillər üçün "Gender Bərabərliyi və Media Azadlığı" mövzusunda ixtisasartırma kursu;

59. 1 noyabr 2021 – ARVK-nın, Ədliyyə Nazirliyinin və Məhkəmə-Hüquq Şurasının rəhbər şəxslərinin iştirakı ilə "Vəkillərin "Elektron məhkəmə" informasiya sistemindən səmərəli istifadəsi" mövzusunda videokonfrans;

60. 24 noyabr 2021 - ARVK, Azərbaycan Banklar Assosiasiyası və Mediasiya Şurasının təşkilatçılığı ilə bank mübahisələrinin mediasiya perspektivlərinə və mövcud problemlərin müzakirəsinə həsr edilmiş görüş;

61. 25-26 noyabr 2021 - Şəki və Gəncə şəhərlərində Şəki və Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan ərazilərdə fəaliyyət göstərən vəkillər sahibkarlar, hüquqşünaslar, və mediatorların iştirakı ilə "Mediasiya və perspektivləri" mövzusunda seminarlar;

62. 2 dekabr 2021 - ARVK ilə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) birgə əməkdaşlığı çərçivəsində vəkillər üçün “Beynəlxalq humanitar hüquq çərçivəsində məhkəmə zəmanətləri” mövzusunda beynəlxalq eskpertlərin iştirakı ilə təlim;

63. 3 dekabr 2021 - “Avropa Hüquqşünas Tələbələr Assosiasiyası - Bakı” İctimai Birliyinin (ELSA Azərbaycan) təşkilatçılığı, Azərbaycan Respublikası Gənclər Fondunun, Ali Məhkəmənin və Vəkillər Kollegiyasının dəstəyi ilə həyata keçirilən “Məhkəmə-hüquq islahatları mövzusunda gənclərin maarifləndirilməsi” layihəsi çərçivəsində konfrans;

64. 10 dekabr 2021 – “İnsan Hüquqları Günü” münasibətilə Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) hakimi Lətif Hüseynov və Avropa Şurası (AŞ) Katibliyinin baş hüquqşünası Xaqani Quliyev tərəfindən onlayn qaydada interaktiv təqdimat;

65. 14 dekabr 2021 - Bakı Gənclər Mərkəzinin təşkilatçılığı ilə "Yusif Allahverdiyev və partnyorları" Vəkil Bürosunun vəkilləri tərəfindən gənclər üçün hüquqi problemlərin həlli yolu haqqında görüş;

66. 25 fevral 2022 - ARVK ilə Ədliyyə Akademiyasının əməkdaşlığı çərçivəsində Vəkillər Kollegiyasının üzvləri üçün "Vəkillərin "Elektron məhkəmə" informasiya sistemindən səmərəli istifadəsi" və "Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət qaydaları və edilən son dəyişikliklər" mövzularında distant formada ixtisasartırma kursu;

67. 3 mart 2022 – ARVK-nın təşkilatçılığı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin iştirakı ilə "Vəkillikdə qadınlar: dünən, bu gün və sabah" mövzusunda dəyirmi masa;

68. 12-13 mart 2022 - ARVK Avropa Şurasının Azərbaycan Ofisi ilə əməkdaşlıq çərçivəsində vəkillər və azərbaycanlı gənc hüquqşünaslar üçün "Məlumatların mühafizəsi və şəxsi həyatın gizliliyi" mövzusunda onlayn təlim;

69. 14 mart 2022 - Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA), ARVK-nın və Mediasiya Şurasının dəstəyi, KOBİA yanında İctimai Şuranın təşkilatçılığı ilə "Sahibkarlıq fəaliyyəti ilə bağlı mübahisələrin mediasiya yolu ilə həllinə dair" ictimai müzakirə;

70. 29 mart 2022 - ARVK ilə Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlıq çərçivəsində Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzində "Beynəlxalq hüquq və Kiberməkan" mövzusunda təlim;

71. 7 aprel 2022 - Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzində "Beynəlxalq hüquq və Kiberməkan" mövzusunda vəkil köməkçiləri üçün təlim;

72. 19 və 22 aprel 2022 - ARVK ilə Ədliyyə Akademiyasının birgə əməkdaşlığı çərçivəsində vəkillər üçün onlayn qaydada "Korrupsiyaya qarşı mübarizə beynəlxalq və milli qanunvericilikdə maraqların toqquşması və onun qarşısının alınması üzrə tədbirlər" və "İstehlakçı hüquqlarının müdafiəsi mexanizmi" mövzusunda təlimlər;

73. 12 may 2022 - Hüquqi Yardım və Tədris Mərkəzində vəkillər üçün "Vəkillik fəaliyyətinin əsas prinsipləri" mövzusunda təlim;

74. 23 may 2022 - Azərbaycan Respublikasının Ali Məhkəməsində ARVK və Avropa Hüquqşünas Tələbələr Assosiasiyası – ELSA Azərbaycanın birgə təşkilatçılığı ilə XI Milli Məhkəmə Müsabiqəsinin final mərhələsi;

75. 25 may 2022 – ARVK-nın təşkilatçılığı ilə CCBE-ə üzvlüyə qəbulla bağlı ictimai təqdimat;

76. 1 iyun 2022 - “LegalAid” Hüquq Şirkəti və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının birgə yaradıcılıq məhsulu olan “LegalAid” mobil tətbiqinin 2 yaşının və yeni versiyasının təqdimat mərasimi;

77. 17 iyun 2022 - Avropa Şurası Bakı Ofisinin təşkilatçılığı və ARVK ilə birgə əməkdaşlığı çərçivəsində "İnsan hüquqları haqqında Avropa Konvensiyasının Azərbaycanda tətbiqi: Hüquqi aspektlər və çağırışlar" mövzusunda konfrans;

78. 22 iyul 2022 - ARVK-nın və Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Vəkil olmaq istəyirəm" adlı Yay Məktəbinin təntənəli açılış və təqdimat mərasimi;



79. 27 iyul 2022 - ARVK HYTM-də ADA Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan təcrübəçi tələbələri ilə görüş;

80. 07 sentyabr 2022 - ARVK-nın və Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Vəkil olmaq istəyirəm" adlı Yay Məktəbinin təntənəli bağlanış mərasimi;

81. 24 oktyabr 2022 - ARVK və Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə "Vəkillik və İKT, müasir çağırışlar" mövzusunda görüş;

82. 24 oktyabr 2022 - "Dövlət hesabına göstərilən hüquqi yardımla bağlı qərarların icrası vəziyyətinin öyrənilməsi üzrə monitorinq hesabatı" mövzusunda vəkillərin Ümumrespublika Müşavirəsi;

83. 28 oktyabr 2022 - "1958-ci il Nyu-York Konvensiyasının şərhinə dair Beynəlxalq Kommersiya Arbitraj Şurasının (ICCA) Təlimatı: Hakimlər üçün əl kitabı"nın təqdimatı.

ARVK-NIN ÖLKƏDAXİLİ TƏMSİL OLUNDUĞU TƏDBİRLƏR VƏ BAŞ TUTMUŞ GÖRÜŞLƏR:

1. 25 yanvar 2018 - Azərbaycan Respublikasının Milli Məclis sədrinin 1-ci müavini, Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin sədri Əli Hüseynlinin və Komitənin üzvləri Qüdrət Həsənquliyevin və Çingiz Qənizadənin ARVK-ya təşrifi və yeni seçilmiş Rəyasət Heyətinin rəhbərliyi ilə görüş;

2. 14-15 fevral 2018 - Avropa Şurasının və ABŞ-ın Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə vəkillərin, hakimlərin, prokurorluq işçilərinin, habelə bir sıra qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə "Azərbaycanda ədliyyə islahatlarına dair təşəbbüslərə dəstək" adlı təqdimat konfransı;

3. 21 fevral 2018 - AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun təşkilatçılığı ilə "Tibb hüququ – Azərbaycan hüquq elminin yeni sahəsi kimi" mövzusunda konfrans;

4. 14 sentyabr 2018 - Avropa İttifaqının və Avropa Şurasının Birgə Proqramı olan "Avropa İnsan Hüquqları Konvensiyasının və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsi çərçivəsində "Mülkiyyət hüququ" mövzusunda konfrans;

5. 21-22 sentyabr 2022 - Avropa İttifaqı və Avropa Şurasının “Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun Azərbaycanda tətbiqi” adlı birgə layihəsi çərçivəsində HELP üzrə təlimçilərin təlimi;
6. 10 dekabr 2018 - BMT-nin Azərbaycandakı nümayəndəliyi İnsan Hüquqları Günü və Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyi münasibətilə Bakı şəhərində yerləşən Muzey Mərkəzində sərgi açılışı;
7. 25 yanvar 2019 - “AmCham” (Azərbaycandakı Amerika Ticarət Palatası) üzvlərinin işgüzar naharı;

8. 5 mart 2019 - Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin təşkilatçılığı ilə “Hərbi işğal altında olan ərazilərdə qeyri-qanuni iqtisadi və digər fəaliyyətlər: üçüncü tərəflərin öhdəlikləri və münaqişənin həllinə təsiri” mövzusunda beynəlxalq konfrans;
9. 3-4 aprel 2019 - Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyi (BMqT) və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə Bakıda “Cinayət istintaq orqanlarının insan alveri ilə mübarizə sahəsində rolu” mövzusunda beynəlxalq seminar;
10. 11 aprel 2019 - Ədliyyə Nazirliyinin və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə “Məhkəmə islahatlarında yeni mərhələ” mövzusunda brifinq;

11. 10 sentyabr 2019 - Beynəlxalq Miqrasiya Təşkilatı və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə “Beynəlxalq miqrasiya hüququ” mövzusunda təlimlər;
12. 26 oktyabr 2019 - “GəncLİK” (Gənc Liderlərin İnkişafı Konsepsiyası) proqramının iştirakçıları ilə görüş;

13. 15 noyabr 2019 – AMEA Hüquq və İnsan Haqları İnstitutu və Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) birgə təşkilatçılığı ilə "Süni intellekt və insan hüquqları" mövzusunda beynəlxalq konfrans;

14. 17 mart 2020 - Ədliyyə Nazirliyi və "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Ədliyyə və məhkəmə islahatları sahibkarların hüquqlarının etibarlı müdafiəsinə təminat verir" mövzusunda videokonfrans;

15. 2 iyul 2021 - İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva ARVK sədri Anar Bağırov və Kollegiyanın nümayəndələri ilə görüş;

16. 22 dekabr 2021 - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə Sosial Tədqiqatlar Mərkəzinin həyata keçirdiyi sosioloji sorğu və tədqiqat layihəsinin nəticələri ilə bağlı təqdimat mərasimi;

17. 5 mart və 11 aprel 2022 - ADA Universitetidə Hacı Zeynalabdin Tağıyev adına müsabiqə çərçivəsində ADA tələbələri tərəfindən təqdim edilən "Gənclər arasında hüquqi maarifləndirmə layihəsi"nin açılış və qapanış mərasimləri;

18. 16 mart 2022 - İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində 15 mart - Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü ilə əlaqədar dəyirmi masa;

19. 9 may 2022 - Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində “XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar” mövzusunda elmi-nəzəri konfrans;

20. 31 may 2022 - Ədliyyə Nazirliyinin, UNICEF-in və Mediasiya Şurasının birgə tərəfdaşlığı ilə "Mediasiya prosesləri zamanı ailə mübahisələrinin həllində uşaq hüquqlarının müdafiəsi məsələlərinin aktuallığı" mövzusunda tədbir;

21. 25 iyul 2022 - "Şuşa İli" çərçivəsində Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə regional apellyasiya məhkəmələrinin 15 illiyinə həsr olunmuş "Azərbaycan Respublikasında həyata keçirilən məhkəmə-hüquq islahatlarının mütərəqqi nəticələri" mövzusunda Şuşa konfransı;

22. 24 avqust 2022 - Baş Prokurorluğun təşkilatçılığı ilə Zəngilan rayonunun Ağalı kəndində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış: pozulmuş hüquqlar və onların bərpası" mövzusunda konfrans;

23. 16 noyabr 2022 - Cinayət prosesinin həyata keçirilməsi zamanı meydana çıxan aktual məsələlərin müzakirəsi ilə bağlı Baş Prokurorluq və ARVK rəhbərliyi arasında görüş.

16. ARVK QURUMLARI VƏ İCLASLARININ SAYI

RƏYASƏT HEYƏTİNİN ÜZVLƏRİ

Anar Ramiz oğlu Bağırov, sədr

Axundov Aydın Ağa oğlu, sədr müavini

Ələkbərov Pərviz Saday oğlu, sədr müavini

Babayev Vüqar İsa oğlu

Hüseynov Turqay İmamqulu oğlu

Həsənov Şəfayət Qardaşalı oğlu

Mustafayev Muxtar Nağı oğlu

Məmmədov Fariz Fikrət oğlu



Nağıyeva Lalə Mehdi qızı

Qasımov Telman Abiəli oğlu

Quliyev Azər Şahbala oğlu

Yaqubova Sima Sədrəddin qızı

Usub Elçin Arif oğlu

Səfərov Sahib Dünyamalı oğlu

Rəyasət Heyəti iclaslarının sayı – 5 il ərzində ümumi 101 iclas və 3 Konfrans



VƏKİLLƏRİN İNTİZAM KOMİSSİYASININ ÜZVLƏRİ

Məmmədov Şahmar Elbrus oğlu, sədr

Həsənova İlhamə Zakir qızı, sədr müavini

Alıyev Cavid Barat oğlu

Bəşirov Xəyal Kamil oğlu

Hüseynova Esmira Hüseyn qızı

Həbilov Əlirza Qəməndər oğlu

Həsənov Vasif Rəsul oğlu

Kərimbəyli Abbas Yaqub oğlu

Məmişov Bəylər Sahib oğlu

Nəhmətov Fazil İldır oğlu

Quliyev Elxan Ağalar oğlu

Əfrasiyabova Dilarə Paşa qızı

Vəkillərin İntizam Komissiyası iclaslarının sayı – 5 il ərzində ümumi 72 iclas



VƏKİLLƏRİN İXTİSAS KOMİSSİYASININ ÜZVLƏRİ

İbrahimov Ramiz Hilal oğlu, sədr

Qəhrəmanova Qəmizə Salman qızı

Məhərrəmov Oktay Əvəz oğlu

Həsənov Fərid İzafət oğlu

Sultanov Mehman Fazil̇əddin oğlu

Rövşən Ismayilov Rəhim oğlu,
Konstitusiya Məhkəməsinin hakimi

Kazımov Tahir Lələkişi oğlu,
Ali Məhkəmənin hakimi

Cəmilova Xəyalə Adil qızı,
Apellyasiya Məhkəməsi

Abbasova İpək Soltan qızı,
hüquqşünas alim

Rzayeva Gülnaz Aydın qızı
hüquqşünas alim

Xələfov Elçin Əbuzər oğlu
hüquqşünas alim

Vəkillərin İxtisas Komissiyası iclaslarının sayı – 5 il ərzində ümumi 135 iclas

Vəkillərin İxtisas Komissiyası iclaslarının sayı (2018-2022)
2022
2021
2020
2019
2018
19
29
15
19
42
0
5
10
15
20
25
30
35
40
45

17. ÖTƏN DÖVR ƏRZİNDƏ VƏKİLLİK FƏALİYYƏTİ İLƏ BAĞLI QƏBUL EDİLMİŞ HÜQUQİ AKTLAR – ARVK APARATI TƏRƏFİNDƏN HAZIRLANMIŞ SƏNƏDLƏR

1. **Azərbaycan Respublikası Prezidentinin Fərmanları:**

   1.1 Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında - 03.04.2019;
   1.2 Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında - 11.04.2019;
   1.3 2021-ci il dövlət büdcəsinin icrası haqqında - 14.07.2022.

2. **Azərbaycan Respublikası Prezidentinin Sərəncamları:**

   2.1 Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında - 22.02.2018;
   2.2 Bir qrup vəkilin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında - 30.12.2020;
   2.3 Azərbaycan qadınlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında - 07.03.2022;
   2.4 Hüquq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə İkram Heydər oğlu Kərimovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında - 04.04.2022.

3. **Nazirlər Kabinetinin Qərarları və Sərəncamı:**

   3.1 "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli Sərəncamının icrasının təmin edilməsi barədə Sərəncam - 23.11.2018;
   3.2 "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli 31 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" Qərar - 03.05.2018;
   3.3 "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli 31 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" – 18.03.2019;
   3.4 "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli 31 nömrəli Qərarında dəyişikliklər edilməsi haqqında" Qərar - 31.01.2020.

ARVK Aparatı tərəfindən hazırlanmış və Rəyasət Heyətinin müvafiq qərarları ilə təsdiq edilmiş Əsasnamələr, Qaydalar, Təlimatlar, Formalar və Nümunələr

ƏSASNAMƏLƏR:

1. Vəkillərin Davranış Qaydaları haqqında;
2. Vəkil orderi və ondan istifadə qaydası haqqında;
3. Vəkillər Kollegiyasının "Azərbaycan Qadın Vəkillər" Alyansının Əsasnaməsi;
4. Vəkillər Kollegiyasının "Biznes hüququ" Komitəsinin Əsasnaməsi;
5. Vəkillər Kollegiyasının "Əmək hüququ" Komitəsinin Əsasnaməsi;
6. Vəkillər Kollegiyasının "Elektron vəkillik" Komitəsinin Əsasnaməsi;
7. Vəkillər Kollegiyasının "Kibercinayətkarlıq və kibertəhlükəsizlik" Komitəsinin Əsasnaməsi.

QAYDALAR:

8. Hüquqi yardım göstərilən şəxs tərəfindən vəkilə ödənilən xidmət haqqının nağdsız qaydada ödənilməsi barədə;

9. Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən növbəlilik üzrə dövlət hesabına hüquqi yardımın həyata keçirilməsinə dair;
10. Vəkillərin elektron şəxsi kabineti və ondan istifadə;
11. Vəkil kabinetinin yaradılması;
12. Vəkil qurumlarının təşkili və fəaliyyəti haqqında;
13. Vəkillər Kollegiyası üzvlüyünə qəbulla bağlı ixtisas imtahanlarının keçirilməsi;
14. Vəkillər Kollegiyası üzvlərinin, vəkil köməkçilərinin, Rəyasət Heyəti aparatının və vəkil bürolarının işçilərinin şəxsi işinin aparılması və saxlanılması;
15. Vəkillər Kollegiyasının "Qaynar xətt"inə daxil olan şikayətlərə baxılması;
16. Vəkil köməkçilərinin fəaliyyətinin tənzimlənməsi;
17. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə Daxili Nəzarət Sistemi;
18. Vəkil qurumlarının, vəkil qurumlarında və fərdi qaydada fəaliyyət göstərən vəkillərin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə Daxili Nəzarət Sistemi;
19. Vəkilliyin rəsmi emblemi haqqında (layihə);
20. Vəkillərin xüsusi geyimi haqqında (layihə).

TƏLİMAT:

21. Dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən vəkillərə ödənilməsi prosedurları üzrə sənədləşmə işlərinin aparılması barədə.

FORMALAR VƏ NÜMUNƏLƏR:

22. İllik statistik hesabat;
23. Hüquqi yardımın göstərilməsi haqqında müqavilə:
24. Vəkil köməkçisi ilə bağlanan əmək müqaviləsi;
25. Dövlət hesabına göstərilən hüquqi yardıma görə verilən order;
26. Müqavilə əsasında təqdim edilən order;
27. Fərdi qaydada fəaliyyət göstərən vəkillər üçün fasad lövhələrinin nümunəsi;
28. Vəkil qurumları üçün fasad lövhələrinin nümunəsi.

TƏDRİS VƏSAİTLƏRİ VƏ JURNAL

29. "Vəkilin cinayət işində müdafiə fəaliyyəti" metodik vəsaiti;
30. "Cinayət mühakimə icraatında vəkil araşdırması" monoqrafiya;
31. "1958-ci il Nyu-York Konvensiyasının şərhinə dair Beynəlxalq Kommersiya Arbitraj Şurasının (ICCA) Təlimatı: Hakimlər üçün əl kitabı";
32. "Vəkil məsləhətləri" toplusu;
33. "Uşaq hüquqlarının müdafiəsi"nə dair bələdçi/təlimat;
34. BMT İnkişaf Proqramı ilə birlikdə "Həssas qruplara sosial hüquqlar üzrə hüquqi yardım haqqında" bələdçi;
35. "Hüquq və Mən" məktəblilər üçün qanunlar və məhkəmələr haqqında" bələdçi;
36. "Hüquq və Mən" məktəblilər üçün işçi dəftər";
37. "Azərbaycan vəkili" jurnalının hər il bir neçə buraxılışı.

Vəkillərin davranış qaydaları haqqında

ƏSASNAMƏ

Azərbaycan Respublikası Vəkillər Kollegiyası üzvlərinin Konfransı tərəfindən 28.12.2020-ci il tarixdə qəbul olunmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsində hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq və hər kəsin səlahiyyətli dövlət orqanı tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ təsbit edilmişdir.

Həmçinin, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda vəkillik fəaliyyətinin və vəkillərin əsas vəzifələri öz əksini tapmışdır.

Qanunun aliliyinə hörmətin aşılanması və hüquqi yardımın keyfiyyətinin yüksəldilməsi baxımından vəkilin davranışı xüsusi əhəmiyyət kəsb etdiyindən vəkillərin peşə davranışı standartları ən yüksək tələblərə cavab verməlidir. Vəkil yalnız qanunun yol verdiyi həddə ona həvalə olunmuş tapşırıqları vicdanla yerinə yetirmir, həmçinin ədalət mühakiməsinin maraqlarına xidmət etməklə həm ona etimad göstərən şəxslərin hüquq və azadlıqlarını müdafiə edir, həm də ona müraciət edən şəxslərin məsləhətçisinə çevrilir.

Demokratik cəmiyyətdə vəkilin peşə davranışı qaydalarına əməl etməsi qanunun aliliyinin əsas şərtlərindən biridir və "Vəkillərin davranış qaydaları haqqında" Əsasnamə (bundan sonra – Əsasnamə) bu şərtin təmin olunması niyyəti ilə qəbul olunmuşdur.

1. Ümumi müddəalar

1.1. Bu Əsasnamədə əks olunmuş qaydalar vəkillik fəaliyyətini həyata keçirən bütün şəxslərə şamil edilir.

1.2. Hər bir vəkil qanunun aliliyi, müstəqillik, demokratizm, humanizm, ədalət, aşkarlıq, konfidensiallıq prinsiplərini, insan hüquqlarını və davranış qaydalarını rəhbər tutaraq, bu Əsasnamənin müddəalarına əməl etməyə borcludur.

1.3. Hər bir vəkil, vəkil andına sadiq qalmalı, peşə fəaliyyətində və peşə fəaliyyətindən kənar davranışında bu Əsasnamənin müddəalarını rəhbər tutmalıdır. Vəkilin peşə fəaliyyətindən kənar fəaliyyəti vəkilliyin nüfuzuna xələl gətirməməlidir.

1.4. Bu Əsasnamənin məqsədləri aşağıdakılardan ibarətdir:

1.4.1. vəkillərin nüfuzunun artırılması və ona olan etimadın yüksəldilməsi;

1.4.2. vəkil qurumları və vəkillərin fəaliyyətində səmərəliliyin artırılması;

1.4.3. fiziki və hüquqi şəxslərə göstərilən hüquqi yardımın keyfiyyətinin yüksəldilməsi.

1.5. Vəkillərin davranışı "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, vəkilin fəaliyyətini tənzimləyən digər normativ-hüquqi aktlar, Vəkillər Kollegiyasının Nizamnaməsi və bu Əsasnamə ilə tənzimlənir.

2. Davranış qaydaları

2.1. Vəkilin müstəqilliyi - Vəkillər müstəqildirlər və yalnız qanunun tələblərinə tabedirlər. Peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar vəkilin tam şəkildə müstəqil olması əsas şərtdir. Vəkil onun müstəqilliyinə xələl gətirə biləcək bütün hərəkətlərdən çəkinməli və öz peşəsinin nüfuzunu digər maraqlardan üstün tutmalıdır.

2.2. Vicdanlı davranış - Vəkil öz peşə borcunu yerinə yetirərkən dürüstlük və ləyaqətlilik nümayiş etdirməli, yalan danışmamalı, hədə-qorxu gəlməməli, təhdid etməməli, digər şəxslərin ağır maddi və sair vəziyyətindən yararlanmamalı, öz peşə və şəxsi məqsədlərinə çatmaq üçün digər qanunsuz vasitələrdən istifadə etməməlidir. Şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə vəkil öz vəzifələrini səmərəli yerinə yetirməyə borcludur. Vəkil peşə fəaliyyətini həyata keçirməklə bağlı hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır. Vəkil hər hansı şəxsə hüquq pozuntusunun törədilməsi istiqamətində yazılı və ya şifahi məsləhətlər verməməli və onu digər qanunsuz hərəkətlərə sövq etməməlidir. Peşə fəaliyyətini həyata keçirərkən vəkil qanunvericiliyə və bu Əsasnamənin tələblərinə zidd vasitə və üsullardan istifadə edə bilməz.

2.3. Peşəkarlıq və fərdi məsuliyyətin artırılması - Vəkil öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş hüquq və vəzifələri çərçivəsində və yüksək peşəkarlıq səviyyəsində yerinə yetirməyə borcludur. Vəkil öz davranışı və peşəkar fəaliyyəti ilə cəmiyyətin vəkilliyə olan inamını artırmalıdır.

2.4. Loyallıq - Vəkil peşə fəaliyyətini həyata keçirərkən və ya peşə fəaliyyətindən kənar davranışında vəkilliyin nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. Vəkil qanunvericilikdə vəkillik fəaliyyəti ilə bağlı nəzərdə tutulmuş məhdudiyyətlərə əməl etməli, başqa vəkillərin fəaliyyəti ilə əlaqədar (qanunsuz fəaliyyət istisna olmaqla) tənqidi ictimai mülahizələrdən, çıxışlardan və onların fəaliyyətinə ictimai qiymət verilməsindən çəkinməlidir.

2.5. İctimai etimad - Vəkil vəkillik peşəsinin nüfuzunu artırmağa və möhkəmləndirməyə borcludur. Vəkil davranış qaydalarının onun tərəfindən pozulmasının nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur. Vəkil çıxışlarında və yazışmalarında həqiqəti təhrif etməməlidir.

2.6. Konfidensiallıq - Vəkil hüquqi yardım göstərilməsi ilə əlaqədar əldə etdiyi məlumatların konfidensiallığını təmin etməlidir. Məlumatların konfidensiallığının təmin edilməsi müddətlə məhdudlaşdırılmır. Vəkil hüquqi yardımın göstərilməsinə cəlb etdiyi şəxslərdən konfidensiallıqla bağlı öhdəliklərə riayət edilməsini tələb etməlidir. Vəkil peşə fəaliyyəti ilə əlaqədar əldə etdiyi məlumatlardan həyata keçirdiyi hüquqi yardıma aidiyyəti olmayan məqsədlər üçün istifadə edə bilməz.

2.7. Hüquq, azadlıq və qanuni maraqlara, şərəf, ləyaqət və işgüzar nüfuza hörmət - Vəkillərin fəaliyyəti hər bir şəxsin hüquq, azadlıq və qanuni maraqlarının təmin olunmasına və müdafiəsinə xidmət etməlidir. Vəkil insanların hüquq və azadlıqlarını, qanuni maraqlarını pozan, onların şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyə biləcək hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir. Vəkil hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşmalı və onların işgüzar nüfuzunu ləkələyə biləcək və qanuni maraqlarını pozan hərəkətlərə (və ya hərəkətsizliyə) yol verməməlidir.

2.8. Mədəni davranış - Vəkil peşə fəaliyyətini həyata keçirərkən və peşə fəaliyyətindən kənar bütün şəxslərlə münasibətdə mədəni, nəzakətli, diqqətli və səbirli olmalıdır.

2.9. Qərəzsizlik - Vəkil, öz vəzifələrini yerinə yetirərkən, hər hansı şəxsin irqinə, etnik mənsubiyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə görə üstünlüyünə və ya belə üstünlüyün əldə edilməsi üçün şəraitin yaradılmasına yol verməməlidir.

2.10. Maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi - Peşə fəaliyyətini həyata keçirməklə bağlı vəkillərin, qanuna zidd olaraq, maddi və qeyri-

maddi nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməyə yönəlmiş hərəkət (hərəkətsizlik) etməsi qadağandır.

2.11. İctimai və siyasi fəaliyyət - Vəkilin ictimai və ya siyasi fəaliyyəti, yaxud ictimai və ya siyasi birliyə mənsubiyyəti, onun öz vəzifələrini qərəzsiz yerinə yetirdiyinə şübhə doğurmamalıdır.

2.12. Vəkilin öz fəaliyyətinin təbliği - Vəkil bu Əsasnamənin tələblərinə zidd olmayaraq öz peşə fəaliyyətini təbliğ edə bilər. Vəkilin öz fəaliyyətini təbliğ etməsi reklam xarakteri daşımamalıdır. Vəkilin fəaliyyətinin təbliği dövri nəşrlərdə, bələdçilərdə, informasiya bülletenlərində, televiziya və radio kanallarında və sosial şəbəkələrdə həyata keçirilə bilər. Vəkil fəaliyyətini təbliğ edərkən özünün hüquqi yardım göstərməsi ilə bağlı ibtidai araşdırmaya, məhkəmə proseslərinə və digər işlərə istinadlar edə, vəkilə müraciət etmiş şəxslərə hər hansı prosessual hərəkətlərin uğurla nəticələnəcəyi barədə fikir yaradacaq bəyanatlar verə bilməz. Vəkilin öz fəaliyyətinin təbliği ilə bağlı məlumatlar obyektiv, həqiqəti əks etdirən, aydın və başa düşülən olmalı və vəkil hüquqi yardım üçün potensial müraciət edənləri çaşdırmamalıdır. Vəkilin fəaliyyətinin təbliği ilə əlaqədar materiallar elə tərtib olunmalıdır ki, vəkilin və Vəkillər Kollegiyasının nüfuzuna xələl gətirməsin. Əgər vəkil özünün xəbəri olmadan bu Əsasnamənin tələbinə zidd şəkildə onun fəaliyyətinin təbliği hallarını görərsə, dərhal bu fəaliyyətin qarşısının alınmasına çalışmalı və görülmüş tədbir barədə Vəkillərin İntizam Komissiyasına xəbər verməlidir. Əsasnamənin bu bəndi vəkil qurumlarının fəaliyyətlərinin təbliği məsələlərinə də tətbiq olunur.

2.13. İctimailik - Vəkil zərurət yarandıqda konfidensiallıq və digər əsas peşə prinsiplərinə zidd olmayaraq göstərdiyi hüquqi yardımlarla əlaqədar ictimaiyyəti düzgün məlumatlandırmaq öhdəliyi daşıyır. Vəkil həyata keçiridyi hüquqi yardımla əlaqədar olaraq yayılması qanunvericiliklə qadağan edilən və ya qapalı keçirilən məhkəmə proseslərində əldə etdiyi, o cümlədən vəkil sirrini təşkil edən məlumatları ictimailəşdirməməlidir. Vəkil mənafeyi təmsil edilən və ya müdafiə edilən şəxsin icazəsi olmadan hüquqi yardımın göstərilməsi ilə əlaqədar vəkilə məlum olan faktları və sənədləri, eləcə də mənəviyyata, demokratik cəmiyyətdə ictimai qaydaya və ya dövlət təhlükəsizliyinə ziyan vura bilən, həmçinin yetkinlik yaşına çatmayanların mənafeləri və ya tərəflərin şəxsi və ailə həyatının müdafiəsi tələb edərsə, belə məlumatları ictimailəşdirməməlidir. Vəkil kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə və ictimai yerlərdə vəkilliyin nüfuzunu ləkələyən, Vəkillər Kollegiyasının orqanlarının qərarları barədə cəmiyyətdə yanlış təsəvvürlər yarada bilən hərəkətlərdən və ictimai çıxışlardan, təhqir və böhtan xarakterli məlumatların yayılmasından çəkinməlidir. Vəkil kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə və kütləvi çıxışlarda dövlət, qeyri-dövlət və onların vəzifəli şəxsləri barəsində əsassız, böhtan xarakterli məlumatların yayılmasına yol verməməli və həmin şəxslərə qarşı qeyri-etik ifadələr işlətməməli və davranışlara yol verməməlidir.

2.14. Vəkillik fəaliyyəti ilə bir araya sığmayan fəaliyyət - Vəkil öz peşə borcunun müstəqil surətdə yerinə yetirilməsinə, həmçinin ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinin təmin edilməsinə mane olan fəaliyyətdən çəkinməlidir.

3. Vəkilin ona müraciət etmiş şəxslərlə münasibətləri

3.1. Vəkil müqavilə əsasında və ya qanunla müəyyən olumuş qaydada dövlət hesabına hüquqi yardım göstərir.

3.2. Müraciət etmiş şəxsin müqavilə şərtləri əsasında vəkilə həvalə edilmiş tapşırığı qabaqcadan xəbərdarlıq etmədən məhdudlaşdırması və ya geri götürməsinə vəkil tərəfindən əsassız olaraq etiraz oluna və hər hansı bir maneçilik törədilə bilməz.

3.3. Vəkil ona tapşırıq verən, müraciət edən şəxsin kimliyini, hüquqi şəxsin adından çıxış edən şəxsin səlahiyyətlərini aydınlaşdırmalıdır.

3.4. Vəkil hüquqi yardım göstərdiyi şəxsi vicdanla və əzmlə təmsil etməli və məsləhətlər verməlidir. Vəkil ona etibar olunmuş işin gedişatı və icrası ilə bağlı hüquqi yardım göstərdiyi şəxsi mütamadi olaraq məlumatlandırmalıdır.

3.5. Vəkilin hüquqi yardım göstərdiyi şəxslərlə qarşılıqlı münasibətləri vəkilin dürüst və ədalətli olmasına dəlalət edən etimad üzərində qurulmalıdır. Vəkil göstərdiyi hüquqi yardımın nəticəsi ilə əlaqədar vəd verməməlidir.

3.6. Vəkil müraciət edən şəxsə başqa vəkili tövsiyə etməsi müqabilində həmin vəkildən və ya hər hansı üçüncü şəxsdən xidmət haqqı və ya digər ödəniş tələb edə və ya ala bilməz.

3.7. Vəkil onun hüquqi yardım göstərilməsi üçün müraciət edən şəxsə tövsiyə olunması müqabilində heç kimə xidmət haqqı və ya hər hansı digər ödəniş ödəyə bilməz.

3.8. Eyni işlə bağlı müraciət edən şəxslərin qanuni mənafeləri arasında ziddiyyət olduğu halda vəkil həmin işlə əlaqədar iki və daha artıq şəxsi təmsil edə bilməz.

3.9. Vəkil mənafeyi təmsil edilənin mənafeyinə zidd olan şəxslərə həmin iş üzrə hüquqi yardım göstərirsə və ya əvvəllər belə yardım göstərmişsə, o, həmin işin icrasından imtina etməlidir.

3.10. Vəkil göstərdiyi hüquqi yardımı ən sərfəli və səmərəli vasitələrlə həyata keçirməyə çalışmalı və istənilən mərhələdə hüquqi yardım göstərdiyi şəxsəi mübahisələrin alternativ həlli yolları ilə bağlı məlumatlandırmalıdır.

3.11. Vəkil, ona müraciət etmiş şəxsi digər vasitələrdən istifadə etməklə daha əlverişli hüquqi yardımdan yararlana bilməsi imkanları barədə məlumatlandırmalıdır.

4. Vəkilin məhkəmə və digər orqanlarla münasibətləri

4.1. Məhkəmələrdə, ibtidai istintaq və təhqiqat orqanlarında və digər dövlət qurumlarında öz peşə borcunu yerinə yetirən vəkil həmin məhkəmələrdə, ibtidai istintaq və təhqiqat orqanlarında və digər dövlət qurumlarında tələb olunan davranış qaydalarına riayət etməlidir.

4.2. Məhkəmə icraatının ədalətli həyata keçirilməsi üçün vəkil qanunauyğun davranış nümayiş etdirməlidir.

4.3. Vəkil məhkəməyə, ibtidai istintaq və təhqiqat orqanına və digər proses iştirakçılarına qarşı hörmət və nəzakətlə davranmaqla hüquqi yardım göstərdiyi şəxsin maraqlarını şərəflə, ləyaqətlə müdafiə etməli və bu zaman özünün və digər şəxslərin maraqlarını üstün tutmamalıdır.

4.4. Vəkil heç vaxt məhkəməyə, ibtidai istintaq və təhqiqat orqanına bilərəkdən yanlış və ya çaşdırıcı məlumat verməməlidir.

4.5. Vəkil qabaqcadan müəyyən olunmuş məhkəmə iclasında, ibtidai istintaq və təhqiqat orqanlarında keçirilən istintaq hərəkətlərində vaxtında iştirak etməli, üzürlü səbəb və əsas olmadan məhkəmə proseslərinin və istintaq hərəkətlərini süni şəkildə uzadılmasına səbəb olmamalıdır.

4.6. Vəkil qabaqcadan müəyyən olunmuş məhkəmə iclasında, ibtidai istintaq və təhqiqat orqanlarında keçirilən istintaq hərəkətlərində üzürlü səbəbdən iştirak edə bilmədikdə bu barədə həmin qurumlara əvvəlcədən məlumat verməlidir.

4.7. Vəkil məhkəmə iclaslarında xüsusi geyimdə iştirak etməlidir.

5. Vəkillər arasında münasibətlər

5.1. Vəkilə müraciət etmiş şəxsin maraqları nəzərə alınmaqla, vəkillər arasında etimada və əməkdaşlığa əsaslanan münasibətlərin olması zəruridir. Bu, heç bir halda vəkilliyin maraqlarının vəkilə müraciət etmiş şəxsin maraqlarından üstün tutulmasına əsas vermir.

5.2. Vəkil öz həmkarlarının şəxsi və ailə həyatı, maliyyə vəziyyəti, onun etnik mənsubiyyəti, mənşəyi və sair bu kimi məlumatları öz təmsil etdiyi şəxslə müzakirə etməməlidir.

5.3. Vəkil həmkarlarına münasibətdə hörmətlə davranmalı, onların şərəf və ləyaqətini alçalda biləcək hərəkətlərə və kobud rəftara yol verməməlidir.

6. Vəkilin peşə hazırlığı və məsuliyyəti

6.1. Vəkil peşəkar bilik və bacarıqlarını daim inkişaf etdirməlidir.

6.2. Hər bir vəkil öz köməkçisinin bilik və bacarıqlarının artırılmasına daima səy göstərməlidir.

6.3. Vəkil peşə hazırlığının və ixtisasının artırılması məqsədi ilə təşkil edilən təlimlərdə, seminarlarda, konfranslarda və digər tədbirlərdə mütəmadi olaraq iştirak etməlidirlər.

6.4. Bu Əsasnamədə qeyd olunan davranış qaydalarının pozulması vəkilin intizam məsuliyyətinə cəlb edilməsi üçün əsasdır.

Azərbaycan Respublikası
Vəkillər Kollegiyası Rəyasət
Heyətinin 27.09.2018-ci il tarixli
qərarı ilə təsdiq olunmuşdur.

(VK RH-nin 09.12.2021-ci il tarixli
qərarı ilə edilmiş son dəyişikliklər
nəzərə alınmaqla)

"Vəkil orderi və ondan istifadə qaydası haqqında"

Ə S A S N A M Ə

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 3-cü hissəsini, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Nizamnaməsinin 8.2-ci bəndinin 16-cı yarımbəndini, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 106.1.2-ci maddəsini rəhbər turaraq Vəkillər Kollegiyasının üzvləri tərəfindən isifadə olunan vəkil orderi və order xərcinin forması, uçotu, əldə edilməsi və istifadəsi qaydasını müəyyən etmək məqsədilə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti "Vəkil orderi və ondan istifadə qaydası haqqında" bu Əsasnaməni (bundan sonra – Əsasnamə) qəbul edir.

Maddə 1. Əsas anlayışlar

1.1. **Azərbaycan Respublikası Vəkillər Kollegiyası** (bundan sonra – Vəkillər Kollegiyası) - Qeyri-dövlət, müstəqil, özünü idarə edən, bütün vəkillərin daxil olduğu və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında yaradılmış hüquqi şəxs.

1.2. **Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti** (bundan sonra – Rəyasət Heyəti) – Vəkillər Kollegiyasının icra orqanı.

1.3. **Vəkil** – Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü.

1.4. **Müvəkkil** – vəkilə hüquqi yardım göstərilməsi üçün müraciət etmiş şəxs.

1.5. **Vəkil orderi** (bundan sonra - order) – müvəkkil ilə vəkil (vəkil qurumu) arasında bağlanmış müqavilə əsasında vəkilə verilən tapşırıq üzrə yalnız bir istintaq (təhqiqat) orqanında və ya bir məhkəmə instansiyasında təmsilçilik və hüquqi yardımın göstərilməsi, inzibati tapşırıq üzrə isə müqavilədə göstərilən idarə və təşkilatlarda təmsilçilik səlahiyyətlərinin verilməsini təsdiq edən unikal nömrəsi olan sənəddir (1 nömrəli Əlavə).

1.6. **Order markası** – məbləği, forması və ölçüləri Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən müəyyən olunan və vəkil orderinə yapışdırılmaqla onun həqiqiliyini əks etdirən, unikal nömrəli marka və ya holoqramdır (2 nömrəli Əlavə). Order markasına görə ödənilən məbləğ əvəzsiz köçürmə hesab olunur.

1.7. Order markasına görə ödənilən məbləğin istifadə təyinatı aşağıdakı kimidir:

-dövlət hesabına göstərilən hüquqi yardım (vəkilin iştirakı məcburi hesab olunan hallar) istisna olmaqla, vəkilin qonorarını ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə ödənişsiz hüquqi yardımın göstərilməsi;

-vəkilliyə qəbul üzrə icbari təlimlərin, vəkillərin peşə hazırlığı və ixtisaslarının artırılması üzrə davamlı tədris tədbirlərinin təşkili;

-maddi dəstəyə ehtiyacı olan vəkillərin təminatının yaxşılaşdırılması;

-ölkə üzrə tətbiq olunan və vəkillik fəaliyyətinin həyata keçirilməsinə təsir edən məhdudlaşdırıcı rejimlərdə, vəkillik fəaliyyətinin həyata keçirilməsində yaranan digər çətinliklər zamanı vəkillərin üzvlük haqlarının qarşılanması;

-vəkillərin sağlamlığının qorunması, habelə Respublika səviyyəsində ictimai-əhəmiyyətli təşəbbüslərə dəstək verilməsi;

- Vəkilliyin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsi, o cümlədən Vəkillər Kollegiyasının istifadəsində (mülkiyyətində) olan binaların təmiri, vəkil qurumunun fəaliyyəti üçün inzibati binanın tikinitisi, təmir-tikinti işləri çərçivəsində digər iş, xidmət və malların satın alınması, zəruri avadanlıqların (kompüter, printer, mebel, digər alət və avadanlıqların) satın alınması;

-maarifləndirmə, internet resurslarında və kütləvi informasiya vasitələrində (KİV) vəkilliyin inkişafı ilə bağlı məlumatlarndırma işlərinin aparılması, Azərbaycan vəkilliyinin təbliği və onun nüfuzunun artırılması ilə bağlı müxtəlif yerli və beynəlxalq tədbirlərin təşkili, o cümlədən idman və digər mədəni-sosial tədbirlərin təşkili, nümayəndələrin iştirakının təmin edilməsi;

-hüquqşünas tələb təşkilatlarının fəaliyyətinə dəstək, onlara maddi-texniki yardımın göstərilməsi, eyni zamanda Rəyasət Heyətinin qərarına əsasən, fərqlənn hüquqşünas tələblərə təqaüdlərin verilməsi;

-Vəkillər Kollegiyasının təsisçisi olduğu təşkilatlara dəstək;

-order markasının çap edilməsi, habelə metodiki və digər çap vəsaitlərinin nəşr olunması;

-Vəkillər Kollegiyası Rəyasət Heyətinin məqsədəmüvafiq hesab etdiyi digər məsələlərin həll edilməsi.

Maddə 2. Orderin və order markasının hazırlanması, saxlanılması və uçotu qaydası

2.1. Order və order markası bu Əsasnamə ilə müəyyən olunmuş formaya uyğun şəkildə bir qayda olaraq mətbəədə order markasına unikal sıra nömrəsi verilməklə hər nömrədən cüt şəkildə çap edilir və orderin unikal nömrəsi ona yapışdırılan order markası ilə müəyyən olunur. Unikal sıra nömrəsindən başqa, order markasının yuxarı sağ küncündə onun cütünün birində "1", digərində "2" rəqəmi əks olunur. "1" rəqəmi əks olunmuş order markası aidiyyəti təşkilata təqdim olunan orderin, "2" rəqəmi isə vəkil qurumunda (fərdi qaydada fəaliyyət göstərən vəkildə) saxlanılan orderin üzərinə yapışdırılır.

2.2. Saxtalaşdırma hallarının qarşısının alınması məqsədilə order markasının ölçü və rəngi dəyişdirilə bilər.

2.3. İctimaiyyətin və aidiyyəti təşkilatların məlumatlandırılması məqsədilə order və order markasının ölçü, rəng və forması (bundan sonra – vizual xüsusiyyətləri) hər kəsin görəcəyi şəkildə Vəkillər Kollegiyasının rəsmi internet səhifəsində yerləşdirilir.

2.4. Dövlət hesabına göstərilən hüquqi yardım üzrə verilən orderdə order markasından istifadə olunmur. Bu cür orderlər vəkil qurumu və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən sifariş verilərkən sıra nömrəsi ilə nəşr etdirilir.

2.5. Dövlət hesabına göstərilən hüquqi yardım üzrə verilən order çəhrayı (RGB kodu üzrə: 255,182,193) rəngdə, order markası yapışdırılan orderlər isə yaşıl (RGB kodu üzrə: 0,250,154) rəngdə sifariş olunur.

2.6. Order markası onların nəzarətsiz istifadəsinə, zədəsinə və oğurlanmasına mane olan şəraitdə, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin inzibati binasında, bunun üçün ayrılmış seyfdə saxlanılır. Order markasının saxlanması, vəkil qurumlarına (fərdi qaydada fəaliyyət göstərən vəkilə) təhvil verilməsi və "Order markalarının təhvil verilməsinin uçot jurnalı"nın (bundan sonra - uçot jurnalı) (**3 saylı Əlavə**) aparılması Rəyasət Heyətinin bu işə təhkim olunmuş əməkdaşı (bundan sonra - məsul şəxs) tərəfindən həyata keçirilir. Saxlanc üçün seyfin açarlarının bir nüsxəsi məsul şəxsdə, digər nüsxəsi isə Vəkillər Kollegiyasının sədrində saxlanılır. Vəkillər Kollegiyasının sədrinin tapşırığına əsasən, istənilən vaxt məsul şəxsin fəaliyyəti təftiş oluna bilər.

Maddə 3. Order markasının əldə olunması

3.1. Order markaları mərkəzləşdirilmiş qaydada vəkil qurumları və fərdi vəkillər tərəfindən Rəyasət Heyətindən verdikləri sifariş əsasında əldə olunur. Order xərci bu barədə müvəkkil məlumatlandırılmaqla vəkil qurumunun rəhbəri, vəkil qurumunun hüquqi yardım göstərəcək vəkili və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən hüquqi yardım göstərilməsi haqqında müqavilə məbləğinə əlavə edilir.

3.2. Order markasının vəkil qurumuna (fərdi qaydada fəaliyyət göstərən vəkilə) təhvil verilməsi məsul şəxs tərəfindən həyata keçirilir. Order markası vəkil qurumunun rəhbərinə, o hər hansı səbəbdən işdə olmadığı dövrdə qanunla müəyyən olunmuş qaydada (etibarnamə və ya əmr əsasında) onun vəzifələrini icra edən vəkilə və fərdi qaydada fəaliyyət göstərən vəkilə şəxsən Vəkillər Kollegiyasının inzibati binasında təqdim edilməklə həyata keçirilir.

3.3. Order markasının əldə edilməsi vəkil qurumu (fərdi qaydada fəaliyyət göstərən vəkil) tərəfindən order markasının sayına uyğun olaraq Vəkillər Kollegiyasının müvafiq bank hesabına ödənilmiş məbləği təsdiq edən ödəniş sənədi məsul şəxsə təqdim edildikdən və bu barədə uçot jurnalında qeydlər aparılaraq imzalandıqdan sonra həyata keçirilir.

3.4. Order markasının vizual xüsusiyyətləri dəyişdirilə bildiyindən vəkil qurumları və fərdi vəkillər əvvəlki dövrün göstəricilərini nəzərə almaqla zəruri sayda order markası sifariş edirlər. Vizual cəhətdən köhnə order markaları Rəyasət Heyətinə qaytarılmaqla yenisi ilə əvəz olunurlar.

3.5. Vəkillər Kollegiyasının Rəyasət heyətinin sədri order markasının vəkil qurumlarına (fərdi qaydada fəaliyyət göstərən vəkilə) təhvil verilməsinin xüsusi prosedurunu və hesabatlılığını müəyyən edə bilər.

Maddə 4. Orderin və order markasının istifadəsi

4.1. Order vəkil qurumunda (fərdi qaydada fəaliyyət göstərən vəkildə) və təqdim olunacaq təşkilatda qalmaq şərtilə 2 (iki) nüsxədə tərtib olunmaqla vəkil qurumunun rəhbərinin və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin imza və möhürü ilə təsdiqlənir. Vəkil qurumunda (fərdi qaydada fəaliyyət göstərən vəkildə) qalacaq orderin nüsxəsi onun surətinin çıxarılması yolu ilə vəkil qurumunun rəhbəri (fərdi qaydada fəaliyyət göstərən vəkil) tərəfindən imza və möhürlə təsdiqlənir.

4.2. Orderdə qeyd olunan tapşırığın məzmunu göstərilməklə onların qeydiyyatı vəkil qurumunun rəhbəri və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən təmin edilir.

4.3. Vəkilin icraatında olan bir iş ilə əlaqədar vəkil orderinin sonrakı istifadəsi (cəzaçəkmə müəssisələrinə təqdim edilməsi ilə bağlı) üzrə nüsxələri vəkilin üzvü olduğu vəkil qurumunun rəhbəri və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin özünün möhürü ilə təsdiqlənir.

4.4. Order markasının satılması, hədiyyə verilməsi, başqa vəkil qurumuna və ya fərdi qaydada fəaliyyət göstərən vəkilə verilməsi qadağandır.

Maddə 5. İstifadə edilməmiş və vizual cəhətdən köhnəlmiş order markalarının qaytarılması və onların məhv edilməsi

5.1. İstifadə edilməmiş, vizual cəhətdən köhnəlmiş (bundan sonra - qaytarılmalı) order markası Rəyasət Heyətinə geri qaytarılır və "Order markalarının qaytarılması barədə Akt"la (**4 saylı Əlavə)** rəsmiləşdirilir. Akt məsul şəxs və qaytarılmalı order və markalarını qaytaran şəxs tərəfindən imzalanmaqla təsdiq edilir.

5.2 Qaytarılmalı order markasına görə ödənilmiş məbləğ geri tələb oluna bilməz.

5.3 Qaytarılmalı order markaları Vəkillər Kollegiyasına vəkil qurumunun rəhbəri (və ya müvafiq əmr əsasında onu əvəz edən şəxs), etibarnamə ilə vəkil qurumunun səlahiyyətli vəkili və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən şəxsən qaytarılır.

4.4 Qaytarılmış order markaları məhv edilir. Qaytarılmış Order markalarının məhv edilməsi cavabdeh şəxs və Vəkillər Kollegiyasının sədri tərəfindən müəyyən edilmiş şəxslərin iştirakı ilə həyata keçirilir. Məhv edilməli order markalarının sayı, nömrələri və digər xüsusiyyətləri göstərilməklə Order markalarının məhvini həyata keçirilən şəxslər tərəfindən sərbəst formada akt tərtib olunaraq imzalanır.

Maddə 6. Yekun müddəalar

5.1. Bu Əsasnamənin qəbul olunması ilə Rəyasət Heyətinin 15.08.2005-ci il tarixli qərarı ilə təsdiq olunmuş order forması yeni order və order markalarının nümunələri barədə məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanları və digər dövlət və qeyri-dövlət orqanları müvafiq qaydada xəbərdar edilənədək öz qüvvəsini saxlayır.

5.2. Rəyasət Heyəti 2 (iki) ay ərzində yeni order və order markalarının nümunələrini məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanları və digər dövlət və qeyri-dövlət orqanlarına göndərməklə məlumatlandırır, həmçinin nümunələr barədə Vəkillər Kollegiyasının rəsmi internet səhifəsində məlumat verir.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə təsdiq olunmuş "Vəkil orderi və order markası haqqında" Əsasnaməyə ***- 1 saylı əlavə***

Vəkil orderinin standart forması

Order markası yapışdırılan order yaşıl (RGB kodu üzrə: 0,250,154) rəngdə, A4 (210x297 mm) formatlı qoşa səhifəli (ikinci səhifə nüsxə olmaqla) sifariş olunur.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 27.09.2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASI

Order markası

№ 0000000

VƏKİL ORDERİ

Tarixi: 00.00.0000

Vəkil qurumu (fərdi qaydada fəaliyyət göstərən vəkil): _____

Adı, ünvanı, telefon nömrəsi (soyadı, adı və atasının adı)

_____

Müqavilənin (qərarın) tarixi: _____ Müqavilənin nömrəsi:_____

Vəkil _____

(Soyadı, adı, atasının adı və vəkil vəsiqəsinin nömrəsi)

Hüquqi yardım göstərilən şəxs: _____

(Soyadı, adı və atasının adı/Hüquqi şəxsin adı və VÖEN-i)

Tapşırığın məzmunu və işin mərhələsi: _____

_____

_____

Tapşırığın yerinə yetirildiyi təşkilat:_____

_____

Vəkilin imzası: _____

Vəkil qurumunun rəhbərinin imzası və möhürü (fərdi qaydada fəaliyyət göstərən vəkil): _____

Azərbaycan Respublikası
Vəkillər Kollegiyası Rəyasət Heyətinin
27.09.2018-ci il tarixli qərarı ilə təsdiq
olunmuş "Vəkil orderi və order markası
haqqında" Əsasnaməyə ***- 2 saylı əlavə***

Order markasının forması

Order markasının eni 4 sm, hündürlüyü 2,5 sm-dir.

Azərbaycan Respublikası
Vəkillər Kollegiyası Rəyasət Heyətinin
27.09.2018-ci il tarixli qərarı ilə təsdiq olunmuş
"Vəkil orderi və order markası haqqında"
Əsasnaməyə ***- 3 saylı əlavə***

Order markalarının təhvil verilməsinin uçot jurnalı

Sıra №	Order Markasının sayı	Təhvil verilən order markasının		Sənədi təhvil verən şəxs			Qeyd
		Başlanğıc №-si	Son №-si	Soyadı, adı, atasının adı, tutduğu vəzifə	Tarix	İmza	

Jurnalın sol tərəf hissəsi

Sənədi təhvil alan şəxsin					Təhvil alınmış order markasının sayı	Ödənilmiş məbləğ
Soyadı, adı, atasının adı	Vəkil Qurumunun adı	Vəsiqə nömrəsi	Etibarnamənin nömrəsi və tarixi	İmza		

Jurnalın sağ tərəf hissəsi

Azərbaycan Respublikası
Vəkillər Kollegiyası Rəyasət Heyətinin
27.09.2018-ci il tarixli qərarı ilə təsdiq olunmuş
"Vəkil orderi və order markası haqqında"
*Əsasnaməyə - **4 saylı əlavə***

Order markalarının qaytarılması barədə

AKT № _____

_____şəhər (rayon) "____"_____ 20___ il

Tərtib olunan akt əsasında_____sayda order markasının_____
(say)
_____
(qaytarılma səbəbi)

səbəbdən qaytarılması təsdiq olunur.

Qaytarlıma səbəbi	Qaytarılan order markasının sayı
Məs.: Vizual cəhətdən köhnəlmiş	
İstifadə edilməmiş Cəmi:	

Qaytarılmış order markası (ları) və order markalarının siyahısı akta əlavə olunur.

Təhvil verdim:

_____	_____	_____
(Vəkil qurumunun adı, fərdi vəkil olduqda qeyd olunmalı)	*(İmza)*	*(soyad, ad, ata adı)*

Təhvil aldım:

_____	_____	_____
(Vəzifəsi)	*(İmza)*	*(soyad, ad, ata adı)*
_____	_____	_____
(Vəzifəsi)	*(İmza)*	*(soyad, ad, ata adı)*

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin 29.10.2018-ci tarixli qərarı ilə təsdiq edilmişdir.

Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən növbəlilik üzrə Dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi

QAYDALARI

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsində hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardımın ödənişsiz, dövlət hesabına göstərilməsi və hər kəsin səlahiyyətli dövlət orqanı tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ təsbit edilmişdir. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda və digər qanunvericilik aktlarında Konstitusiya ilə təsbit edilmiş həmin hüquqların peşəkar vəkillər tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur. Vəkillər tərəfindən dövlət hesabına həyata keçirilən hüquqi yardımın keyfiyyətinin artırılması və bununla əlaqədar vahid tələblərin müəyyən edilməsi bu Qaydaların hazırlanmasına zərurət yaratmışdır.Bu Qaydaların məqsədi tədqiqat, ibtidai istintaq və məhkəmə orqanlarının qərarları əsasında dövlət hesabına həyata keçirilən hüquqi yardımın ümumi tələblərini və qaydasını müəyyən etməklə bərabər həmin işlər üzrə vəkillərin iştirakının bərabərliyi prinsiplərinin müəyyən edilməsi, ədalət mühakiməsində keyifiyyətli hüquqi yardımın həyata keçirilməsinin təmin edilməsi, dövlət hesabına həyata keçirilən hüquqi yardım zamanı vəkillər tərəfindən müəyyən olunmuş davranış qaydalarına riayət edilməsindən ibarətdir.

1. ÜMUMİ MÜDDƏLAR

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Konstitusiyasının, "Vəkillər və vəkillik fəaliyyəti" haqqında Azərbaycan Respublikası qanununun, digər qanunvericilik aktlarının və "Vəkillərin Davranış qaydaları haqqında" əsasnamənin tələblərinə uyğun olaraq hazırlanmışdır.
1.2. Bu Qaydalar qanunvericiliklə nəzərdə tutulmuş qaydada vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən cinayət, inzibati, mülki və digər işlər üzrə növbəlik əsasında dövlət hesabına hüquqi yardımın həyata keçirilməsini tənzimləyir.
1.3. Dövlət hesabına həyata keçirilən hüquqi yardım yalnız tədqiqat, ibtidai istintaq orqanlarının və məhkəmənin (bundan sonra səlahiyyətli dövlət orqanları adlandırlacaq) qərarı əsasında həyata keçirilir.
1.4. Vəkil qurumlarında fəaliyyət göstərən vəkillərin növbətçilik cədvəlləri vəkil qurumlarının rəhbərləri, fərdi qaydada fəaliyyət göstərən vəkillər üçün isə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin aparatı tərəfindən tərtib edilmiş və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti (bundan sonra - Rəyasət Heyəti) tərəfindən təsdiq edilmiş növbətçilik cədvəlinə uyğun olaraq həyata keçirilir.
1.5. Növbətçilik cədvəlləri Rəyasət Heyəti tərəfindən təsdiq edildikdən dərhal sonra vəkil qurumlarının rəhbərləri və Rəyasət Heyətinin aparatı tərəfindən səlahiyyətli və aidiyyəti qurumlara göndərilir.
1.6. Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər fəaliyyət göstərdiyi şəhər, rayon inzibati ərazisində yerləşən səlahiyyətli dövlət qurumlarının qərarı əsasında dövlət hesabına hüquqi yardımı həyata keçirirlər. Zərurət yarandıqda Rəyasət Heyətinin razılığı (və ya məlumatlandırılmaqla) digər şəhər, rayon inzibati ərazisində yerləşən səlahiyyətli dövlət qurumlarının qərarı əsasında dövlət hesabına hüquqi yardım həyata keçirilə bilər.
1.7. Növbətçi vəkillər növbətçilik cədvəli ilə yazılı imza etməklə və ya elektron qaydada poçt ünvanına göndərməklə tanış edilir.
1.8. Növbə səhər saat 09:00 başlayır və növbəti gün səhər saat 09:00-da bitir. Növbə günü növbətçi vəkil səhər saat 09:00-dan axşam saat 22:00-dək vəkil qurumunda, fərdi qaydada fəaliyyət göstərən vəkil isə fəaliyyət göstərdiyi ünvanda olmalı və yalnız səlahiyyətli dövlət qurumlarının qərarı əsasında hüquqi yardım göstərilməsi ilə əlaqədar oranı tərk edə bilərlər. Növbətçi vəkil axşam saat 22:00-dan səhər saat 09:00-dək onunla rabitə əlaqəsi saxlanılmasına şərait yaradır.

1.9. Növbətçi vəkil hər hansı bir üzürlü səbəbdən növbətçilik cədvləli ilə müəyyən edilmiş gündə növbədə ola bilmədikdə, bu barədə növbəyə ən azı iki gün qalmış əsaslandırılmış yazılı ərizə ilə vəkil qurumunun rəhbərinə, fərdi qaydada fəaliyyət göstərən vəkillər isə Rəyasət Heyətinin aparatına müraciət edə bilərlər. Bu halda vəkil qurumunun rəhbəri və ya Rəyasət Heyətinin aparatı elektron qaydada məlumatlandırmaqla həmin vəkili digər vəkillə əvəz edə bilər.
1.10. Şəhər və rayon inzibati ərazisində səlahiyyətli dövlət qurumlarının sayı və dövlət hesabına həyata keçirilə biləcək hüquqi yardımın yükü nəzərə alınmaqla vəkil qurumlarında hər gün üçün növbəyə üç nəfərədək növbətçi vəkil nəzərdə tutulur. Əlavə vəkil ayrılmasına zərurət yaranarsa, vəkil qurumunun rəhbəri Rəyasət Heyətini məlumatlandırmaqla digər vəkili cəlb edə bilər.[1]
1.11. Vəkil qurumunun rəhbəri istirahət və bayram günləri və ya hər hansı bir üzürlü səbəbdən işdə olmadıqda bu zaman vəkil orderi müdir müavini, eyni səbəblərdən o da işdə olmadıqda isə növbətçi vəkil tərəfindən imzalanır.
1.12. Növbədə olduğu gün vəkil səlahiyyətli dövlət qurumları tərəfindən dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar qərar daxil olduqda həmin qərarın icrası ilə əlaqədar bütün zəruri tədbirlər görməli və ən qısa zamanda və ağlabatan müddətdə istintaq hərəkətlərində və ya məhkəmə iclaslarında iştirak etməlidir.

2. DÖVLƏT HESABINA HÜQUQİ YARDIM GÖSTƏRİLMƏSİNİN ƏSASLARI VƏ QAYDALARI

2.1. Cinayət, inizbati və mülki işlər üzrə dövlət hesabına hüquqi yardım yalnız təhqiqat, ibtidai istintaq orqanlarının və məhkəmənin qərarları əsasında həyata keçirilir.
2.2. Cinayət işlər üzrə üzrə bu Qaydanın 2.1-ci bəndində qeyd edilən səalahiyyətli dövlət qurumlarının qərarları icra olunması üçün birbaşa ərazi üzrə vəkil qurumlarına, fərdi qaydada fəaliyyət göstərən vəkillərə, digər işlər üzrə isə Bakı Apellyasiya, kassasiya instansiya, o cümlədən Bakı Ağır Cinayətlər və Bakı Hərbi məhkəmələrinin qərarları Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris mərkəzinə göndərilir. Mərkəz tərəfindən həmin qərarların ədalətli bölgüsü təmin edilməklə icra olunması üçün yerli vəkil qurumlarına və ya fərdi qaydada fəaliyyət göstərən vəkillərə göndərilir.[2]
2.3. Dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar səlahiyyətli dövlət qurumlarından vəkil qurumlarına və ya fərdi qaydada fəaliyyət göstərən vəkillərə qərarlar daxil olduqda həmin qərarlar bunun üçün xüsusi olaraq ayrılmış jurnallardan qeydiyyatdan keçirilirlər. Qeydiyyat zamanı jurnalda aşağıdakı məlumatlar göstərilir:
- səlahiyyətli dövlət qurumunun adı;
- daxil olmuş qərarın təliqə məktubunun tarixi və çıxış nömrəsi;
- qərarın daxil olma tarixi və vaxtı;
- qərar qəbul etmiş vəzifəli şəxsin adı, soyadı;
- hüquqi yardım göstərən növbətçi vəkilin adı, soyadı;
- tərtib edilmiş orderin nömrəsi və tarixi;
- qərarın icrasının qəbulu ilə əlaqədar vəkilin imzası.
2.4. Xüsusi jurnalda qeydiyyatdan keçdikdən sonra vəkil qurumunun rəhbərinin dərkənarına əsasən həmin qərarın icrası ilk növbədə növbətçi vəkilə və ya əlavə vəkil ayrılmasına zərurət yaranarsa digər vəkilə həvalə edilir və bundan sonra order tərtib edilir.
2.5. Vəkil orderi aydın, səliqəli xətlə və bütün zəruri məlumatlar ixtisar edilmədən tam göstərilməklə tərtib edilir.
2.6. Vəkil qurumunun rəhbəri və ya fərdi qaydada fəaliyyət göstərən vəkil orderlərin tərtib edilməsinin düzgünlüyünə görə məsuliyyət daşıyır.

3. NÖVBƏTÇİ VƏKİLİN VƏZİFƏLƏRİ

3.1. Dövlət hesabına həyata keçirdiyi hüquqi yardımı "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun, prosessual və digər qanunvericilik aktlarının və "Vəkillərin davranış qaydaları haqqında" Əsasnamənin tələblərini rəhbər tutmaqla həyata keçirmək;
3.2. Digər fəaliyyətini əvvəlcədən müəyyən edilmiş növbətçilik cədvəlinə uyğun qurmaq;
3.3. Növbə günü müəyyən edilmiş müddətdə vəkil qurumunda olmaq və yalnız səlahiyyətli dövlət

qurumlarının qərarı əsasında dövlət hesabına həyata keçirilən hüquqi yardımla əlaqədar oranı tərk etmək;
3.4. Növbətçilik cədvəli ilə qabaqcadan tanış olmaq və növbədə olduğu gün hər hansı bir üzürlü səbəbdən növbədə ola bilmədikdə bu barədə əsaslandırılmış yazılı ərizə ilə vəkil qurumunun rəhbərinə iki gün qabaqcadan müraciət etmək;
3.5. Növbədə olduğu gün hər hansı bir üzürlü səbəbdən vəkil qurumunu qısa müddət ərzində tərk etmək zərurəti yarandıqda vəkil qurumunun rəhbərinin razılığı ilə oranı tərk etmək və onunla rabitə əlaqəsinin yaradılmasına bütün növbə zamanı təmin etmək;
3.6. Növbətçilik cədvəli üzrə təyin edilmiş vəkil həvalə edilən iş üzrə mərhələ sona çatanadək iştirak etməlidir.
3.7. Dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar səalhiyyətli dövlət qurumları tərəfindən bütün prosessual tələblərə riayət edilməsini araşdırmalı və bu barədə hər hansı bir pozuntu aşkar edilidikdə vəkil cinayət prosessual qanunvericiliyinə uyğun olaraq zəruri tədbir görməli və vəkil qurumunda fəaliyyət göstərən vəkillər bu barədə dərhal vəkil qurumunun rəhbərinə, fərdi qaydada fəaliyyət göstərən vəkillər isə Rəyasət Heyətinin aparatına məlumat verməlidir.

4. VƏKİLƏ QADAĞAN OLUNUR

4.1. Heç bir üzrlü səbəb olmadan növbədən imtina etmək;
4.2. Üzürsüz səbəbdən növbə yerini tərk etmək;
4.3. Dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar olaraq növbətçi olduğu qeyri iş günləri, habelə iş günləri saat 18:00-dan sonra istisna olmaqla səlahiyyətli dövlət qurumlarının qərarlarını birbaşa qəbul etmək;
4.4. Vəkil qurumunun rəhbərinin məlumatı olmadan növbə üzrə vəzifələrinin həyata keçirilməsini digər vəkilə həvalə etmək;

5. NÖVBƏTÇİ VƏKİLİN HÜQUQLARI

5.1. Növbətçi vəkil Azərbaycan Respublikasının Prosessual və digər qanunvericilik aktları ilə nəzərdə tutulmuş hüquqları həyata keçirirlər.

6. VƏKİL QURUMUNUN RƏHBƏRİNİN VƏ RƏYASƏT HEYƏTİNİN APARATININ VƏZIFƏLƏRİ

6.1. Səlahiyyətli dövlət qurumlarının qərarları əsasında dövlət hesabına hüquqi yardımın növbəlik üzrə vaxtında həyata keçirilməsini təmin etmək;
6.2. Daxil olmuş qərarların ədalətli və bərabərlik prinsiplərinə əməl etməklə vəkillər arasında növbəliliyə riayət edilməsini təmin etmək;
6.3. Növbətçilik cədvəlini bu qaydalarda nəzərdə tutulmuş müddətdə tərtib edərək təsdiq edilməsi üçün Rəyasət Heyətinə təqdim etmək;
6.4. Növbətçilik cədvəli Rəyasət Heyəti tərəfindən təsdiq edildikdən sonra vəkil qurumunun yerləşdiyi rayon inzibati ərazisində yerləşən təhqiqat, ibtidai istintaq və məhkəmər orqanlarına təqdim etmək;
6.5.Növbətçilik cədvəlinə vəkillər tərəfindən riayət edilməsinə nəzarət etmək;
6.6. Hər hansı bir üzürlü səbəbdən növbətçi vəkil növbətçilik cədvəli üzrə öz vəzifə borcunu yerinə yetirə bilmədikdə həmin vəkilin digər vəkillə əvəz olunmasını təmin etmək;
6.7. Vəkilləri növbətçilik cədvəli ilə vaxtında tanış etmək;
6.8. Qanunverilcilik aktları, Vəkillər Kollegiyasının və vəkil qurumunun nizamnamələri müəyyən edilmiş digər vəzifələri həyata keçirmək;

7. VƏKİL QURUMUNUN RƏHBƏRİNİN VƏ RƏYASƏT HEYƏTİNİN APARATININ HÜQUQLARI

7.1. Növbətçi vəkil tərəfindən bu qaydalar üzrə üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə monitorinqini aparmaq;

7.2. Növbə günü növbətçi vəkildən başqa dövlət hesabına digər digər vəkilin hüququ yardımına zərurət yaranarsa həmin hüquqi yardımın həyata keçirilməsini digər vəkilə həvalə etmək;
7.3. Dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə əlaqədar orderin tərtib edilməsi üçün zəruri məlumatların qərarda göstərilməsini, qərarın imzalanmasını, möhürlənməsini səlahiyyətli şəxs tərəfindən təqdim edilməsini tələb edə bilər.
7.4. Qanunverilcilik aktları, Vəkillər Kollegiyasının və vəkil qurumunun nizamnamələri müəyyən edilmiş digər hüquqları həyata keçirmək;

8. NÖVBƏTÇİLİK QAYDALARININ POZULMASINA GÖRƏ MƏSULIYYƏT

8.1. Vəkillər, vəkil qurumunun rəhbərləri və fərdi qaydada fəaliyyət göstərən vəkillər bu Qaydaların pozuımasına görə intizam məsuliyyəti daşıyırlar.

9. YEKUN MÜDDƏALAR

9.1. Bu Qaydalarda nəzərdə tutulmayan məsələlər Azərbaycan Respublikasının Prosessual və digər qanunvericilik aktları ilə tənzimlənir.
9.2. Bu Qaydalar Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

QAYDALARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1.10.03.2021-ci il tarixli Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə 1.10-cu maddənin birinci cümləsində “bir və ya iki nəfər” sözü "üç nəfərədək," sözləri ilə əvəz edilmişdir.
2. 15.09.2021-ci il tarixli Vəkillər Kollegiyası Rəyasət Heyətinin qərarı ilə maddə yeni redaksiyada verilmişdir: “2.2.Cinayət işlər üzrə üzrə bu Qaydanın 2.1-ci bəndində qeyd edilən səalahiyyətli dövlət qurumlarının qərarları icra olunması üçün birbaşa ərazi üzrə vəkil qurumlarına, fərdi qaydada fəaliyyət göstərən vəkillərə, digər işlər üzrə isə **Bakı** Apellyasiya, kassasiya instansiya, **o cümlədən Bakı Ağır Cinayətlər və Bakı Hərbi məhkəmələrinin qərarları** Vəkillər Kollegiyasının **Hüquqi Yardım və Tədris mərkəzinə** göndərilir. **Mərkəz** tərəfindən həmin qərarların **ədalətli bölgüsü təmin edilməklə** icra olunması üçün yerli vəkil qurumlarına və ya fərdi qaydada fəaliyyət göstərən vəkillərəgöndərilir.”

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29.10.2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

Vəkillərin elektron şəxsi kabineti və ondan istifadə

Q A Y D A L A R I

1. Ümumi müddəalar

1.1. "Vəkillərin elektron şəxsi kabineti və ondan istifadə Qaydaları" (bundan sonra – Qaydalar) Azərbaycan Respublikası Vəkillər Kollegiyasının rəsmi internet səhifəsində (bundan sonra – Sayt) vəkillərin istifadəsi üçün nəzərdə tutulmuş, vəkillər və vəkil qurumları ilə Vəkillər Kollegiyasının Rəyasət Heyəti (bundan sonra – Rəyasət Heyəti) arasında məlumatların mübadiləsi, vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən illik statistik hesabatların və digər hesabatların, vəkillərin iştirak etdikləri tədris tədbirləri barədə məlumatların təqdim edilməsi, vəkillərin vəkil reyestrindəki məlumatlarına əlavə və dəyişikliklərin edilməsi, sayt və mətbu nəşrlərə məqalələrin təqdim olunması və bununla bağlı digər məsələləri tənzimləyir.

1.2. Bu Qaydaların 1.1-ci bəndində nəzərdə tutulan məqsədlərə xidmət edən, azərbaycan və ingilis dillərində tərtib edilmiş elektron şəxsi kabinet (bundan sonra – Kabinet) Rəyasət Heyəti tərfindən yaradılır.

1.3. Kabinetin məqsədi Rəyasət Heyəti və vəkillər arasında olan əlaqənin operativ, şəffaf, konfidensial şəkildə həyata keçirilməsi, vəkil reyestrində olan məlumatların aktuallığının təmin edilməsidir.

2. Kabinetdən istifadə zamanı vəkil və vəkil qurumlarının vəzifələri

2.1. Vəkil və vəkil qurumları Rəyasət Heyəti tərəfindən elektron şəxsi kabinet (bundan sonra – Kabinet) vasitəsilə göndərilmiş məlumatları müntəzəm olaraq yoxlamalı və müraciətlərə cavab verməlidir.

2.2. Vəkil və vəkil qurumunun Kabinetinə göndərilmiş məlumatlar vəkil və vəkil qurumları tərəfindən alınmış hesab olunur.

2.3. Vəkil bu Qaydaların 3.1-ci bəndində nəzərdə tutulmuş şəxsi məlumatlarında hər hansı bir əlavə və ya dəyişiklik olduğu halda, dərhal Kabinetdə bu barədə müvafiq əlavə və ya dəyişiklik etməlidir.

2.4. Vəkil tərəfindən bu Qaydaların 3.1-ci bəndində nəzərdə tutulmuş şəxsi məlumatlara edilmiş əlavə və dəyişikliklərin doğruluğuna və tamlığına, habelə bu Qaydaların 3.1.1-ci, 3.1.2-ci və 3.1.8-ci yarımbəndlərində nəzərdə tutulmuş məlumatları azərbaycan və ingilis dillərində daxil edilməsinə görə həmin vəkil məsuliyyət daşıyır.

2.5. Vəkil qurumlarının rəhbərləri və fərdi qaydada fəaliyyət göstərən vəkillər illik statistik hesabatı növbəti təqvim ilinin ilk 30 günü ərzində Kabinet vasitəsilə təqdim etməlidir. 2.6. Vəkillər öz peşə hazırlığı və ixtisaslarının artırılması məqsədi ilə iştirak etdikləri tədris tədbirləri ilə bağlı məlumatı tədbirin son günündən etibarən 5 iş günü ərzində Kabinet vasitəsilə təqdim etməlidir.

2.7. Bu Qaydaların 2-ci bəndi ilə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsi, o cümlədən vəkil və vəkil qurumunun Kabinetinə göndərilmiş məlumatların vaxtında cavablandırılmaması vəkil və müvafiq vəkil qurumunun rəhbəri barəsində intizam icraatının başlanılması üçün əsasdır.

3. Kabinet vasitəsilə təqdim olunan fərdi məlumatlar

3.1. Kabinet vasitəsilə vəkillərdən aşağıdakı fərdi məlumatların tam və dəqiq təqdim olunması tələb olunur:

3.1.1. Vəkilin soyadı, adı və atasının adı;

3.1.2. Vəkilin fəaliyyət göstərdiyi ünvan;

3.1.3. Vəkilin elektron poçt ünvanı;

3.1.4. Vəkilin mobil əlaqə nömrəsi;

3.1.5. Vəkilin şəkili;

3.1.6. Vəkilin bildiyi xarici dillər;

3.1.7. Vəkilin ixtisaslaşdığı hüquq sahələri (dörddən çox olmamaq şərtilə); 3.1.8. Vəkilin hüquqşünaslıq ixtisası üzrə aldığı ali təhsil (təhsil aldığı illər, ali təhsil müəssisəsinin adı, aldığı təhsilin dərəcəsi, ixtisas)
3.1.9. Vəkilin nailiyyətləri;
3.1.10. Vəkilin göstərdiyi hüquqi xidmətlər.
3.2.Bu Qaydaların 3.1-ci bəndində sadalanan məlumatlar Saytda dərc olunan vəkil reyestrində yerləşdirilir.

4. Kabinetlə bağlı Rəyasət Heyətinin vəzifələri

4.1.Rəyasət Heyəti vəkil və vəkil qurumu ilə arasında olan məlumat mübadiləsinin, vəkil qurumlarının rəhbərləri və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən təqdim olunmuş illik statistik hesabatların və vəkillərin iştirak etdikləri tədris tədbirləri ilə bağlı məlumatların konfidensiallığına zəmanət verir.
4.2.Saytda dərc olunmuş vəkil reyestrindəki məlumatlar açıq məlumat hesab olunur və üçüncü şəxslər tərəfindən istifadə oluna bilər.
4.3.Rəyasət Heyətinin aparatı Kabinetin proqram və texniki təminatı ilə bağlı məsələləri həll edir.
4.4.Rəyasət Heyəti vəkil tərəfindən Kabinet vasitəsilə təqdim edilmiş məqalələri dərc etmək öhdəliyi daşımır.

5. Digər müddəalar

5.1.Vəkil tərəfindən Kabinetə əlavə edilmiş şəkil vəkillərin xüsusi geyim formasında, ağ fonda və qarşıdan çəkilməlidir.
5.2.Vəkil yalnız peşəkar hüquqi xidmət göstərə bildiyi xarici dilləri Kabinetdə qeyd etməlidir. 5.3.Vəkil tərəfindən qeyd olunmuş, bu Qaydaların 3.1.9 və 3.1.10-cu yarımbəndlərində nəzərdə tutulmuş məlumatlar heç bir halda reklam xarakteri daşımamalıdır. 5.4.Bu Qaydalar yalnız Rəyasət Heyəti tərəfindən dəyişdirilə və ya qüvvədən düşmüş hesab edilə bilər.
5.5.Bu Qaydalar Saytda dərc olunduğu gündən qüvvəyə minir.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29.10.2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

Vəkil kabinetinin yaradılması

QAYDALARI

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda, eləcə də digər qanunvericilik aktlarında Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ peşəkar vəkillər tərəfindən həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti tərəfindən vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyətini, hüquqi dövlətdə bu təsisatın rolunu nəzərə alaraq, ölkəmizdə məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi sahəsində görülən işlər çərçivəsində vəkilliyin inkişafına dəstək vermək məqsədilə "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı

əlavə tədbirlər haqqında" 22 fevral 2018-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncamın icrası, həmçinin keyfiyyətli hüquqi yardımın göstərilməsinə və vəkillərin iş şəraitlərinin yaxşılaşdırılmasına xidmət edəcək müasir standartlara, İnformasiya Kommunikasiya Texnologiyalarının tələblərinə cavab verən "vəkil kabinet"lərinin yaradılmasının qaydalarının müəyyən edilməsi zərurəti yaranmışdır.

1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu qaydaların əsasını Azərbaycan Respublikası Konstitusiyası, "Vəkillər və Vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanunu, eləcə də digər normativ hüquqi aktlar təşkil edir.

1.2. Barəsindəki məlumatlar vəkillərin reyestrinə daxil edilmiş və vəkil qurumunda fəaliyyət göstərən vəkil özünün ayrıca vəkil kabinetini yarada bilər.

1.3. Vəkil kabineti hüquqi şəxs deyildir. Vəkil kabineti təsis etməklə fəaliyyət göstərən vəkilin fəaliyyəti sahibkarlıq fəaliyyəti hesab olunmur. Vəkil kabineti təşkil edən vəkil daxil olduğu vəkil qurumunda fəaliyyət göstərən vəkil hesab olunur.

1.4 Vəkil kabineti vəkilin keyfiyyətli hüquqi yardım göstərə biləcəyi, konfidensial hüquqi yardım göstərilməsi ilə bağlı bütün tələblərə cavab verən, əhalisinin sayı çox olan və bu xidmətə daha çox ehtiyac olan yerlərdə və bunun üçün lazımi şəraitin (o cümlədən sənədlərin saxlanılması üçün dəmir seyf və ya dəmir şkaflar olan) və real imkanların olduğu minimal 20 m^2-lik qeyri

yaşayış sahəsində və ya qeyri-yaşayış sahələri üçün nəzərdə tutulan şərtlərə və şəraitə uyğun olan yaşayış sahəsində təşkil edilə bilər.

1.5. Vəkil kabineti təşkil etmək istəyən vəkil bu barədə aşağıdakı məlumatları özündə əks etdirən ərizə ilə fəaliyyət göstərdiyi vəkil qurumunun rəhbərinə müraciət edir: - Özü haqqında məlumatlar (vəkillərin reyestrində onun nömrəsi soyadı, adı, atasının adı); - Vəkil kabinetinin onun istifadəsində olmasını təsdiq edən sənədlər;

- Vəkil kabinetinin yaradılma əsası və məqsədi;

- Vəkil kabineti ilə Vəkillər Kollegiyası və vəkilin fəaliyyət göstərdiyi vəkil qurumu arasında telefon, teleqraf və digər rabitə kanalı vasitəsilə məlumat mübadiləsinin həyata keçirilməsi barədə məlumat.

Vəkilin fəaliyyət göstərdiyi vəkil bürosunun bu üzrə yaratdığı komissiya müraciətin daxil olduğu gündən 5 iş günü müddətində təşkil olunmuş vəkil kabinetininin bu qaydaların tələbinə uyğun olub-olmamasını yoxlayır. Əgər vəkil kabineti bu Qaydaların tələbinə uyğun deyilsə, vəkil qurumu vəkil kabinetinin bu Qaydaların tələbinə uyğunlaşdırılmasına dair vəkil kabineti təşkil etmək barədə ərizə ilə müraciət etmiş vəkilə yazılı məlumat verir. Əgər vəkil kabineti mövcud

Qaydaların tələbinə cavab verirsə, vəkil qurumunun rəhbəri vəkil kabinetinin yaradılması barədə təqdimatla Vəkillər Kollegiyasının Rəyasət Heyətinə müraciət edir.

Vəkillər Kollegiyasının Rəyasət Heyətinin müvafiq Komissiyasının üzvləri təqdim olunmuş sənədləri 10 iş günü müddətində tədqiq edir, vəkil kabineti yerləşəcək yerə baxış keçirir və bundan sonra öz rəyini Rəyasət Heyətinə təqdim edir.

Vəkillər Kollegiyasının Rəyasət Heyəti Komissiyanın qərarına baxdıqdan sonra təqdimatın təmin və ya rədd olunması barədə qərar qəbul edir.

Vəkillər Kollegiyasının Rəyasət Heyəti təqdimat daxil olduqdan sonra bu qaydalarda göstərilən tələblər pozulduğu halda ona baxılmadan müraciət etmiş büroya geri qaytarır. Vəkillər Kollegiyasının Rəyasət Heyəti vəkil kabinetinin təşkil edilməsi ilə bağlı təqdimatın təmin olunması qərar verdikdən və onun vəkil bürosuna təqdim edilməsindən sonra vəkil kabinetinin fəaliyyətinə başlanması təmin edilir.

Bu qaydalar qəbul olunanadək təşkil edilmiş vəkil kabinetləri barədə bu kabinetləri təşkil etmiş vəkillər Qaydaların rəsmi şəkildə Vəkillər Kollegiyasının internet səhifəsində elan olunduğu gündən 1 ay müddətində fəaliyyət göstərdikləri vəkil kabinetləri barədə bu Qaydalarda göstərilən formalı yazılı məlumatı aidiyyati (daxil olduqları) vəkil qurumuna təqdim etməlidirlər.

Vəkil kabinetinin ləğv edilməsi barədə məlumat vəkil kabinetinin ləğv olunduğu gündən 3 iş günü müddətində vəkil kabinetini təşkil etmiş vəkil tərəfindən yazılı formada vəkilin daxil olduğu vəkil qurumuna təqdim edilir. Vəkil qurumu bu məlumatı 3 iş günü ərzində Vəkillər Kollegiyasının Rəyasət Heyətinə yazılı qaydada təqdim edir.

Vəkil kabinetinin yenidən təşkil olunmasına dair məlumat Vəkil kabinetinin təşkil olunmasına dair bu Qaydaların 1.4 bəndində nəzərdə tutulmuş qaydada vəkil qurumuna və Vəkillər Kollegiyasının Rəyasət Heyətinə təqdim olunmalıdır.

1.6. Vəkil kabineti vəkilin fəaliyyət göstərdiyi qurumda və Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının "vəkil kabinetlərinin siyahısında" qeydə alınır. Onun Əsasnaməsi vəkilin fəaliyyət göstərdiyi qurumun rəhbəri tərəfindən təsdiq edilir.

2. ƏLAVƏ MÜDDƏALAR

2.1. Bu Qaydaların müddəalarına heç bir halda vəkil kabineti təşkil etmiş vəkilin daxil olduğu vəkil bürosunun Nizamnaməsində nəzərdə tutulan öhdəliklərinin məhdudlaşdırılması kimi baxıla bilməz.

2.2. Vəkil qurumu vəkil kabineti təşkil etmiş vəkilin müstəqilliyi və vəkil kabinetində fəaliyyətinə müdaxilə edə bilməz, həmçinin onun vəkil kabinetində fəaliyyətinə və etibar edən qarşısında peşə məsuliyyətinə görə cavabdehlik daşımır.

2.3.Vəkil kabineti onu təşkil etmiş vəkilin daxil olduğu vəkil qurumunun ofisi statusuna malik olur. Vəkil kabineti və onda saxlanılan sənədlərə vəkil qurumunun ofisinin konfidensiallığı müddəaları şamil olunur.

2.4. Bu qaydalalar qəbul olunnanadək mövcud bürolara bu qaydalara uyğun şəhadətnamə almalıdırlar.

3. VƏKİL KABİNETİNİN FƏALİYYƏTİ

3.1. Vəkil kabineti Vəkil qurumların reyestrinə daxil edilir və vəkilə Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən bu barədə şəhadətnamə verilir.

3.2. Vəkil kabinetini təşkil etmiş vəkil orderi daxil olduğu vəkil qurumundan alır. 3.3. Vəkil kabinetinin girişində bu Qaydaların 1 nömrəli əlavəsindəki nümunələrəuyğun olaraq lövhələr hazırlanıb yerləşdirilir.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29 oktyabr 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Vəkil qurumlarının təşkili və fəaliyyəti haqqında" qaydalara

1 SAYLI ƏLAVƏ



Qeyd: mətnlər ağ parlaq plastmas üzərində parlaq qara hərflərlə

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29 oktyabr 2018-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

Vəkil qurumlarının təşkili və fəaliyyəti haqqında

QAYDALARI

Azərbaycan Respublikası Konstitusiyasına əsasən hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ təsbit edilmişdir. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda, eləcə də digər qanunvericilik aktlarında Konstitusiya ilə təsbit edilmiş həmin hüquqların peşəkar vəkillər tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur.
Azərbaycan Respublikasının Prezidenti tərəfindən vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun həyata keçirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının böyük əhəmiyyətini, hüquqi dövlətdə bu təsisatın rolunu nəzərə alaraq, ölkəmizdə məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi və müasirləşdirilməsi sahəsində görülən işlər çərçivəsində vəkilliyin inkişafına dəstək vermək məqsədilə "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 22 fevral 2018-ci il tarixli Sərəncam imzalanmışdır.
Həmin Sərəncamın icrası həmçinin, keyfiyyətli hüquqi yardımın göstərilməsinə xidmət edəcək müasir standartlara, İnformasiya Kommunikasiya Texnologiyalarının tələblərinə cavab verən "Vəkil qurumlarının yaradılması və fəaliyyəti Qaydaları"nda (bundan sonra - Qaydalar) göstərilən göstəricilərə uyğun yeni Vəkil qurumlarının (bundan sonra - Qurum) yaradılmasını, eləcə də
mövcud hüquq məsləhətxanalarının bu Qaydalarda nəzərdə tutulan tələblərə uyğunlaşdırılmasını zəruri etmişdir.
Bu Qaydaların məqsədi vəkillərin iş şəraitinin yaxşılaşdırılmasından, vətəndaşlara peşəkar və keyfiyyətli hüquqi yardımın göstərilməsi üçün texniki və informasiya kommunikasiya texnologiyalarının tətbiqi və konfidensial görüş otaqlarının təşkil edilməsindən ibarətdir.

I. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydaların əsasını Azərbaycan Respublikası Konstitusiyası, "Vəkillər və Vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Kollegiyasının 19 mart 2012-ci il tarixli 2-N saylı qərarı ilə təsdiq edilmiş "Qeyri kommersiya qurumlarının dövlət qeydiyyatının aparılması Qaydaları", eləcə də Azərbaycan Respublikasının digər normativ hüquqi aktları təşkil edir.
1.2. Qurum üzvülüyə əsaslanan, təsisçilər tərəfindən təsdiq edilən Nizamnamə əsasında və həmin təsisçilərin öz aralarında təsis müqaviləsi bağlaması yolu ilə təsis edilən və fəaliyyət göstərən qeyri-kommersiya təşkilatıdır.
1.3. Qurumun təsisçiləri yalnız Azərbaycan Respublikası Vəkillər Kollegiyasına üzvləri olabilərlər.

II. QURUMLARIN YARADILMASI

2.1. Qurum bir qayda olaraq üç və daha çox vəkil tərəfindən təsis edilə bilər, qurumun rəhbəri seçiləcək şəxsin isə minimum 2 il vəkil stajı olmalıdır.
2.2. Təsis müqaviləsində təsisçilər Qurumun fəaliyyətində iştirak qaydasını, təsisçilərin öz əmlaklarını qurumya vermək şərtlərini, qanuni təmsilçinin müəyyən edilməsi, qurumya yeni üzvlərin qəbul edilməsi qaydalarını və şərtlərini, Qurumun təsisçilərini, onların hüquq və
vəzifələrini, təsisçilərin Qurumun tərkibindən çıxmalarının qayda və şərtlərini müəyyənedirlər. 2.3. Nizamnamədə aşağıdakılar əks olunur:
- Qurumun adı;

- Qurumun yerləşdiyi yer;
- Qurumun fəaliyyət predmeti və məqsədi;
- Qurumun əmlakının yaranma mənbəyi və onun istifadə istiqamətləri (o cümlədən bölünməz fondların mövcud olub-olmaması və onun istifadə istiqamətləri);
- Qurumun idarəetmə qaydası;
- Qurumun yenidən təşkili və ləğvetmə qaydası;
- Qurumun nəzdində vəkil kabinetinin yaradılma və ləğv qaydası;
- Nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi qaydası;

- "Vəkillər və Vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına zidd olmayan müddəalar. 2.4. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq hüquqi şəxs statusu olan Qurumun dövlət qeydiyyatına alınması üçün qeydiyyat orqanına ərizə ilə müraciət edilməlidir.

2.5. Ərizə təsisçilər və onların müvafiq qaydada vəkil etdiyi şəxs tərəfindən imzalanır və notariat qaydada təsdiqlənir.

2.6. Ərizədə aşağıdakılar göstərilir:
- Təsisçilərin adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi;
- Ərizə səlahiyyətli şəxs tərəfindən imzalandıqda onun adı, soyadı, atasının adı, yaşadığı yer, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və verilmə tarixi və vəkalətnamə haqqında məlumatlar (vəkalətnamənin həm də bu məqsədlə verilməsi xüsusi olaraq göstərilməlidir); - Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 aprel 2005-ci il tarixli 70 nömrəli qərarı ilə təsdiq edilən ərizə formasında müəyyən edilən digər məlumatlar.

2.7. Ərizəyə aşağıdakılar əlavə olunur:
- Qurumun təsisçiləri və onların səlahiyyətli nümayəndəsi tərəfindən təsdiq edilmiş nizamnaməsi (2 nüsxədə);
- Qurumun nizamnaməsinin təsdiq edilməsi və idarəetmə orqanlarınınformalaşdırılması barədə qərarlar;
- Təsis sənədləri Azərbaycan Respublikası Mülki Məcəlləsində nəzərdə tutulmuş, habelə təsisçilər tərəfindən zəruri hesab edilən digər məsələləri əks etdirməli və bütün təsisçilər (və ya onların səlahiyyətli nümayəndələri) tərəfindən imzalanmalıdır;
-Dövlət rüsumunun ödənilməsi haqqında sənəd (dövlət rüsumu dövlət büdcəsinə nağd şəkildə ödənildiyi halda bank qəbzinin əsli, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən bank sənədi);
- Təsisçilərin şəxsiyyətini təsdiq edən sənədlərin surəti;
- Hüquqi ünvanını təsdiq edən sənəd (Qurumun yerləşdiyi yerə dair mülkiyyətçinin müvafiq iradə ifadəsini əks etdirən sənəd, Qurumun yerləşdiyi yerə dair təsisçilərin qərarı); - Qanuni təmsilçi təyin edildiyi halda onun şəxsiyyətini təsdiq edən sənədin surəti; -Qurumun təsis edilməsinə dair Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin rəyi.

2.8. Qurumun nizamnaməsinin titul vərəqində qeydiyyat nömrəsi, qeydiyyat tarixi və dövlət qeydiyyatı orqanlarının adının qeyd olunması üçün müvafiq hissə olmalıdır. 2.9. Ərizə surəti ilə birlikdə təqdim edilməlidir. Ərizənin əsli dövlət qeydiyyat orqanında saxlanılır, surəti isə dövlət qeydiyyat orqanı tərəfindən ərizənin əslinin qəbul edilməsi vaxtını göstərən qeydlə müraciət etmiş şəxsin tələbi ilə həmin şəxsə qaytarılır.

2.10. Qurumun təsis olunması, yenidən təşkili və ləğvi barədə rəy verilməsi üçün onun təsisçiləri Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Aparatına yazılı məktubla müraciət edirlər. Təsis olunacaq Qurumun təsisçiləri müraciətdə qurumda fəaliyyət göstərən vəkillər barədə, Qurumun yerləşdiyi yer barədə məlumat verməlidirlər. Müraciət Aparata daxil olduqdan sonra Vəkillər Kollegiyası Rəyasət Heyəti tərəfindən həmin müraciət araşdırılır. Araşdırma zamanı qurum yaracanaq rayonda (şəhər) tələbatı, əraziyə, maddi-texniki bazaya (o cümlədən sənədlərin saxlanılması üçün dəmir seyf və ya dəmir şkaflar olan) və peşəkar hüquqi yardım göstərilməsi üçün tələb olunan bütün göstəricilərin mövcudluğuna diqqət yetirilməlidir. Müsbət mülahizə (rəy) verildikdən sonra təsisçilər bu Qaydaların tələblərinə riayət etməklə təsis işlərini başlayırlar. Mənfi mülahizə (rəy) verildikdə mövcud pozuntular aradan qaldırıldıqdansonra
təsisçilər tərəfindən yenidən Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Aparatına müraciət edilə bilər.

2.11. Qurum dövlət qeydiyyatına alındığı gündən təsis olunmuş hesab olunur. Qurumun dövlət qeydiyyatı və onun fəaliyyətinə xitam verilməsinə dair qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edilməsi "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.
2.12. Qurumun girişində bu Qaydaların 1 nömrəli əlavəsindəki nümunələrəuyğun olaraq lövhələr hazırlanıb yerləşdirilir.

III. QURUMUN FƏALİYYƏTİ

3.1. Təsis müqaviləsinin və Qurumun nizamnaməsinin tələbləri, Qurumun özü və onun üzvləri üçün məcburidir.
3.2. Qurum hüquqi şəxs hesab olunur, onun müstəqil balansı, möhürü, ştampı və Qurumun adını, ünvanını əks etdirən blankı olur. Qurum Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq banklarda bank hesabı açır. Möhür və ştampın nümunələri bu Qaydaların 2 saylı Əlavəsi ilə müəyyən olunmuşdur.
3.3. Qurumun üzvləri tərəfindən qurumya verilən əmlak xüsusi mülkiyyət hüququ ilə qurumya məxsusdur.
3.4. Qurumun üzvləri onun öhdəliklərinə görə, qurum isə öz üzvlərinin öhdəliklərinə görə məsuliyyət daşımır.
3.5. Qurum Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq onun üzvləri olan vəkillərin vəkillik fəaliyyətindən əldə etdiyi gəlirlər üzrə vergi agentidir, həmçinin üçüncü şəxslərlə etibar edənlərlə hesablaşmalarda Qurumun təsis sənədində nəzərdə tutulmuş digər məsələlər üzrə onların nümayəndəsidir.
3.6. Qurumun tərkibinin dəyişdirilməsi, yəni qurumya yeni üzvlərin qəbulu və qurum üzvlərinin üzvlükdən xaric edilməsi Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin rəyi əsasında təsisçilərin ümumi yığıncağının qərarı ilə həyata keçirilir.
3.7. Hüquqi yardım göstərilməsinə dair müqavilə hüquqi yardım üçün müraciət etmiş (etibar edən) şəxs vəkil və qurum arasında bağlanılmaqla, Qurumun sənədləşməsində qeydə alınır. 3.8. Qurumun fəaliyyəti ilə bağlı bu Qaydalarda nəzərdə tutulmayan məsələlər -"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Nizamnaməsi", Vəkillər Kollegiyası Rəyasət Heyətinin müvafiq qərarları və Qurumun nizamnaməsi ilə tənzimlənir.

IV. DİGƏR MƏSƏLƏLƏR

4.1.Bu Qaydaların müddəalarına heç bir halda etibar edənin tapşırıqlarının icrasında vəkilin müstəqilliyinin, həmçinin onun etibar edən qarşısında peşə məsuliyyətinin məhdudlaşdırılması kimi baxıla bilməz.
4.2. Qurum kommersiya və ya digər kommersiya təşkilatına çevrilə bilməz.
4.3.Qurum Azərbaycan Respublikası ərazisi daxilində, Qurumun yerləşdiyi inzibati ərazidən kənarda olmamaq şərtilə vəkil kabineti, həmçinin bu xarici dövlətin qanunvericiliyində nəzərdə tutulduğu halda xarici dövlətin ərazisində filiallarını yarada bilər.
4.4.Vəkil kabineti və ya filialların yaradılması və ləğv edilməsi ilə bağlı Qurumun müdiri Vəkillər Kollegiyasının Rəyasət Heyətinə yazılı müraciət ünvanlayır. Müraciətdə vəkil kabinetinin və ya filialının yaradılması məqsədi, əsasları vəkillik fəaliyyətini həyata keçirəcək vəkillər barədə məlumatlar, Qurumun yerləşdiyi yer barədə, Vəkillər Kollegiyası ilə qurum arasında telefon, teleqraf, poçt və ya digər əlaqələrin həyata keçirilmə qaydaları barədə məlumatlar öz əksini tapmalıdır. Müraciətə Qurumun vəkil kabineti və ya filialının yaradılmasına dair qurum təsisçilərinin qərarı, vəkil kabinetinin və ya filialının Əsasnaməsi əlavə olunur. Vəkillər Kollegiyasının Rəyasət Heyəti məsələni araşdırır, müraciətdə qaldırılan məsələ tələblərə cavab verdiyi halda ona müraciətə müsbət rəy verir.
4.5.Qurumun filialı Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin filialın yaradılmasına dair müvafiq qərarı ilə yaranmış hesab olunur.
4.6. Qaydalar yalnız Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin qərarı ilə qəbul oluna, dəyişdirilə və ləğv oluna bilər.

AZƏRBAYCAN RESPUBLİKASININ
VƏKİLLƏR KOLLEGİYASI

BAKI ŞƏHƏRİ
1 SAYLI VƏKİLBÜROSU

Telefon: +994 12 598 23 58
Faks: +994 12 598 23 57
E-mail: office.1@barassociation.az

BAR ASSOCIATION OF
THE REPUBLIC OF AZERBAIJAN

LAW OFFICE NO1
OF BAKU CITY

Phone: +994 12 598 23 58
Fax: +994 12 598 23 57
E-mail: office.1@barassociation.az

BAKI ŞƏHƏRİ 1 SAYLI VƏKİL BÜROSU

Qeyd: *mətnlər ağ parlaq plastmas üzərində parlaq qara hərflərlə*

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 29 oktyabr 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş **"Vəkil qurumlarının təşkili və fəaliyyəti haqqında" qaydalara**

SAYLI ƏLAVƏ

Möhür nümunəsi

Ştamp nümunəsi

VƏKİLLƏR KOLLEGİYASI ÜZVLÜYÜNƏ QƏBULLA BAĞLI İXTİSAS İMTAHANLARININ KEÇİRİLMƏSİ QAYDALARI

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 7 iyul 2008-ci il tarixli Qərarı ilə təsdiq edilmişdir.

1. ÜMUMİ MÜDDƏALAR

1.1. Bu Qaydalar "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Nizamnaməsinə uyğun olaraq hazırlanmışdır. 1.2. Qaydalar, qanunvericiliyin tələblərinə cavab verən namizədlərin vəkilliyə qəbulu qaydalarını müəyyən edir.

2. VƏKİLLƏRİN İXTİSAS KOMİSSİYASI

2.1. İxtisas imtahanları Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən müəyyən edilmiş qaydada Vəkillərin İxtisas Komissiyası (bundan sonra - Komissiya) tərəfindən keçirilir. Komissiyanın tərkibi beş vəkil, üç hakim və üç hüquqşünas alimdən ibarət olmaqla, onun vəkil olan üzvləri Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti, hakim olan üzvləri Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu, hüquqşünas alim olan üzvləri isə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən təyin edilir.

2.2. Hər hansı şəxs tərəfindən bilavasitə, yaxud dolayısı yolla Komissiyanın işinə təsir göstərilməsi və müdaxilə edilməsi yolverilməzdir.

2.3. Komissiyanın iclasları Komissiyanın sədri tərəfindən çağırılır. İclasın vaxtı, yeri və müzakirəyə çıxarılan məsələlər barədə Komissiya üzvlərinə Komissiyanın sədri tərəfindən ən azı bir gün qabaq məlumat verilir.

2.4. Komissiyanın üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Komissiyanın iclası səlahiyyəti sayılır. Qərarlar açıq səsvermə yolu ilə sadə səs çoxluğu əsasında qəbul edilir. İclasın protokolu Komissiyasının sədri və iclası aparan katib tərəfindən imzalanır. Qəbul edilmiş rəy Komissiyanın üzvləri tərəfindən imzalanır.

3. SƏNƏDLƏRİN QƏBULU

3.1. Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti vəkilliyə namizədlərin ərizələrinin qəbulunun başlanma tarixini və müddətini, bu şəxslər tərəfindən təqdim edilməli olan sənədlərin siyahısını dərc edir.

Vəkil olmaq arzusunda olan, "Vəkillər və vəkillik fəaliyyəti" haqqında Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin tələblərinə cavab verən şəxslər tərəfindən müsabiqədə iştirak etmək üçün bu Qaydalarla müəyyən edilmiş formada (elektron və ya kağız daşıyıcılar vasitəsilə) müraciət oluna bilər (Əlavə №1).

3.2. İxtisas imtahanının yazılı test mərhələsini müvəffəqiyyətlə verən və şifahi müsahibədə iştirak etmək arzusunda olan vəkilliyə namizədlər Vəkillər Kollegiyasının Rəyasət Heyətinə aşağıdakı sənədləri təqdim edirlər:

3.2.1. Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədrinin adına ərizə;

3.2.2. şəxsiyyət vəsiqəsi və onun surəti (notarial qaydada təsdiq edilmiş);

3.2.3. kadrların şəxsi uçot vərəqəsi;

3.2.4. tərcümeyi-hal;

3.2.5. ali təhsil haqqında sənəd (diplom) və onun surəti (notarial qaydada təsdiq edilmiş); 3.2.6. əmək kitabçasının notarial qaydada və yaxud kadrlar şöbəsində təsdiq edilmiş surəti; 3.2.7. əqli cəhətdən sağlamlıq barədə tibbi arayış;

3.2.8. 3x4 ölçüdə 4 ədəd rəngli fotoşəkil.

3.3. Ərizələrin qəbulu müddəti başa çatdıqdan sonra təqdim olunan sənədlər qəbul edilmir. 3.4. Sənədlərin qəbulunu Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən yaradılmış Komissiya həyata

keçirir.

3.5. Komissiya sənədlərin tamlığını, düzgünlüyünü və qanunvericiliklə müəyyən edilmiş şərtlərə uyğunluğunu yoxlayır və sənədləri ərizələrin qəbulu jurnalında qeydiyyata alır.

3.6. Natamam və ya bu Qaydalara uyğun olmayan sənədlər qəbul edilmir və ərizəçiyə aşkar olunmuş çatışmazlıqlar izah olunur. Qəbul edilmiş sənədlərdə sonradan uyğunsuzluq aşkarlanarsa, həmin sənədlər geri qaytarılır. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra sənədlər ərizələrin qəbulu üçün müəyyən edilmiş müddət çərçivəsində yenidən təqdim edilə bilər.

3.7. Təqdim edilmiş sənədlər bu Qaydaların tələblərinə uyğun olduqda, namizəd ümumi siyahıya alınır.

4. YAZILI (TEST) İMTAHANIN KEÇİRİLMƏSİ

4.1. Yazılı test imtahanı Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilmiş tələblərə uyğun olaraq hazırlanır və keçirilir.

4.2. Namizədlər "İmtahana buraxılış vərəqəsi"ni və şəxsiyyət vəsiqəsini mütləq imtahana gətirməlidirlər.

4.3. Yazılı imtahan qabaqcadan təyin olunmuş tarixdə Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir.

4.4. İmtahanların şəffaflığının təmin edilməsi məqsədilə Vəkillər Kollegiyasının Rəyasət Heyəti beynəlxalq, habelə hökumət və qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələrini imtahanları müşahidə etməyə dəvət edir. Dəvət olunmuş və ya imtahanları müşahidə etmək təşəbbüsü ilə müraciət etmiş təşkilatlar və kütləvi informasiya vasitələri öz nümayəndələrinin siyahılarını yazılı imtahana ən geci 7 gün qalmış Rəyasət Heyətinə təqdim etməlidirlər. Təqdim edilmiş nümayəndələr Rəyasət Heyəti tərəfindən akkreditə olunurlar.

4.5. Müşahidəçilər tərəfindən imtahanın gedişinə müdaxilə edilməsi, habelə namizədlərin fikrinin yayındırılması və onların imtahan prosesindən ayrılması yol verilməzdir.

4.6. Yazılı imtahanın sual vərəqəsi 100 sualdan ibarət olur və imtahan 3 saat müddətində keçirilir. 4.7. Cavab kartlarının yoxlanılmasını Dövlət İmtahan Mərkəzi həyata keçirir.

4.8. Hər bir imtahan sualına düzgün cavab 1 (bir) balla qiymətləndirilir (cəmi 100 mümkün bal). Səhv cavablar və ya sualın cavabsız qoyulması "0" bala bərabər tutulur.

4.9. Yazılı imtahanın yekununa görə 60 (altmış) və ya daha çox bal toplamış namizədlər imtahanın ikinci mərhələsinə - şifahi müsahibəyə buraxılırlar.

5. ŞİFAHİ MÜSAHİBƏNİN KEÇİRİLMƏSİ

5.1. Yazılı test imtahanından keçid balı toplamış namizədlərin peşə yararlığını müəyyən etmək məqsədi ilə onlarla şifahi müsahibə keçirilir.

5.2. Müsahibənin keçiriləcəyi yeri və vaxtı barədə naməzədlərə qabaqcadan məlumat verilir.

5.3. Hər bir naməzədlə müsahibə fərdi qaydada 30 dəqiqəyədək aparılır. Namizədlərə şifahi müsahibə zamanı hüquq sahəsinə aid, habelə namizədlərin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi dünyagörüşünü və bilik səviyyəsini müəyyən edən suallar, o cümlədən də hazırkı və ya əvvəlki iş fəaliyyəti ilə bağlı suallar verilə bilər.

5.4. Komissiya üzvləri arasında müsahibə ilə əlaqədar fikir mübadiləsi aparıldıqdan sonra müsahibənin nəticəsi ilə bağlı namizədin cavabları "məqbul" və ya "qeyri-məqbul" kimi qiymətləndirilir və bu barədə protokolda müvafiq qeyd aparılır. Müsahibənin nəticəsində cavablar "qeyri-məqbul" qiymətləndirilən namizədə Vəkillər Kollegiyasının üzvlüyünə qəbul edilməsi üçün rəy verilmir.

5.5. Şifahi müsahibə mərhələsində müşahidəçilərin iştirakı məsələləri bu Qaydaların 4.4 və 4.5-ci bəndləri ilə tənzimlənir.

5.6. Komissiyanın qərarı ilə şifahi müsahibə videokonfrans formatında keçirilə bilər.

6. MÜSAHİBƏNİN YEKUNLAŞDIRILMASI

6.1. Şifahi müsahibənin nəticələri, bir qayda olaraq, hər gün sonuncu namizədlə müsahibə başa çatdıqdan sonra elan edilir. Komissiyanın qərarı ilə şifahi müsahibənin nəticələrinin elan edilməsinin

digər dövriliyi də müəyyən edilə bilər.

6.2. Vəkillər Kollegiyasının Rəyasət Heyəti müsahibənin keçirildiyi gündən 1 (bir) il müddətində onun nəticələri üzrə müvafiq sənədlərin saxlanılmasını təmin edir.

6.3. Komissiya müsahibədə cavabları "məqbul" qiymətləndirilən namizədlərin vəkil peşəsinə yararlılığını müəyyən etdikdə, bu barədə yazılı rəy tərtib edilir və həmin rəy Komissiyanın sədri tərəfindən Vəkillər Kollegiyasının Rəyasət Heyətinə təqdim edilir. Komissiyanın rəyi ilə cavabları "məqbul" qiymətləndirilən namizədlər Ədliyyə Nazirliyinin tədris-elm müəssisəsində icbari təlimə buraxılırlar. Vəkillər Kollegiyasının Rəyasət Heyəti ilə Ədliyyə Nazirliyinin tədris-elm müəssisəsinin birgə müəyyənləşdiridiyi iki hüquqşünas alim tərəfindən vəkilliyə namizədlərin icbari təlimin yekunu üzrə bilikləri qiymətləndirilir. Biliklərin qiymətləndirilməsi icbari təlim ərzində keçirilmiş mövzular üzrə həyata keçirilir.

6.4. Namizədin peşə yararlılığına dair Komissiyanın rəyi Vəkillər Kollegiyasının Rəyasət Heyətinətəqdim edildikdən və icbari təlimdən müvəffəqiyyətlə keçdikdən sonra, namizədin vəkil statusunu əldəetməsini istisna edən hallar aşkar edilmədikdə, Vəkillər Kollegiyasının Rəyasət Heyəti namizədin Vəkillər Kollegiyasının üzvlüyünə qəbul edilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsini təmin edir.

6.5. Müsahibənin nəticələrinə dair Komissiyanın qərarından narazı olan namizədlər qərarın elan olunduğu gündən 5 (beş) gün müddətində Vəkillər Kollegiyasının Rəyasət Heyətinə şikayət verə bilərlər. Həmin şikayətə Rəyasət Heyətinin iclasında baxılır və sonuncuya müvafiq cavab verilir.

6.6. İcbari təlim mərhələsini müvəffəqiyyətlə keçmiş dövlət qulluğunda olan vəkilliyə namizəd özünün müraciəti əsasında Vəkillər Kollegiyası Rəyasət Heyətinin müəyyən etdiyi müddətdən gec olmamaqla dövlət qulluğundan azad olunaraq vəkil andını içir. Vəkillər Kollegiyası Rəyasət Heyətinin müəyyən etdiyi müddət ərzində and içməyən vəkilliyə namizədin imtahanının nəticələri Rəyasət Heyətinin qərarı ilə ləğv olunur.

Azərbaycan Respublikası
Vəkillər Kollegiyası
Rəyasət Heyətinin
28 iyun 2019-cu il tarixli
qərarı ilə təsdiq edilmişdir.

Hüquqi yardım göstərilən şəxs tərəfindən vəkilə ödənilməli olan xidmət haqqının nağdsız formada ödənilməsi barədə

Q A Y D A L A R

I.Ümumi müddəalar

1.1. "Hüquqi yardım göstərilən şəxs tərəfindən vəkilə ödənilməli olan xidmət haqqının nağdsız formada ödənilməsi barədə Qaydalar" (bundan sonra – bu Qaydalar) vəkilə müştəri tərəfindən ödənilməli olan xidmət haqqının nağdsız qaydada ödənilməsi ilə bağlı məsələləri tənzimləyir.

1.2. Bu Qaydaların **məqsədi** "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 604 nömrəli Fərmanına uyğun olaraq vəkillik fəaliyyəti sahəsində şəffaflığın daha da artırılmasından ibarətdir.

1.3. Bu Qaydalar "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası Vergi Məcəlləsinin, "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində POS-terminalların quraşdırılması, istifadəsi və tətbiqi Qaydaları"nın, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2012-ci il 10 iyul tarixli 16/3 nömrəli qərarı ilə təsdiq edilmiş "Ödəniş kartlarının emissiyası və istifadə Qaydaları"nın, Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2013-ci il 17 sentyabr tarixli 19/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat"ın və digər hüquqi aktların tələbləri nəzərə alınmaqla hazırlanmışdır.

1.4. Bu Qaydalarda istifadə olunan anlayışlar aşağıdakı mənanı ifadə edir:

1.4.1. Müştəri – vəkil ilə "Hüquqi yardımın göstərilməsi haqqında Müqavilə"ni imzalayan hüquqi yardım göstərilən şəxs və ya müraciət edən şəxsdir;

1.4.2. Bank – "Banklar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq fəaliyyət göstərən və vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin bank hesabının olduğu bankdır;

1.4.3. POS-terminal – ödəniş kartı vasitəsilə əməliyyatların aparılması üçün nəzərdə tutulmuş avadanlıqdır;

1.4.4. Nağdsız hesablaşma - ödəniş terminalları ilə və ya birbaşa nağd qaydada, habelə bir şəxsin bank hesabından vəkil qurumunun, habelə fərdi qaydada fəaliyyət göstərən vəkilin bank hesabına köçürülməklə həyata keçirilən hesablaşmadır;

1.4.5. Ödəniş kartı - nağdsız ödənişlərin aparılması üçün istifadə edilən ödəniş alətidir;

1.4.6. Xidmət haqqı - "Hüquqi yardımın göstərilməsi haqqında Müqavilə" ilə müəyyən edilmiş və vəkilə ödənilməli olan qonorarın məbləğidir;

1.4.7. Müqavilə - "Hüquqi yardımın göstərilməsi haqqında Müqavilə"dir.

1.4.8. Vəkil ofisi – vəkil qurumunun fəaliyyət göstərdiyi inzibati bina (qeyri-yaşayış sahəsi) və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin yerləşdiyi yerdir (bina, qeyri-yaşayış sahəsi və s).

II.Müştəri ilə vəkil qurumu və vəkil arasındakı münasibətlər və ödənişlərin aparılması

2.1. Müştəri ilə vəkil qurumu və vəkil arasındakı münasibətlər yalnız müqaviləyə əsaslanır. Müştəri kateqoriyasına fiziki və hüquqi şəxslər, dövlət orqanları, idarə və təşkilatlar (müəssisələr) və müqavilə bağlamaq qabiliyyətinə (imkanına) malik olan digər şəxslər daxildir.

2.2. Vəkil tərəfindən göstərilən hüquqi yardımın haqqının ödənilməsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada tərəflər arasında bağlanmış müqavilə əsasında həyata keçirilir.

2.3. Vəkillik fəaliyyəti ilə məşğul olmaq üçün yaradılmış qurumun əməkdaşı olan vəkilin və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin qonorarının məbləği vəkilin yardımından istifadə edən şəxs və onu vəkil yardımı ilə təmin edən qurum və ya fərdi qaydada fəaliyyət göstərən vəkil arasında bağlanmış, göstərilən yardımın və qonoraın məbləğini və şərtlərini əks etdirən müqavilə əsasında ödənilməlidir.

2.4. Hüquqi yardımın göstərilməsinə görə ödənilən xidmət haqqının məbləğinin təyin edilməsi bu yardımı göstərən tərəfin müstəsna hüququdur və yalnız tərəflərin razılığı ilə tənzimlənir.

2.5. Müştəri vəkil qurumunda müvafiq qaydada vəkil qurumu və vəkillə və ya fərdi qaydada fəaliyyət göstərən vəkillə müqavilə bağladıqda, müqavilədə göstərilən xidmət haqqını müştəri nağdsız hesablaşma qaydasında və öz istəyindən asılı olaraq aşağıdakı formalardan biri vasitəsilə ödəyə bilər:

2.5.1. Vəkil qurumunda və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin ofisində mövcud olan POS-terminal vasitəsilə ödəniş kartı ilə;

2.5.2. Vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin bank hesabına ödəniş edilməsi yolu ilə;

2.5.3. Digər ödəniş sistemi vasitəsilə.

2.6. Müştəri POS-terminal vasitəsilə xidmət haqqını ödəmək istədikdə, müştəri tərəfindən ödəniş kartı vasitəsilə edilən ödənişlə əlaqədar ona həmin avadanlığın çap etdiyi ödəniş qəbzinin (məcburi rekvizitləri əks etdirən qəbzin) bir nüsxəsi verilir. POS-terminal vasitəsilə verilən qəbzin digər nüsxəsi müqaviləyə əlavə edilib saxlanılır. Həmin qəbzin nüsxəsi müştəri tərəfindən imzalanmalı və üzərinə müştəri tərəfindən onun adı, soyadı və ata adı yazılmalıdır.

2.7. Ödəniş qəbzi müştərinin müqavilədə göstərilən məbləğin onun tərəfindən ödənilməsini təsdiq edən sənəddir.

2.8. Müştəri bank vasitəsilə xidmət haqqını ödəmək istədikdə, müştəri tərəfindən xidmət haqqının banka ödənildiyini təsdiq edən mədaxil qəbzi (ödəniş sənədi) vəkil qurumuna və ya vəkilə təqdim edilir. Mədaxil qəbzinin (ödəniş sənədinin) surəti müqaviləyə əlavə edilib saxlanılır. Müştəri mədaxil qəbzinin əslini bilavasitə vəkil qurumunun müvafiq vəzifəli şəxsinə və vəkilə göstərməlidir. Bankın müştəriyə təqdim etdiyi mədaxil qəbzi (ödəniş sənədi) müştərinin müqavilədə göstərilən məbləğin (qonoraın) onun tərəfindən ödənilməsini təsdiq edən sənəddir.

2.9. Müştəri digər ödəniş sistemi vasitəsilə xidmət haqqını ödəmək istədikdə, müştəri tərəfindən xidmət haqqının həmin sistem vasitəsilə ödənildiyini təsdiq edən qəbzi (ödəniş sənədini) vəkil qurumuna və ya vəkilə təqdim edilir. Ödəniş sənədinin surəti müqaviləyə əlavə edilib saxlanılır. Müştəri ödəniş sənədinin əslini (əsli olmadıqda surətini) bilavasitə vəkil qurumunun müvafiq vəzifəli şəxsinə və vəkilə göstərməlidir. Ödəniş sənədi müştərinin müqavilədə göstərilən məbləğin (qonoraın) onun tərəfindən ödənilməsini təsdiq edən sənəddir.

III. Vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin nağdsız hesablaşmalarla bağlı tədbirləri

3.1. Bu Qaydaların 3.2-ci bəndi nəzərə alınmaqla, vəkil qurumu və ya fərdi qaydada fəaliyyət göstərən vəkil müştərinin nağdsız hesablaşma yolu ilə müqavilə üzrə xidmət haqqını ödəməsi üçün, müştəri məmnunluğunun təmin edilməsi məqsədilə aşağıdakı tədbirləri həyata keçirir:

3.1.1. Vəkil ofisində POS-terminal(lar)ın quraşdırılmasını və onun işlək vəziyyətdə saxlanılmasını təmin edir;

3.1.2. Xidmət haqqını birbaşa bankda yerləşən hesaba ödəmək istəyən müştəriyə bankın yeri, ünvanı, bank rekvizitləri barədə ətraflı məlumatın verilməsini təmin edir;

3.1.3. Nağdsız hesablaşmanın mahiyyəti barədə müştərini məlumatlandırır, xidmət haqqının geri qaytarılması halı barədə mövcud tutulmalarla bağlı müştəriyə məlumat verir;

3.1.4. Ödəniş sənədlərinin (qəbzlərin, mədaxil qəbzlərinin) saxlanılmasını təmin edir.

3.2. Hər bir halda vəkil qurumu və fərdi qaydada fəaliyyət göstərən vəkil bu Qaydaların 2.5-ci bəndində göstərilən formalardan biri vasitəsilə vəkil qurumuna və fərdi qaydada fəaliyyət göstərən vəkilə ödənilməli olan xidmət haqqının nağdsız qaydada aparılmasına nail olmalıdır.

3.3. Vəkil qurumu, onun digər vəzifəli şəxsi, həmin qurumun vəkili və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən müştəridən xidmət haqqı nağd qaydada qəbul edilmir.

IV.Digər məsələlər

4.1. POS-terminal və digər ödəniş sistemi vasitəsilə nağdsız əməliyyatların aparılması məsələləri vəkil qurumu və ya fərdi qaydada fəaliyyət göstərən vəkil ilə POS-terminalın və digər ödəniş sisteminin aid olduğu bank (müəssisə) arasında bağlanan müqavilə ilə tənzimlənir.

4.2. Bu Qaydaların 4.1-ci bəndində nəzərdə tutulan müqavilə bağlanarkən, banka (müəssisəyə) aid olan xidmət haqqı (tutulmalar) üzrə ən aşağı tutulma şərtlərinin dairəsi nəzərə alınmalı, bu xidməti sərfəli şərtlərlə təklif edən banka (müəssisəyə) üstünlük verilməlidir.

4.3. Bu Qaydalarda nəzərdə tutulmayan məsələlər digər hüquqi aktlarla tənzimlənir.

4.4. Bu Qaydalar 01 oktyabr 2019-cu il tarixdən etibarən tətbiq olunur.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 19.04.2019-cu il tarixli Qərarı ilə təsdiq edilmişdir

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvlərinin, vəkil köməkçilərinin, Rəyasət Heyətinin aparatının və vəkil bürolarının işçilərinin şəxsi işinin aparılması və saxlanılması

Q A Y D A L A R I

I. ÜMUMİ MÜDDƏALAR

1. Vəkillər Kollegiyasının üzvlərinin, vəkil köməkçilərinin, Rəyasət Heyətinin aparatının və vəkil bürolarının işçilərinin (bundan sonra müvafiq olaraq vəkil və işçi) fərdi məlumatlarının toplanması, işlənilməsi, saxlanılması, istifadə edilməsi və onların əsasında şəxsi işin tərtibi qaydalarını müəyyən edən bu Qaydalar «Vəkillik və vəkillik fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununa və Vəkillər Kollegiyasının Nizamnaməsinin 5.3-cü maddəsinə müvafiq olaraq hazırlanmışdır.

2. Vəkilin və işçinin fərdi məlumatları onun şəxsi və iş keyfiyyətlərinə aid olan, şəxsi və ailə həyatının sirrini təşkil etməyən məlumatlardan ibarət olmaqla, onun şəxsiyyətini identifikasiya etməyə imkan verən, xidməti fəaliyyətində, yaxud həyatında baş vermiş və bu Qaydalara əsasən onun şəxsi işinə daxil edilməli olan hadisələr haqqında informasiyanı əhatə edir.

3. Vəkilin və işçinin fərdi məlumatlarının işlənilməsi, şəxsi işinin tərtib olunması və aparılması onun xidməti fəaliyyətinin obyektiv qiymətləndirilməsi, potensial imkanlarının səmərəli istifadəsi və vəzifə borclarını yerinə yetirməsi zamanı qazandığı nəticələrin uçotunun aparılması məqsədilə həyata keçirilir.

4. Vəkilin və işçinin işlədiyi dövr ərzində yalnız bir şəxsi işi tərtib edilir və aparılır.

5. Vəkilin və işçinin şəxsi işində onun vəkilliyə və ya işə qəbulu, fəaliyyəti dövrü, fəaliyyətinə xitam verilməsi haqqında məlumatlar, şəxsi və iş keyfiyyətlərini əks etdirən sənədlər saxlanılır.

6. Şəxsi işin tərtib edilməsinə əsas şəxsin vəkilliyə qəbulla bağlı and içməsi, işçi ilə müvafiq əmək müqaviləsinin bağlanmasıdır.

7. Vəkillərin və Vəkillər Kollegiyası aparatının işçilərinin şəxsi işləri Vəkillər Kollegiyasının kadr xidməti, büro vəkillərinin köməkçilərinin və orada çalışan əməkdaşların şəxsi işləri büro rəhbərliyi, fərdi vəkillərin köməkçilərinin şəxsi işləri isə həmin fərdi vəkillər tərəfindən aparılır. Şəxsi işi saxlayan qurum və ya şəxs işçinin şəxsi işində olan məlumatların mühafizəsini, onlardan qeyri-qanuni istifadəyə yol verilməməsini təmin edir.

8. Vəkilin və işçinin fərdi məlumatları şəxsən özündən alınır. Bu məlumatlar qanunvericiliyə uyğun olaraq digər mənbələrdən də alına bilər.

9. Vəkil və işçi tərəfindən şəxsi həyatındakı, o cümlədən vəkilliyə və işçi olmağa namizədlər üçün qanunvericiliklə müəyyən edilmiş tələblərə dair, həmçinin digər zəruri məlumatlar dəyişikliklərin aparılması üçün müvafiq olaraq kadr xidmətinə, büro rəhbərliyinə və fərdi vəkilə bildirilməlidir.

10. Vəkilin və işçinin şəxsi işində saxlanılan fərdi məlumatların mühafizəsi ilə əlaqədar aşağıdakı hüquqları vardır:

10.1. öz fərdi məlumatları və bu məlumatların işlənməsi barədə informasiya almaq;

10.2. qanunvericiliklə nəzərdə tutulan hallar istisna edilməklə, öz fərdi məlumatları ilə tanış olmaq və onların surətini əldə etmək;

10.3. dürüst və tam olmayan fərdi məlumatların, habelə qanunvericiliyin pozulması yolu ilə işlənmiş məlumatların şəxsi işindən çıxarılmasını və ya onlara müvafiq düzəlişin edilməsini və qiymətləndirmə xarakterli fərdi məlumatlara dair mövqeyini əks etdirən qeydinin şəxsi işinə əlavə edilməsini tələb etmək;

10.4. əvvəllər vəkil və işçi barəsində dürüst və tam olmayan fərdi məlumatları vermiş bütün şəxslərə onun şəxsi işində dəyişdirilmiş və ya düzəliş edilmiş məlumatlar barədə bildiriş göndərilməsini tələb etmək;

10.5. fərdi məlumatların işlənilməsi və mühafizəsi ilə bağlı qeyri-qanuni hərəkətdən və ya hərəkətsizlikdən qanunvericiliklə müəyyən edilmiş qaydada şikayət etmək.

11. Vəkilin və işçinin şəxsi işinə daxil edilmiş məlumatlar (qanunla müəyyən edilmiş hallarda kütləvi informasiya vasitələrində dərc edilə biləcək məlumatlar istisna olmaqla) istifadəsi məhdudlaşdırılan məlumatlar hesab edilir.

II. ŞƏXSİ İŞİN TƏRTİB EDİLMƏSİ VƏ APARILMASI QAYDALARI

12. Vəkilin və işçinin şəxsi işi kağız formasında, bir qayda olaraq iki, vəkil Kollegiyanın Rəyasət Heyətinin aparatına işə qəbul olunduğu halda isə üç hissədən ibarət tərtib edilir. Şəxsi işlərin elektron variantı da aparıla bilər. Sənədlər şəxsi işə aidiyyəti hissələrə ardıcıl tikilir və səhifələnir. Hər bir hissənin əvvəlinə bu hissədə saxlanılan sənədlərin siyahısına dair vərəq (1 nömrəli Əlavə) tikilir.

13. vəkilin və ya işçinin şəxsi işinin **birinci hissəsinə** aşağıdakı sənədlər tikilir:

13.1. kadrlar uçotunun şəxsi vərəqəsi (2 nömrəli Əlavə);

13.2. tərcümeyi hal (3 nömrəli Əlavə);

13.3. vəkilliyə, vəkil köməkçiliyinə və ya aparata işə qəbul haqqında ərizə;

13.4. vəkilliyə və ya işə qəbulla bağlı müsabiqənin nəticəsinə dair sənədlər;

13.5. təhsili haqqında rəsmi sənədlərin surəti, əlavə təhsili, elmi dərəcə və elmi adların verilməsi haqqında rəsmi sənədlərin surəti (belə sənədlər mövcuddursa);

13.5. dövlət təltiflərinin, fəxri adların və dövlət mükafatlarının verilməsini təsdiq edən rəsmi sənədlərin surəti;

13.6. seçkili orqanların işində iştirakı haqqında məlumatlar;

13.7. vəkillər üçün tərtib edilən şəxsi işdə onun imzaladığı vəkil andı.

13.8. şəxsiyyət vəsiqəsinin surəti;

13.9. əmək kitabçasının və hərbi xidmət keçməsini təsdiq edən sənədlərin surəti;

13.10. icbari sosial sığortalanma haqqında şəhadətnamənin surəti;

13.11. sağlamlıq haqqında arayış;

13.12. vəkil və ya işçi şəxsi işi ilə tanış olduqdan sonra yazılı izahatları olduqda, həmin sənədlər;

13.13. Rəyasət heyətinin sədrinin göstərişinə əsasən kadr uçotu sahəsinə aid vacib sənədlərin və qanunvericiliklə nəzərdə tutulan digər sənədlərin surətləri.

14. Vəkilin və işçinin şəxsi işinin **ikinci hissəsinə** aşağıdakı sənədlər tikilir:

14.1. vəkilliyə və ya işə qəbul barədə sənədlər (qərar, əmr), vəkilin digər büroya və ya fərdi vəkilliyə keçirilməsi, işçinin iş yerinin dəyişdirilməsi barədə sənədlərin surəti;

14.2. işçinin əmək müqaviləsinin (kontraktın) əsli, habelə əmək müqaviləsinə (kontrakta) əlavələr və dəyişikliklər edilməsi haqqında sənədlərin əsli;

14.3. vəkilin digər işə götürənlə (Vəkillər Kollegiyası Rəyasət Heyətinin aparatına işə qəbuldan başqa) bağladığı əmək müqaviləsinin (kontraktın), habelə əmək müqaviləsinə (kontrakta) vəkillik fəaliyyətinə aid ola biləcək əlavələr və dəyişikliklər edilməsi haqqında sənədlərin əsli, həmin işə götürən tərəfindən və ya notarial qaydada təsdiq olunmuş surəti;

14.4. vəkilin vəkillik fəaliyyətinin dayandırılması, fəaliyyətinə xitam verilməsi, işçinin əmək münasibətlərinə xitam verilməsi haqqında sənədlərin surəti;

14.4. işçinin attestasiyası və ya fəaliyyətinin qiymətləndirilməsinin nəticələri barədə sənədlər, barəsində tərtib edilmiş xasiyyətnamə;

14.6. vəkilə və ya işçiyə intizam tənbehi tədbirlərinin tətbiq edilməsi ilə bağlı sənədlərin təsdiq olunmuş surəti;

14.7. vəkil və ya işçi barəsində aparılmış araşdırmanın başlanması və onun nəticəsi barədə sənədlər;

15. Vəkil Rəyasət Heyətinin aparatına işə qəbul olunduqda əmək münasibətlərinə dair sənədlər **üçüncü hissədə** tikilir. Rəyasət Heyətinin aparatında işləyən işçi vəkilliyə qəbul olunduqda da eyni qayda tətbiq olunur. Belə halda şəxsi iş əsas iş yeri kimi aparat işçilərinin şəxsi işlərinin siyahısında olmaqla saxlanılır, vəkillərin şəxsi işlərinin qeydiyyatı kitabında bu barədə qeyd aparılır.

16. Vəkil bürolarının əməkdaşları və ya vəkil köməkçisi vəkilliyə və ya Rəyasət Heyətinin aparatına işə qəbul olunarsa onun şəxsi işi davam etdirilməsi üçün Rəyasət Heyətinə, Rəyasət Heyətinin əməkdaşı vəkil bürosuna işə qəbul olunarsa və ya vəkil köməkçisi təyin olunarsa onun şəxsi işi müvafiq olaraq büroya və ya fərdi vəkilə təhvil verilir.

17. Şəxsi işlər bu qayadalara uyğun olaraq tərtib edilməklə və saxlanılmaqla vəkillərin və Rəyasət Heyəti aparatının əməkdaşlarının şəxsi işləri Rəyasət Heyətində, vəkil bürolarının vəkil olmayan əməkdaşlarının və büroda fəaliyyət göstərən vəkillərin köməkçilərinin şəxsi işləri həmin qurumlarda, fərdi vəkillərin köməkçilərinin şəxsi işləri isə həmin fərdi vəkillər tərəfindən saxlanılması təmin edilir.

18. Şəxsi iş tərtib edilərkən və şəxsi işlər üzrə kargüzarlıq aparılarkən aşağıdakılara əməl edilir:

18.1. şəxsi işlər onların uçotu kitabında qeydə alınır (4 nömrəli Əlavə). Burada işçinin soyadı, adı, atasının adı, işin nömrəsi və tərtib edilməsi tarixi göstərilir (arxiv şəxsi işlər təzələndikdə yeni uçot nömrəsi verilir).

18.2. kadrlar uçotunun şəxsi vərəqəsi və tərcümeyi-hal hər bir işçi tərəfindən onun həyat və fəaliyyətinin əsas məqamlarını əks etdirmək şərtilə səliqəli və aydın şəkildə doldurulur, sözlərin ixtisarına, qaralamalara və digər pozuntulara yol verilmir;

18.3. kadrlar uçotunun şəxsi vərəqəsi və tərcümeyi-haldakı məlumatlar kadr xidməti tərəfindən şəxsiyyət vəsiqəsi, əmək kitabçası, təhsil haqqında və digər sənədlərdə göstərilən məlumatlarla tutuşdurulur.

19. Şəxsi işə əlavə edildikdən sonra sənədlərə hər hansı düzəliş edilməsi qadağandır.

20. Şəxsi iş və ya işdə olan hər hansı bir sənəd Rəyasət Heyətinin sədrinin, onun müavinlərinin, aparat rəhbərinin və ya kadr xidməti rəhbərinin icazəsi ilə götürülə bilər. Şəxsi işlərin götürülməsinin müvafiq kitabda uçotu aparılır (5 nömrəli Əlavə).

21. Vəkilin fəaliyyətinə və işçinin əmək müqaviləsinə xitam verildikdə şəxsi iş uçot kitabında qeydiyyatdan çıxarılaraq arxivdəki şəxsi işlərin qeydiyyat kitabına (6 nömrəli Əlavə) sıra sayı ilə yazılır (bu say arxiv işinin nömrəsi hesab olunur) və 5 il müddətində saxlanılır. Şəxs yenidən vəkilliyə və ya işə qəbul edildikdə, onun arxiv şəxsi arxivin qeydiyyatından çıxarılır, əsas siyahıya əlavə edilməklə yeni qeydiyyat nömrəsi verilir və şəxsi işin aparılması davam etdirilir.

22. Rəyasət heyətinin aparatında işləyən işçinin vəkillik fəaliyyətinə xitam verilərsə ona bu qaydalara uyğun olaraq yeni şəxsi iş tikilir və vəkillik fəaliyyətinə dair sənədlər arxivləşdirilsə də, həmin şəxsi işə ayrıca əlavə edilməklə saxlanılır. Eyni qaydalar Rəyasət heyətinin aparatında işləyən vəkilin işçi kimi fəaliyyətinə xitam verildikdə də tətbiq olunur.

23. Yaranan zərurətlə əlaqədar kadr məsələlərinin həlli məqsədilə şəxsi işlər yalnız Rəyasət Heyətinin sədrinin və ya onu əvəz edən şəxsin göstərişi ilə digər qrumların rəhbərinə göndərilə bilər.

24. Kadr xidmətinin şəxsi işin aparılması üzrə əsas vəzifələri aşağıdakılardır:

24.1. qeyd olunan sənədlərin bu Qaydaların tələblərinə cavab verməsini yoxlayıb şəxsi işə tikmək;

24.2. şəxsi işləri mühafizə etmək, onları icazəsiz tanış olmaqdan və surətlərinin çıxarılmasından qorumaq üçün müvafiq inzibati və texniki tədbirlər görmək;

24.3. işçini onun müraciəti ilə şəxsi işindəki sənədlərlə tanış etmək;

24.4. qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək.

25. İşçinin fərdi məlumatları digər şəxslərə, qanunvericiliklə nəzərdə tutulan hallar istisna olmaqla, yalnız işçinin yazılı razılığı ilə verilə bilər.

26. İşçinin fərdi məlmumatlarının mühafizəsi rejiminin pozulmasına görə kadr xidməti cavabdehdir.

27. Şəxsi işlər girişi möhürlənən xüsusi otaqda, belə otaq ayrılmadıqda isə qapısı möhürlənən metal şkaflarda saxlanılır.

“Azərbaycan respublikası Vəkillər Kollegiyasının “Qaynar xətt”inə daxil olan şikayətlərə baxılması” Qaydaları

1. Ümumi müddəalar

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Vəkillər Kollegiyasının (bundan sonra Kollegiya) “Qaynar xətt” xidmətinin fəaliyyətinin hüquqi əsaslarını, “Qaynar xətt”ə daxil olan şikayətlərə baxılması qaydasını, bununla əlaqədar struktur bölmələrin və aidiyyəti əməkdaşların vəzifələrini tənzimləyir.

1.2. “Qaynar xətt” xidməti qanunçuluğun təmin edilməsi, qanunla qorunan mənafelərin müdafiəsi ilə əlaqədar şikayətlərin obyektiv araşdırılması, o cümlədən vəkillərin qanunsuz, peşə etikasından kənar hərəkətlərinin, korrupsiya hüquqpozmalarının və korrupsiyaya şərait yaradan hüquqpozmaların və vəkil adından qanunsuz istifadə hallarının qarşısının alınması məqsədi ilə təşkil olunur.

1.3. “Qaynar xətt” xidmətinin təşkili Kollegiyanın Rəyasət Heyətinin aparatı tərəfindən təşkil olunur.

2. “Qaynar xətt” xidmətinin fəaliyyətini təşkil edən texniki vasitələr

2.1. “Qaynar xətt” telefon nömrəsi 012-594-08-70

3. “Qaynar xətt” əlaqə mərkəzinə daxil olan şikayətlərin qeydiyyatı

3.1. “Qaynar xətt”ə daxil olan şikayətlər dərhal müəyyən edilmiş qaydada Katiblikdə Qeydiyyata alınır.

3.2. “Qaynar xətt”ə daxil olmuş, bu Qaydaların 1.2-ci bəndində göstərilmiş məsələlərlə bağlı olmayan şikayətlər onlara qanunvericiliklə müəyyən edilmiş qaydada baxılmasının təmin edilməsi üçün Katibliyə təqdim olunur.

3.3. “Qaynar xətt”ə daxil olan müraciətlər ümumi daxil olmalar kitabında daxil olma nömrəsinin əvvəlində “QX” yazılmaqla qeydiyyata alınır.

3.4. “Qaynar xətt”ə daxil olan şikayətlər qeydiyyata alındıqdan sonra həmin gün baxılması üçün aidiyyəti məsul şəxsə təqdim edilir.

4. Şikayətlər baxılması qaydası

4.1. “Qaynar xətt”ə daxil olan şikayətlərə onlar qeydiyyata alındıqdan sonra baxılır, zəruri tədbrlər görülür və müraciət edən şəxsə cavab verilir.

4.2. “Qaynar xətt”ə Kollegiyanın fəaliyyəti ilə əlaqədar olmayan məsələlərlə bağlı şikayətlər daxil olduqda müraciət edən şəxslərə aidiyyəti üzrə müraciət etmək hüququ izah olunur, bu zaman aidiyyəti qurumların, o cümlədən vəkil bürolarının və vəkillərin ünvanları, əlaqə vasitləri verilir və ya əldə etmə üsulları barədə izah verilir.

4.3. “Qaynar xətt”ə daxil olan şikayətlərə müəyyən edilmiş qaydada baxılmasına görə həmin şikayətə baxılması həvalə olunmuş və bu qaydaların icrasına məsul olan şəxs bilavasitə cavabdehlik daşıyır.

4.4. “Qaynar xətt”in əməkdaşları şikayətçilərə dair fərdi məlumatların mühafizəsinə təminat verir.

4.5. “Qaynar xətt”ə zəng edən şəxs tərəfindən “Qaynar xətt”də çalışan işçiyə üçüncü şəxslərə dair fərdi məlumatların ötürülməsinə görə Vəkillər Kollegiyasının Rəyasət Heyəti məsuliyyət daşımır.

4.6. Bir qayda olaraq anonim şəkildə edilmiş şikayətlərə baxılmır, bununla bərabər, “Qaynar xətt”ə zəng edən şəxsin anonimliyinə təminat verilir.

Məruzə edilən vəzifəli şəxsin vəzifəsi, adı və soyadı

Şikayəti qəbul edən şəxsin vəzifəsi, adı və soyad

T Ə Q R İ R

Vəkillər Kollegiyası Rəyasət Heyətinin “Qaynar xətt”inə daxil olmuş müraciət üzrə

	Müraciət edən şəxs:
Soyadı, adı və atasının adı	
Ünvanı:	
Əlaqə telefonu:	

MÜRACİƏTİN MƏZMUNU

İmza

Şikayəti qəbul edən şəxsin adı və soyad

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 26.05.2021-ci il tarixli qərarı ilə təsdiq edilmişdir.

Vəkil köməkçilərinin fəaliyyətinin tənzimlənməsi QAYDALARI

Bu qaydalar Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanuna və Vəkillər Kollegiyasının Nizamnaməsinə əsasən hazırlanmışdır.

1. Vəkil köməkçisinin statusu

1.1. Vəkil köməkçisi - vəkillik fəaliyyətini həyata keçirmək üçün vəkil qurumları və ya fərdi qaydada fəaliyyət göstərən vəkil ilə bağlanmış əmək müqaviləsinə əsasən fəaliyyət göstərən şəxsdir.

1.2. Vəkilin köməkçisi öz fəaliyyətini vəkilin rəhbərliyi altında və onun tapşırıqlarını yerinə yetirməklə həyata keçirir.

1.3. Vəkilin köməkçisi müstəqil olaraq vəkillik fəaliyyəti ilə məşğul ola bilməz.

2. Vəkil köməkçisinin işə qəbulu

2.1. Vəkil köməkçisinin işə qəbulu Azərbaycan Respublikasının Əmək Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanununda və bu Qaydalarda müəyyən edilmiş tələblər əsasında həyata keçirilir.

2.2. Ali hüquq təhsilli Azərbaycan Respublikasının vətəndaşı vəkilin köməkçisi ola bilər.

2.3. Vəkil köməkçisi işinə qəbul olunmaq istəyən şəxslər müvafiq vəkil qurumuna və ya fərdi qaydada fəaliyyət göstərən vəkilə (bundan sonra fərdi vəkil) aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Büro rəhbərinin və ya fərdi vəkilin adına işə qəbul barədə ərizə,
- Kadrların şəxsi məlumat vərəqəsi;
- Tərcümeyi hal;
- Şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- ali təhsil haqqında sənədin (diplomun) notariat qaydasında təsdiq olunmuş surəti xarici dövlətlərin ali təhsil sahəsində ixtisasları Azərbaycan Respublikasında tanınmaqla və ekvivalentliyi müəyyən edilməklə (nostrifikasiya olunmaqla);
- Əmək kitabçasının notarial qaydada və ya iş yerində təsdiq edilmiş surəti (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla);
- məhkumluq barədə arayış;
- əqli cəhətdən sağlamlıq barədə tibbi arayış;
- 4x6 sm ölçüdə, ağ fonda çəkilmiş 2 ədəd rəngli fotoşəkil.

2.4. Qeyd olunan sənədlər büroda və ya fərdi vəkildə saxlanılmaqla, onların surəti büro rəhbəri və ya fərdi vəkil tərəfindən baxılıb müvafiq rəy verilməsi üçün Vəkillər Kollegiyasının Rəyasət Heyətinə rəsmi qaydada təqdim olunur.

2.5. Vəkillər Kollegiyası Rəyasət Heyətinin aparatı tərəfindən vəkil köməkçisinə aid müvafiq sənədlərin tamlığı və qanunvericiliyin tələblərinə uyğunluğu yoxlanıldıqdan sonra müvafiq rəy hazırlanaraq Rəyasət Heyətinin rəhbərliyinə təqdim edir. Rəy verildikdən sonra bu barədə büro rəhbəri və ya fərdi vəkil məlumatlandırıldıqdan sonra vəkil köməkçisi ilə təsdiq olunmuş formaya əsasən əmək müqaviləsi (1 nömrəli əlavə) bağlanılılır. Əmək münasibətlərinin qanunvericiliklə müəyyən olunmuş qaydada elektron informasiya sistemində qeydə alınması təmin olunmalıdır.

2.6. Müqavilə bağlandıqdan sonra müqavilənin və elektron informasiya sistemindən çıxarışın surətləri Vəkillər Kollegiyasına təqdim edilir. Bundan sonra vəkil köməkçisinə xidməti vəsiqə verilir.

2.7. Vəkil köməkçisi ilə əmək münasibətlərinə xitam verilərkən 3 gün müddətində bu barədə Vəkillər Kollegiyası Rəyasət Heyətinə yazılı məlumat verilməlidir.

3. Vəkil köməkçisinin əmək münasibətləri

3.1. Vəkil köməkçisi ilə işə götürən şəxs arasında olan əmək münasibətlərinin yaranması, dəyişdirilməsi, onlara xitam verilməsi və s. məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanununa və Vəkillər Kollegiyasının Nizamnaməsinə, bu Qaydalara və digər aktlara əsasən tənzilmlənir.

3.2. Vəkilin köməkçisi vəkillik fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun vəkil (vəkillər) tərəfindən yaradılmış vəkil qurumları ilə, bu fəaliyyət fərdi qaydada həyata keçirildikdə isə vəkillə Vəkillər Kollegiyası Rəyasət Heyətinin müəyyən etdiyi formada və qaydada bağlanmış əmək müqaviləsinə əsasən fəaliyyət göstərir.

3.3. Vəkil köməkçisinin əmək haqqı həmin müqaviləni bağlamış vəkil qurumu və ya fərdi vəkil tərəfindən verilir.

4. Vəkil köməkçilərinin reyestri

4.1. Vəkil köməkçilərinin ümumi sayının vahidliyi və tamlığının müəyyən edilməsi, statistik məlumatların işlənməsi, təlimlərə cəlb edilməsi, stimullaşdırılması, onların inkişafına yönəlmiş və s. tədbirlərin həyata keçirilməsi məqsədilə Vəkillər Kollegiyası Rəyasət Heyəti tərəfindən vahid reyestr aparılır.

4.2. Reyestrdə vəkil köməkçisinin adı, soyadı, atasının adı, təhsili, əmək müqaviləsi bağladığı qurum və ya fərdi vəkil barədə məlumatlar, əmək müqaviləsinin müddəti və əlaqə vasitələri barədə məlumatlar daxil edilir.

4.3. Reyestr məlumatları açıqdır.

5. Vəkil köməkçilərinin şəxsi işi

5.1. Vəkil qurumları və fərdi vəkillər tərəfindən Vəkillər Kollegiyası Rəyasət Heyətinin 19.04.2019-cu il tarixli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvlərinin, vəkil köməkçilərinin, Rəyasət Heyətinin aparatının və vəkil bürolarının işçilərinin şəxsi işinin aparılması və saxlanılması Qaydaları"na əsasən vəkil köməkçilərinin şəxsi işi hazırlanır və aparılır.

5.2. Vəkil qurumlarının rəhbərləri və fərdi vəkillər vəkil köməkçisinin şəxsi işinin mühafizəsini təmin etməlidirlər.

6. Vəkil köməkçilərinin xidməti vəsiqəsi

6.1. Vəkil köməkçilərinin xidməti vəsiqəsi onun tutduğu vəzifəsini təsdiq edir.

6.2. Vəkil köməkçilərinin xidməti vəsiqəsinin təsviri Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən müəyyən edilir (2 nömrəli əlavə).

6.3. Xidməti vəsiqə Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri tərəfindən imzalanır və müəyyən olunmuş qaydada Kollegiyanın möhürü vurulur.

6.4. Xidməti vəsiqə vəkil köməkçisi ilə bağlanmış əmək müqaviləsinin son tarixinədək, lakin 3 il müddətindən artıq olmamaqla verilir.

6.5. Xidməti vəsiqə itirildiyi və ya etibarlılıq müddəti bitdiyi zaman vəkil qurumunun, fərdi vəkilin və ya vəkil köməkçisinin müraciətinə əsasən yeni vəsiqə hazırlanır.

6.6. Əmək müqaviləsinə xitam verildiyi zaman xidməti vəsiqə Vəkillər Kollegiyasının Rəyasət Heyətinə qaytarılır.

6.7. Vəkil köməkçisinin xidməti vəsiqəsi Vəkillər Kollegiyası Rəyasət Heyəti aparatı tərəfindən qeydiyyat kitabında imzalanmaqla təqdim edilir.

7. Vəkil köməkçilərinin fəaliyyəti və etik davranışı

7.1. Vəkil köməkçiləri vəkillik sirrini qorumalı, habelə fəaliyyətləri zamanı "Vəkillərin davranış qaydaları haqqında Əsasnamə"nin tələblərini rəhbər tutmalı, əmək və icra intizamına riayət etməlidirlər.

2 nömrəli əlavə

Vəkil köməkçilərinin xidməti vəsiqəsi

Azərbaycan Respublikası
Vəkillər Kollegiyası
Rəyasət Heyətinin
"06" fevral 2020-ci il tarixli qərarı ilə
təsdiq edilmişdir.

ƏLAVƏ 1

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə

DAXİLİ NƏZARƏT SİSTEMİ

I.Ümumi müddəalar

1.1. "Azərbaycan Respublikası Vəkillər Kollegiyasının cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə Daxili Nəzarət Sistemi" (bundan sonra – Qaydalar) "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın və digər hüquqi aktların tələbləri nəzərə alınmaqla hazırlanmışdır.

1.2. Bu Qaydaların mətnində "Qanun" deyildikdə, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, Vəkillər Kollegiyası deyildikdə isə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası başa düşülür.

1.3. Bu Qaydalarda istifadə olunan anlayışlar Qanunda nəzərdə tutulmuş anlayışların mənalarını ifadə edir.

1.4. Monitorinqdə iştirak edən digər şəxslər kimi vəkillərə münasibətdə Vəkillər Kollegiyası nəzarət orqanıdır.

1.5. Bu Qaydalar Qanunda və digər hüquqi aktlarda cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində vəkillərə münasibətdə nəzarət orqanının həyata keçirdiyi tədbirlərlə bağlı məsələləri müəyyən edir.

1.6. Bu Qaydalarda nəzərdə tutulmayan məsələlər Qanunla və digər hüquqi aktlarla tənzimlənir.

II. Vəkillər Kollegiyasının nəzarət orqanı kimi səlahiyyətləri

2.1. Vəkillər Kollegiyası monitorinq subyektləri (vəkillər, vəkil qurumları, vəkil köməkçiləri, məsul şəxslər) tərəfindən Qanunun tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirən nəzarət orqanıdır.

2.2. Vəkillər Kollegiyası monitorinq subyektləri tərəfindən Qanunun tələblərinə əməl edilməməsini aşkar edərsə, onlara qarşı inzibati və ya qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirləri tətbiq etməli və bu barədə maliyyə monitorinqi orqanına məlumat verməlidir.

2.3. Vəkillər Kollegiyası tərəfindən monitorinq subyektlərinə münasibətdə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi riskləri ildə bir dəfə qiymətləndirilir və nəzarət yoxlamaları müəyyən edilmiş risklərə uyğun olaraq aparılır. Vəkillər Kollegiyası qeyd olunan məqsədlər üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) – Maliyyə Monitorinq Xidməti tərəfindən təqdim edilmiş statistik məlumatlardan istifadə edir.

2.4. Maliyyə monitorinqi orqanı (Maliyyə Monitorinq Xidməti) tərəfindən vəkillərə təqdim olunmalı müvafiq siyahı və məlumatlar Vəkillər Kollegiyası vasitəsilə elektron və ya yazılı formada vəkillərə təqdim olunur.

2.5. Monitorinq subyektləri, o cümlədən vəkillər tərəfindən Vəkillər Kollegiyasına təqdim olunmuş müvafiq məlumatlar (Qanunla təqdim olunması nəzərdə tutulan məlumatlar) Vəkillər Kollegiyası tərəfindən Maliyyə Monitorinq Xidmətinə təqdim olunur.

2.6. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə maliyyə monitorinqi orqanı məlumat əldə etmək üçün Vəkillər Kollegiyasına sorğu ilə müraciət etdikdə, Vəkillər Kollegiyası tərəfindən müvafiq məlumatlar maliyyə monitorinqi orqanına təqdim olunur.

2.7. Vəkillər Kollegiyasına təqdim olunan müvafiq məlumatlar toplanır və təhlil edilir.

III. Vəkillər Kollegiyasının nəzarət orqanı kimi tədbirləri

3.1. Vəkillər Kollegiyası bu Qaydaların 2-ci hissəsində nəzərdə tutulan səlahiyyətləri daxilində, habelə qanunvericiliklə nəzərdə tutulmuş qaydada müvafiq tədbirlər görür.

3.2. Maliyyə monitorinqi orqanı öz vəzifə səlahiyyətlərini icra edərkən monitorinq subyektləri, o cümlədən vəkillər tərəfindən Qanunun tələblərinə əməl edilməməsinə dair məlumat əldə edərsə, həmin məlumatda göstərilən şəxslərə qarşı inzibati və ya qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirlərin tətbiq edilməsi üçün Vəkillər Kollegiyasına təqdim etdikdə, Vəkillər Kollegiyası bununla bağlı tədbirlər görür.

3.3. Vəkillər Kollegiyası tərəfindən nəzarət tədbirləri çərçivəsində müvafiq proqram təminatından istifadə oluna bilər.

3.4. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 71.1-ci bəndinə əsasən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci (monitorinqdə iştirak edən digər şəxslər kimi vəkillərə münasibətdə münasibətdə) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Vəkillər Kollegiyası adından – Rəyasət Heyətinin sədri, onun müavinləri, vəkil qurumlarının rəhbərləri tərəfindən tərtib edilir.

3.5. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci maddəsinə uyğun olaraq aşağıda qeyd olunan inzibati xətalar Vəkillər Kollegiyası tərəfindən aşkar edildikdə və bununla bağlı müddət bitmədikdə, bu zamanı Vəkillər Kollegiyası adından müvafiq protokol tərtib olunmaqla, baxılması üçün aidiyyəti rayon (şəhər) məhkəməsinə təqdim edilir:

3.5.1. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması, yəni:

3.5.1.1. vəkil tərəfindən müştərinin, onun nümayəndəsinin və ya benefisiar mülkiyyətçinin eyniləşdirilməsi, verifikasiyası və məlumatın sənədləşdirilməsi ilə bağlı tələblərə riayət olunmaması;

3.5.1.2. vəkil tərəfindən eyniləşdirmə sənədlərinin və pul vəsaitləri və ya digər əmlakla əməliyyatlara dair sənədlərin saxlanması ilə bağlı vəzifələrin yerinə yetirilməməsi;

3.5.1.3. Qanuna uyğun olaraq vəkil tərəfindən daxili nəzarət sisteminin tətbiq edilməməsi, yaxud tam tətbiq edilməməsi;

3.5.1.4. vəkil tərəfindən Vəkillər Kollegiyasının və ya maliyyə monitorinqi orqanının Qanunla müəyyən edilmiş hallarda verdikləri yazılı göstərişlərinin vaxtında və ya tam icra edilməməsi;

3.5.1.5. vəkil tərəfindən məlumatların təqdim edilməsinə və əməliyyatların icra edilməməsinə dair Qanunla müəyyən edilmiş tələblərin pozulması;

3.5.1.6. vəkil tərəfindən Vəkillər Kollegiyasının fəaliyyətinə maneələrin yaradılması, o cümlədən sorğulara cavab verilməməsi, tələb olunan sənədlərin və məlumatların təqdim edilməməsi, yanlış məlumatların verilməsi;

3.5.1.7. vəkillər tərəfindən xarici dövlətlərin siyasi xadimləri ilə bağlı tələblərə əməl edilməməsi;

3.5.1.8. qanunvericiliklə nəzərdə tutulan digər tələblərə (Qanunla müəyyən edilən digər normalara) əməl edilməməsi.

3.6. Vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin bank hesabına məqsədi bəlli olmayan, təyinatı şübhə doğuran və əsası olmayan vəsaitin köçürülməsi, habelə vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin bank hesabından vəsaitin təyinatı aydın olmayan və şübhəli məsələlərə yönəldilməsi (bu məqsədlə vəsaitin başqa hesaba köçürülməsi) yolverilməzdir.

3.7. Bütün monitorinq subyektləri (vəkillər, vəkil qurumları, vəkil köməkçiləri, məsul şəxslər) bu Qaydaların tələblərinə riayət etməli və Qaydaların 3.5-ci və 3.6-cı bəndlərində qeyd olunan pozuntulara yol verməməlidir. Vəkil olmayan digər monitorinq subyektinin yol verdiyi pozuntularla əlaqədar Vəkillər Kollegiyası tərəfindən müvafiq tədbirlər həyata keçirilir.

3.7. Bu Qaydaların 3.4-cü bəndində nəzərdə tutulmuş protokol, baxılması üçün protokolu tərtib etmiş şəxs tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 43-cü maddəsinə uyğun olaraq aidiyyəti rayon (şəhər) məhkəməsinə təqdim olunur.

3.8. Vəkillər Kollegiyasının adından vəkil qurumunun rəhbəri tərəfindən protokolun tərtib olunması Vəkillər Kollegiyasının razılığı ilə həyata keçirilir.

3.9. Monitorinq subyektlərinin əməllərində (hərəkət və hərəkətsiz davranışlarında) cinayət məsuliyyəti yaradan hallar aşkar edildikdə, bununla bağlı qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirlər həyata keçirilməlidir.

3.10. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlərlə əlaqədar qəbul edilən (təsdiq edilən) hüquqi aktlardan, habelə Milli Fəaliyyət Planlarından, Tədbirlər Planından, müvafiq məktublardan və göstərişlərdən irəli gələn və Vəkillər Kollegiyasına, vəkil qurumlarına, vəkillərə, vəkil köməkçilərinə və məsul şəxslərə aid olan tövsiyələrin (tapşırıqların) icrası müvafiq qaydada təmin edilir.

IV. Məsul şəxslər və struktur bölmə

4.1. Vəkillər Kolllegiyasının Rəyasət Heyətinin qərarı ilə montorinq subyektlərinə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə qanunvericiliyin icrasına məsul şəxslər təyin edilir.

4.2. Vəkillər Kollegiyasının adından yoxlamalara məsul olan vəzifəli şəxslər Vəkillər Kolllegiyasının Rəyasət Heyətinin qərarı ilə müəyyən olunur.

4.3. Vəkillər Kollegiyasının tərkibində cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində nəzarəti həyata keçirəcək struktur bölmə Vəkillər Kolllegiyasının Rəyasət Heyətinin qərarı ilə müəyyən olunur.

4.4. Maliyyə Monitorinqi Xidməti ilə Vəkillər Kollegiyası adından operativ qaydada əməkdaşlığın təmin edilməsi məqsədilə məsul olan vəzifəli şəxslər Vəkillər Kolllegiyasının Rəyasət Heyətinin qərarı ilə müəyyən olunur.

4.5. Məsul şəxslər və nəzarəti həyata keçirən struktur bölmə səlahiyyətləri daxilində Qanundan, bu Qaydalardan və cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində qəbul edilmiş hüquqi aktlardan irəli gələn tədbirləri həyata keçirirlər.

V.Digər məsələlər

Bu Qaydalarda nəzərdə tutulmayan məsələlər Qanunda və digər hüquqi aktlarda nəzərdə tutulan müvafiq müddəalarla tənzimlənir.

Azərbaycan Respublikası
Vəkillər Kollegiyası
Rəyasət Heyətinin
"06" fevral 2020-ci il tarixli qərarı ilə
təsdiq edilmişdir.

ƏLAVƏ 2
(NÜMUNƏVİ FORMA)

Vəkil qurumlarının, vəkil qurumlarında və fərdi qaydada fəaliyyət göstərən vəkillərin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə

DAXİLİ NƏZARƏT SİSTEMİ

I. Ümumi müddəalar

1.1. Bu Daxili Nəzarət Sistemi "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin və digər hüquqi aktların tələbləri nəzərə alınmaqla hazırlanmışdır.

1.2. Daxili Nəzarət Sistemi - monitorinqdə iştirak edən digər şəxslər (vəkil qurumları, vəkillər) tərəfindən həyata keçirilən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunda nəzərdə tutulan kompleks daxili nəzarət tədbirləridir.

1.3. Vəkillər (vəkil qurumları) monitorinqdə iştirak edən digər şəxslər olaraq aşağıdakı əməliyyatlarda iştirak etdikdə (əməliyyatları həyata keçirdikdə) "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunun tələblərini nəzərə almalıdırlar:

1.3.1. daşınmaz əmlakın alqı-satqısı ilə əlaqədar əməliyyatlarda;

1.3.2. müştərinin pul vəsaitlərinin, qiymətli kağızlarının və ya digər əmlakının idarə olunması ilə əlaqədar əməliyyatlarda;

1.3.3. müştərinin bank və ya qiymətli kağız hesablarının idarə olunması ilə əlaqədar əməliyyatlarda;

1.3.4. hüquqi şəxslərin yaradılması, onların fəaliyyətinin təmin və idarə edilməsi, bu məqsədlərlə pul vəsaitlərinin toplanılmasının təşkil olunması, habelə hüquqi şəxslərin alqı-satqısı ilə əlaqədar əməliyyatlarda.

1.4. Bu Daxili Nəzarət Sisteminin məqsədləri üçün istifadə olunan bəzi anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.4.1. Məsul şəxs – vəkil qurumlarına münasibətdə vəkil qurumunun rəhbəri və ya vəkil qurumunun rəhbəri tərəfindən müəyyən edilmiş həmin qurumda fəaliyyət göstərən vəkil və ya digər vəzifəli şəxs; fərdi qaydada fəaliyyət göstərən vəkilə münasibətdə isə həmin vəkilin özü;

1.4.2. Monitorinq subyekt(lər)i – vəkil qurumu, vəkil qurumunda və fərdi qaydada fəaliyyət göstərən vəkil, məsul şəxs və vəkil köməkçisi.

1.5. Bu Daxili Nəzarət Sistemində istifadə olunan digər anlayışlar "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunda nəzərdə tutulmuş anlayışların mənalarını ifadə edir.

II.Daxili nəzarət sisteminin əhatə etdiyi məsələlər

2.1. Daxili nəzarət sistemi aşağıdakı məsələləri ehtiva edir:

2.1.1. müştərilərin, onların adından çıxış edən səlahiyyətli nümayəndələrin, benefisiar mülkiyyətçilərin, əməliyyatların eyniləşdirilməsinə və verifikasiyasına, müştərinin və benefisiar mülkiyyətçinin xarici dövlətlərin siyasi xadimlərinə aid olduğunun müəyyən edilməsinə imkan verən daxili, mərkəzləşdirilmiş arxivin yaradılması;

2.1.2. məlumatların sənədləşdirilməsi və məxfiliyin təmin edilməsinə dair daxili qaydaların hazırlanması;

2.1.3. cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı fəaliyyət üzrə əməkdaşlara (vəkil qurumunda fəaliyyət göstərən vəkillərə, işçilərə) mütəmadi təlimlərin keçirilməsi;

2.1.4. Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və maliyyə monitorinqi orqanı ilə məlumat mübadiləsini həyata keçirməyə, həmçinin monitorinq olunmalı əməliyyatlarla bağlı müvafiq hesabatları hazırlamağa və təqdim etməyə məsul şəxsin (şəxslərin) təyin edilməsi;

2.1.5. şübhəli əməliyyatların aşkarlanması, qarşısının alınması və məlumatların Azərbaycan Respublikası Vəkillər Kollegiyasına və Maliyyə Monitorinqi Xidmətinə təqdim olunması.

III.Eyniləşdirmə və verifikasiya tədbirləri

3.1. Vəkil qurumlarına, vəkillərə, vəkil köməkçilərinə, məsul şəxslərə, vəkil qurumdan çalışan digər şəxslərə anonim hesabların, uydurma adlara hesabların və anonim əmanət hesablarının açılması, anonim depozit sertifikatlarının buraxılması və bu cür əməliyyatlarda iştirak edilməsi qadağandır.

3.2. Aşağıdakı hallarda müştərinin və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası üçün tədbirlər görülməlidir:

3.2.1. işgüzar münasibətlər yaradılmasından əvvəl;

3.2.2. on beş min manat məbləğində (bundan sonra - limit) və ya bundan artıq məbləğdə həyata keçirilməsi gözlənilən hər hansı birdəfəlik əməliyyatdan əvvəl (bu hala həmçinin limit çərçivəsində həyata keçirilərək bir-biri ilə əlaqəsi olan və ümumi məbləği limitdən artıq olan bir neçə əməliyyat aiddir);

3.2.3. məbləğindən asılı olmayaraq, hesab açılmadan həyata keçirilməsi gözlənilən pul köçürməsindən əvvəl;

3.2.4. qiymətli kağızların, pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı olmasına şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan hallar olduqda;

3.2.5. müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr olduqda.

3.3. Əməliyyatın ümumi məbləği əməliyyatın icra olunmasından əvvəl məlum deyilsə, müştərinin və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası əməliyyatın məbləğinin limitdən artıq olduğu müəyyənləşdiyi anda həyata keçirilir.

3.4. Hüquqi şəxsin eyniləşdirilməsi onun nizamnaməsinin və dövlət qeydiyyatına alınması haqqında sənədin notariat qaydasında təsdiq olunmuş surəti əsasında aparılır. Monitorinq subyektləri hüquqi şəxsin adından çıxış edən səlahiyyətli nümayəndədən notariat qaydasında təsdiq olunmuş etibarnaməni tələb etməli və səlahiyyətli nümayəndənin eyniləşdirilməsi və verifikasiyası üçün tədbirlər görməlidir. Monitorinq subyektləri hüquqi şəxsin nizamnaməsi və onun dövlət qeydiyyatına alınması haqqında sənəd əsasında hüquqi şəxsin hüquqi ünvanını, təşkilati-hüquqi formasını, təsisçilərin adını, həmçinin hüquqi şəxsin hüquqi statusunu müəyyən etməlidirlər.

3.5. Fiziki şəxsin eyniləşdirilməsi şəxsiyyəti təsdiq edən sənəd əsasında aparılır.

3.6. Hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxsin eyniləşdirilməsi şəxsiyyəti təsdiq edən sənəd və müvafiq vergi orqanı tərəfindən verilmiş şəhadətnamə əsasında aparılır.

3.7. Eyniləşdirmə üçün təqdim olunan şəxsiyyəti təsdiq edən sənədin surəti, habelə müvafiq vergi orqanı tərəfindən verilmiş şəhadətnamənin, nümayəndənin səlahiyyətlərini təsdiq edən etibarnamənin, notariat qaydasında təsdiq olunmuş hüquqi şəxsin nizamnaməsinin və dövlət qeydiyyatına alınması haqqında sənədin surətləri monitorinq subyektində saxlanılmalıdır.

3.8. Hüquqi şəxsin verifikasiyası üçün tətbiq edilən tədbirlər aşağıdakılardır:

3.8.1. hüquqi şəxsin təqdim etdiyi məlumatların hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumatlarla üzləşdirilməsi;

3.8.2. hüquqi şəxsin fəaliyyəti barədə kütləvi informasiya vasitələrindən, internet informasiya ehtiyatlarından və ya rəsmi nəşrlərdən məlumatların əldə olunması;

3.8.3. əldə olunan yeni məlumatların əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatları ilə üzləşdirilməsi.

3.9. Fiziki şəxsin verifikasiyası üçün tətbiq edilən tədbirlər aşağıdakılardır:

3.9.1. doğum haqqında şəhadətnamə, pasport, sürücülük vəsiqəsi və ya digər rəsmi sənəd əsasında doğum tarixinin təsdiqlənməsi;

3.9.2. mənzil-kommunal xidməti və ya qeyri-yaşayış sahələrindən istismar haqqı üçün mədaxil qəbzləri, yaxud mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə və ya kirayə müqaviləsi əsasında yaşayış yeri üzrə qeydiyyatın təsdiqlənməsi.

3.10. İşgüzar münasibətlərin məqsədi və mahiyyəti barədə məlumat müştəridən əldə edilməlidir.

3.11. Müştərinin işgüzar münasibətləri və həyata keçirilmiş əməliyyatlarına dair əldə olunmuş məlumatların mütəmadi qaydada yeniləşdirilməsi üzrə tədbirlər görülməlidir. Məlumatların mütəmadi qaydada yeniləşdirilməsi üzrə tətbiq olunan tədbirlər aşağıdakılardır:

3.11.1. həyata keçirilmiş əməliyyatın müştəri, onun sahibkarlıq fəaliyyəti və vəsaitlərinin mənbəyi barədə məlumatlara uyğun gəlməsinin təmin edilməsi məqsədilə həmin əməliyyatın təhlili;

3.11.2. yüksək riskli müştərilər və ya işgüzar münasibətlər barədə mövcud olan məlumatların tədqiq edilməsi yolu ilə müştərinin eyniləşdirilməsinə dair əldə olunmuş məlumatların və sənədlərin vaxtaşırı yeniləşdirilməsi.

3.12. Aşağıdakı yüksək riskli əməliyyatlara dair əlavə eyniləşdirmə tədbirləri tətbiq edilməlidir:

3.12.1. qeyri-rezident müştərilərlə əməliyyatlar;

3.12.2. pul vəsaitlərinin, qiymətli kağızların və ya digər əmlakın idarə olunması həvalə olunmuş hüquqi şəxslərlə əməliyyatlar;

3.12.3. nominal saxlayıcı olan və ya sənədli adsız səhmlər buraxmış hüquqi şəxslərlə əməliyyatlar;

3.12.4. xarici banklarla müxbir hesabları vasitəsilə həyata keçirilən əməliyyatlar;

3.12.5. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunun 7.2-ci maddəsində nəzərdə tutulan əməliyyatlar.

3.13. Tətbiq olunmalı əlavə eyniləşdirmə tədbirləri aşağıdakılardır:

3.13.1. hesabların və işgüzar əlaqələrin yoxlanması və ya digər üsullarla əməliyyatın həyata keçirilməsi məqsədinin və əməliyyatın mahiyyətinin aydınlaşdırılması;

3.13.2. hüquqi şəxs olan müştərinin səhmdarlarının və onların iştirak paylarının öyrənilməsi;

3.13.3. digər etibarlı mənbələr vasitəsilə müştəri, benefisiar mülkiyyətçi və əgər mümkündürsə, pul vəsaitlərinin və ya digər əmlakın mənbəyi barədə daha dəqiq məlumatların əldə edilməsi və üzləşdirilməsi.

3.14. Əməliyyatın tərəflərini "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunla müəyyənləşdirilmiş qaydada dəqiq eyniləşdirmək mümkün deyilsə və ya müştəri və ya benefisiar mülkiyyətçi barədə eyniləşdirmə məlumatlarının təqdim edilməsindən imtina edilirsə, habelə müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığı aşkarlandıqda, monitorinq subyektləri müvafiq əməliyyatı həyata keçirməməli, işgüzar münasibətləri yaratmamalı, hesab açmamalı, bununla bağlı Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına və maliyyə monitorinqi orqanına məlumat verməlidir.

3.15. İşgüzar münasibətlər yaradıldıqdan sonra müştəri və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi və verifikasiyası ilə bağlı tələblər yerinə yetirilə bilmirsə, müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumatlarının doğru olmadığına dair şübhələr varsa, habelə müştərinin işgüzar münasibətlərinin mahiyyəti və məqsədi barədə məlumatlar əldə etmək mümkün deyildirsə, monitorinq subyektləri işgüzar münasibətlərə xitam verməli və bununla bağlı Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına və maliyyə monitorinqi orqanına məlumat verməlidir.

3.16. Fəaliyyət xüsusiyyətləri nəzərə alınaraq, müştərinin və benefisiar mülkiyyətçinin eyniləşdirilməsi üçün qanunla müəyyən edilmiş qaydada əlavə sənədlərin təqdim olunması tələb edilə bilər.

3.17. Daşınmaz əmlakın alğı-satqısı üzrə vasitəçilik xidməti göstərilərkən eyniləşdirmə tədbirləri yalnız limitdən yuxarı məbləğdə nağd şəkildə aparılan əməliyyatlar həyata keçirilərkən tətbiq etməlidirlər.

IV.Şübhəli əməliyyatların aşkarlanması, qarşısının alınması və məlumatların təqdim olunması

4.1. Şübhəli əməliyyatlar əsas etibarı ilə müştərinin şübhəli davranışı, qiymətli kağızlarla bağlı aparılan əməliyyatlar və digər əməliyyatlar zamanı aşkar oluna bilər.

4.2. Müştərinin şübhəli davranışı ilə bağlı əlamətlər aşağıdakılar ola bilər:

4.2.1. eyniləşdirmə prosedurlarının həyata keçirilməsinə etiraz etməsi;

4.2.2. eyniləşdirmə və əməliyyata dair məlumatları əsassız gecikmələrlə təqdim etməsi;

4.2.3. mövcud olmayan əlaqə məlumatları təqdim etməsi;

4.2.4. əməliyyata dair sualların cavablandırılmasından yayınması və ya əməliyyatın mahiyyətinə/təyinatına dair müxtəlif yayındırıcı cavablar verməsi;

4.2.5. təqdim etdiyi məlumatlarda uyğunsuzluqların və ziddiyyətli məqamların olması;

4.2.6. saxta sənədlər təqdim etməsi;

4.2.7. hüquqi şəxsi təmsil edən şəxsin (nümayəndənin) həmin hüquqi şəxs barədə məlumata malik olmaması;

4.2.8. müqavilənin daha səmərəli şərtləri ilə maraqlanmadan, ona vaxtından əvvəl xitam verilməsi şərtlərinə qeyri-adi maraq nümayiş etdirməsi;

4.2.9. benefisiar mülkiyyətçinin qısa müddətdə müəyyən edilməsini mümkün etməyən mürəkkəb və yaxud bir neçə pilləli struktura malik olan hüquqi şəxsin təsis etməsi.

4.3. Qiymətli kağızlarla bağlı aparılan şübhəli əməliyyatlara aşağıdakılar aid olar bilər:

4.3.1. qiymətli kağızların alışı və satışı üzrə eyni şərtlərlə tapşırıqlar verilərək ticarətin həyata keçirilməsi təəssüratının yaradılması;

4.3.2. qısa müddət ərzində bir neçə müştərinin eyni qiymətli kağızların alqı-satqısını həyata keçirmək məqsədi ilə hesab açması;

4.3.3. heç bir aydın məqsədi olmadan investorun qısa müddət ərzində investisiya fondunun paylarını (səhmlərini) satın alması və dərhal geri satması.

4.4. Digər əməliyyatlar zamanı şübhəli əlamətlərə aşağıdakılar aid ola bilər:

4.4.1. müştərinin profilinə uyğun olmayan iri məbləğdə və ya yüksək intensivliklə xırda məbləğlərdə əməliyyatların aparılması;

4.4.2. məcburi qaydada hesabat verilməsi tələb olunan limitdən bir qədər aşağı məbləğdə nağd əməliyyatların müntəzəm qaydada aparılması və s.

4.5. Şübhəli əməliyyatlara aşağıdakı əməliyyatlar aiddir:

4.5.1. şübhəliliyi təsdiqlənmiş əməliyyatlar. Bu əməliyyatlar barədə dərhal monitorinq subyekti tərəfindən Vəkillər Kollegiyasına və Maliyyə Monitorinqi Xidmətinə məlumat təqdim edilir;

4.5.2. şübhəlilik üçün yetərli əsaslar olmayan əməliyyatlar. Bu halda müştəri yüksək risk kateqoriyası daxilində nəzarətdə saxlanılır və növbəti əməliyyatları davamlı şəkildə monitorinq olunur;

4.5.3. şübhəlilik əsasları aradan qalxan (təsdiqlənməyən) əməliyyatlar. Bu halda əməliyyatın şübhəlilik statusu götürülür, lakin müştərinin həyata keçirəcəyi növbəti əməliyyatları dövri olaraq monitorinq olunur.

4.6. Şübhəli əməliyyat aşkar olunduqda, bu əməliyyatdan imtina edilməklə və digər qanuni vasitələrlə onun qarşısının alınması üçün tədbirlər görülməlidir.

4.7. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması halları aşkar edildikdə, bu zaman Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 71.1-ci bəndinə əsasən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 598-ci (monitorinqdə iştirak edən digər şəxslər kimi vəkillərə

münasibətdə münasibətdə) maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının adından protokol tərtib edilməli və baxılması üçün aidiyyəti rayon (şəhər) məhkəməsinə təqdim təqdim olunmalıdır.

4.8. Bu Daxili Nəzarət Sisteminin 4.7-ci bəndində nəzərdə tutulan pozuntular Vəkillər Kollegiyası, vəkil qurumu və ya Maliyyə Monitorinq Xidməti tərəfindən aşkar edilə bilər. Bu zaman aşkar edilmiş inzibati xəta haqqında iş üzrə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının adından protokol Vəkillər Kollegiyasının müvafiq vəzifəli şəxsləri və ya Vəkillər Kollegiyasının razılığı ilə vəkil qurumunun rəhbəri tərəfindən tərtib edilib müvafiq rayon (şəhər) məhkəməsinə təqdim olunmalıdır.

4.9. Bu Daxili Nəzarət Sisteminin nəzərdə tutulan və məlumat verilməsi zəruri olan məlumatlar müvafiq qaydada Vəkillər Kollegiyasına və Maliyyə Monitorinqi Xidmətinə təqdim olunmalıdır.

V.Məlumatların sənədləşdirilməsi və məxfiliyin təmin edilməsi

5.1. Bu Daxili Nəzarət Sistemində nəzərdə tutulan məlumatların sənədləşdirilməsi, saxlanması, məxfiliyin təmin edilməsi və məlumatların vaxtında Vəkillər Kollegiyasına və Maliyyə Monitorinq Xidmətinə təqdim olunması vəkil qurumu, məsul şəxslər və fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən təmin olunmalıdır.

5.2. Bu Daxili Nəzarət Sisteminin əhatə etdiyi məsələlərə aid olan aşağıdakı məlumatlar və sənədlər qeydə alınır və saxlanılır:

5.2.1. müştərinin, benefisiarın və ya səlahiyyətli nümayəndənin eyniləşdirmə və verifikasiya sənədləri;

5.2.2. müştəri tərəfindən həyata keçirilmiş pul vəsaitləri və ya qiymətli kağızlarla əməliyyatlara dair sənədlər (hesabdan çıxarışlar, əməliyyatların aparılması üçün əsas və s.)

5.2.3. xarici dövlətlərin siyasi xadimlərinin əməliyyatlarına dair əldə olunmuş məlumatlar və sənədlər;

5.2.4. qeyri-adi əməliyyatların təyinatı və mahiyyəti ilə bağlı əldə olunmuş bütün məlumatlar və sənədlər, habelə bununla əlaqədar hazırlanmış yazılı təhlil hesabatları;

5.2.5. cari və şübhəli əməliyyatlar barədə Vəkillər Kollegiyasına və Maliyyə Monitorinq Xidmətinə təqdim olunmuş məlumatlar və sənədlər, o cümlədən hər hansı bir əməliyyatın və ya işgüzar əlaqənin şübhəli olub-olmamasını müəyyən etmək məqsədilə aparılmış təhlil nəticəsində əldə olunmuş məlumatlar və sənədlər;

5.2.6. Maliyyə Monitorinq Xidmətinin və aidiyyəti qurumun (təşkilatın) yazılı sorğuları və bu sorğulara verilmiş cavablar;

5.2.7. Qanunun tələblərinə əməl edilməsi ilə bağlı həyata keçirilmiş nəzarət tədbirləri üzrə nəzarət orqanları ilə aparılmış yazışmalar və sənədlər.

5.3. Müştərinin eyniləşdirilməsi və yoxlanması üçün monitorinq subyektinin aldığı bütün sənədlər, həmçinin müştərilər tərəfindən həyata keçirilmiş əməliyyatlar üzrə təsdiqedici sənədlər, kağız və ya elektron daşıyıcılarda olmalarından asılı olmayaraq, müştəri ilə hüquqi münasibətlər başa çatdıqdan sonra və ya əməliyyatın həyata keçirilməsindən sonra aşağıda göstərilmiş müddət ərzində monitorinq subyekti tərəfindən arxiv sənədlərinin saxlanılması tələblərinə uyğun olaraq mərkəzləşdirilmiş arxivdə saxlanılır:

5.3.1. Müştərinin, benefisiarın eyniləşdirmə sənədləri - müştəri ilə monitorinq subyekti arasında monitorinq subyekti və ya aktivlərin idarə edilməsi ilə bağlı müqavilələrin bağlandığı və ya Müştəri ilə hüquqi münasibətlər başa çatdığı tarixdən ən azı 5 (beş) il müddətində;

5.3.2. Müştərinin həyata keçirdiyi əməliyyat üzrə sənədlər (monitorinq subyektinə müqavilə əsasında verililən yazılı tapşırıqlar, bağlanılan ünvanlı satış əqdləri, əməliyyatların həyata keçirilməsi üçün əsaslar və digər sənədlər) - əməliyyatın həyata keçirilməsindən sonra ən azı 5 (beş) il müddətində;

5.3.3. Müştərilərin şübhəli əməliyyatlarının araşdırılması gedişatında monitorinq subyektinin əldə etdiyi bütün sənədlər, Vəkillər Kollegiyasına və Maliyyə Monitorinq Xidmətinə təqdim edilmiş sənədlərin surətləri, həmçinin həmin məsələ üzrə bütün yazışmanın surəti əməliyyatın həyata keçirilməsi tarixindən 5 (beş) il müddətində.

5.4. Vəkil tərəfindən müvafiq sənədlər vəkil dosyesində (müvafiq qovluqda) saxlanılmalıdır.

VI. Məlumat gizliliyinin təmin edilməsi qaydası

6.1. Vəkil qurumları, məsul şəxslər və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən məlumatların qeydə alınması və saxlanılması sənədlərin reyestrinin aparması vasitəsilə həyata keçirilir. Sənədlərin reyestri bu Daxili Nəzarət Sisteminin V hissəsində nəzərdə tutulmuş məlumatların sənədləşdirilərək qeydə alındığı məlumat toplusudur.

6.2. Sənədlərin reyestrinə daxil edilən məlumatlar məxfi məlumatlar hesab edilir və vəkil qurumunun rəhbəri (fərdi qaydada fəaliyyət göstərən vəkil) və məsul şəxs reyestrə girişi olan şəxslər hesab olunur.

6.3. Sənədlərin reyestri elektron və ya kağız daşıyıcılarda saxlanıla bilər.

6.4. Reyestr məlumatlarının sığorta nüsxəsi yaradılır və ayrıca elektron daşıyıcıda heç bir lokal, yaxud qlobal şəbəkəyə çıxışı olmamaq şərti ilə saxlanılır.

6.5. Sənədlərin reyestrində sənəd haqqında məlumat müvafiq sənədin saxlanma müddəti başa çatanadək saxlanılır. Sənədlərin müəyyən edilmiş saxlanma müddətlərinin azaldılması qadağandır. Hər bir monitorinq subyekti öz mülahizəsinə görə sənədlərini onların əhəmiyyətini nəzərə alaraq daha uzun müddətdə saxlaya bilər.

6.6. Reyestrə daxil edilən hər bir məlumata ayrıca nömrə verilir və bu məlumatların əks olunduğu sənədlər arxivdə həmin nömrə əsasında eyniləşdirilir.

6.7. Monitorinq subyekti sənədləşdirilmiş məlumatların təklükəsizliyini, məxfi saxlanılmasını və səlahiyyəti olmayan şəxslər tərəfindən istifadə olunmamasını təmin etməlidir.

VII. Vəkillər Kollegiyasına hesabatların və məlumatların təqdim edilməsi

7.1. Tələb olunduğu hallarda vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən Vəkillər Kollegiyasına müvafiq hesabatlar və məlumatlar təqdim olunmalıdır.

7.2. Monitorinq subyektləri tərəfindən aşkar edilmiş şübhəli əməliyyatlar barədə məlumatlar dərhal elektron və yazılı qaydada Vəkillər Kollegiyasına və Maliyyə Monitorinq Xidmətinə təqdim olunmalıdır.

7.3. Vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən Vəkillər Kollegiyasına hesabat təqdim olunarkən, həmin hesabatda bu Daxili Nəzarət Sistemində nəzərdə tutulmuş və aşkar edilmiş pozuntular barədə məlumatlar, görülmüş tədbirlər barədə məlumatlar əks olunmalı və ya belə pozuntular və tədbirlər olmadıqda bununla bağlı qeydlər aparılmalıdır.

7.4. Hesabatlar vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən yazılı sənəd formasında və ya həmin hesabatları tam əks edən elektron formada təqdim edilir. Hesabatlar sənəd formasında təqdim edildikdə, onların səhifələri nömrələnməli, vəkil qurumunun rəhbəri (fərdi qaydada fəaliyyət göstərən vəkil), habelə məsul şəxs tərəfindən imzalanmalı, möhürü ilə təsdiqlənməlidir.

7.5. Vəkillər Kollegiyasının müraciəti (sorğusu) əsasında vəkil qurumları və fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən bu Daxili Nəzarət Sisteminin 7.4-cü bəndinin 2-ci cümləsinin tələblərinə uyğun həmin müraciətə (sorğuya) cavab verilməlidir.

VIII. Digər məsələlər

8.1. Bu Daxili Nəzarət Sistemində nəzərdə tutulmayan, lakin monitorinqdə iştirak edən digər şəxslərə (vəkillərə və vəkil qurumlarına) aid olan məsələlər "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunda və digər hüquqi aktlarda nəzərdə tutulmuş müddəalara (normalara, qaydalara) uyğun tənzimlənir.

8.2. Vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin bank hesabına məqsədi bəlli olmayan, təyinatı şübhə doğuran və əsası olmayan vəsaitin köçürülməsi, habelə vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin bank hesabından vəsaitin təyinatı aydın olmayan və şübhəli məsələlərə yönəldilməsi (bu məqsədlə vəsaitin başqa hesaba köçürülməsi) yolverilməzdir.

8.3. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlərlə əlaqədar qəbul edilən (təsdiq edilən) hüquqi aktlardan, habelə Milli Fəaliyyət Planlarından, Tədbirlər Planından, müvafiq

məktublardan və göstərişlərdən irəli gələn və monitorinq subyektlərinə aid olan tövsiyələrin (tapşırıqların) icrası müvafiq qaydada təmin edilməlidir.

8.4. Vəkil qurumları, bütün vəkillər, vəkil köməkçiləri, vəkil qurumlarında çalışan digər əməkdaşlar bu Daxili Nəzarət Sisteminin tələblərinə riayət etməlidirlər.

8.5. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin pozulması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati məsuliyyət, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma, cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən cinayət məsuliyyəti yaradır.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin 24.12.2019-cu il tarixli qərarı ilə təsdiq olunmuşdur.

(VK RH-nin 25.11.2020-ci il tarixli qərarı ilə edilmiş son dəyişikliklər nəzərə alınmaqla)

Dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən vəkillərə ödənilməsi prosedurları üzrə sənədləşmə işlərinin aparılması barədə

T Ə L İ M A T

I.Ümumi müddəalar

1.1. "Dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən vəkillərə ödənilməsi prosedurları üzrə sənədləşmə işlərinin aparılması barədə Təlimat" (bundan sonra – Təlimat) "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun, "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 oktyabr 2018-ci il tarixli 440 nömrəli Qərarının, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli 604 nömrəli Fərmanının, "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 fevral 2001-ci il tarixli 31 nömrəli Qərarının, Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2003-cü il tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Nizamnaməsinin və digər hüquqi aktların tələbləri nəzərə alınmaqla hazırlanmışdır.

1.2. Bu Təlimat qanunvericiliklə **dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın** (bundan sonra - **haqq**) vəkillərə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən ödənilməsi prosedurları üzrə sənədləşmə işlərini tənzimləyir.

1.3. Sənədləşmə işlərinə haqqın ödənilməsi ilə bağlı müvafiq sənədlərin Vəkillər Kollegiyasına təqdim olunması, həmin sənədlərə baxılması, onların qeydiyyatı, sənədlərin icrası, habelə dövlət hesabına, yəni dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin proqnozlaşdırılması və uçotu ilə əlaqədar Vəkillər Kollegiyası tərəfindən müvafiq sənədləşdirmələrin aparılması prosedurları daxildir.

1.4. Bu Təlimat üzrə sənədləşmə işləri aparılarkən dövlət büdcəsinin vəsaiti hesabına hüquqi yardımın ödənilməsinə görə nəzərdə tutulmuş vəsaitin təyinatı üzrə, qənaətlə və səmərəli şəkildə istifadəsi, habelə vəsaitin (haqqın) qanunvericiliklə nəzərdə tutulmuş qaydada vaxtında vəkillərə ödənilməsi, proqnozlaşdırma (uçot) məsələlərinə ciddi surətdə diqqət yetirilməli və sənədləşmələrin aparılması zamanı pozuntulara yol verilməməlidir.

1.5. Bu Təlimat yalnız qüvvədə olan qanunvericiliyə əsaslanır. Qanunvericiliklə bu Təlimatın müddəaları arasında hər hansı uyğunsuzluq olduğu halda, qüvvədə olan qanunvericiliyin müvafiq müddəası tətbiq olunacaqdır.

II.Dövlət hesabına həyata keçirilən hüquqi yardıma görə haqqın ödənilməsi prosedurları üzrə sənədləşmənin aparılması

2.1. Mövcud qanunvericiliyə əsasən dövlət hesabına göstərilən hüquqi yardıma görə vəkilə ödənilməli olan haqq onun təqdim etdiyi hesabata müvafiq olaraq cinayət prosesini həyata keçirən orqanın əsaslandırılmış qərarı əsasında Vəkillər Kollegiyası tərəfindən ödənilir. Bunun üçün vəkil qurumu və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzinə aşağıdakı sənədlər təqdim olunmalıdır:

2.1.1. vəkil qurumunun və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin Vəkillər Kollegiyasına ünvanladığı **müşaiyət məktubu**;

2.1.2. bu Təlimatın 1 nömrəli əlavəsində göstərilən məlumatları əks etdirən **cədvəl** (*cədvəl vəkil qurumu tərəfindən təqdim edildikdə həmin vəkil qurumunun rəhbəri və mühasibi tərəfindən, fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən təqdim edildikdə isə fərdi qaydada fəaliyyət göstərən vəkil (onun mühasibi olduqda, həmçinin mühasibi) tərəfindən imzalanmalı və cədvəlin hər bir səhifəsi möhürlənməlidir*);

2.1.3. vəkilə haqqın ödənilməsini nəzərdə tutan (iş saatlarını əks etdirən) **qərar** *(cinayət prosesini həyata keçirən orqanların, yəni təhqiqat, istintaq, prokurorluq orqanlarının və ya məhkəmənin qərarı);*

2.1.4. haqqının ödənilməsi nəzərdə tutulan **vəkilin şəxsiyyət vəsiqəsinin surəti;**

2.1.5. bank rekvizitləri barədə arayış (məlumat). Həmin arayışa (məlumata) bankın adının əks olunduğu müvafiq bankın möhürü və ya ştampı vurulmalıdır;

2.1-1. Qərarların icrası ilə bağlı təqdim olunmuş sənədlərdə (qərarda və s.) hər hansı uyğunsuzluq olduqda və ya məlumatlar natamam olduqda (tam aydın olmadıqda) Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzi tərəfindən müvafiq **vəkilin hesabatının** surəti və ya vəkildən (vəkil qurumundan) arayış (izah) tələb oluna bilər.

2.1-2. Vəkil qurumları və ya fərdi qaydada fəaliyyət göstərən vəkillər tərəfindən təqdim edilmiş sənədlərin və cədvəllərdə əks olunmuş məlumatların həqiqiliyinə və ya qərarın təkrarən ödənişə təqdim edilməsinə görə vəkil qurumunun rəhbəri, həmin qərar üzrə ödəniş nəzərdə tutulan vəkil, qurumun mühasibi və ya fərdi qaydada fəaliyyət göstərən vəkil (mühasib olduqda isə mühasib) qanunvericilikdə nəzərdə tutulmuş qaydada intizam məsuliyyəti və digər məsuliyyət daşıyırlar.

2.2. Sənədlər Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzinə daxil olduqdan sonra, həmin sənədlər Hüquqi Yardım və Tədris Mərkəzi tərəfindən kargüzarlıq qaydalarına uyğun olaraq qeydiyyata alınır və həmin Mərkəzin rəhbəri (direktoru, direktor məzuniyyət və ezmiyyətdə olduqda isə direktorun müavini) tərəfindən sənədin icraçısı (icraçıları) dərkənarla müəyyən olunur. Bir qayda olaraq, sənədin icra müddəti 15 iş günüdür. Əlavə araşdırmaya zərurət olduğu halda sənədin icra müddəti araşdırma başa çatanadək, həmçinin sənədin (qərarın) icrasının başa çatdırılması Vəkillər Kollegiyasından asılı olmayan səbəblərdən mümkün olmadıqda, sənədin icrasının uzanmasına səbəb olan hal aradan qalxanadək uzana bilər.

2.3. Sənədlərin icraçısı (icraçıları) tərəfindən sənədlər (qərarlar və digər sənədlər) ciddi şəkildə və diqqətlə nəzərdən keçirilməli və hər bir qərar üzrə müəyyən edilmiş iş saatları və ödənilməli haqqın məbləği dəqiqləşdirilməli, icra edilməsi üçün sual doğurmayan sənədlər bu Təlimatın 2.5-ci bəndinə uyğun olaraq məruzə edilməlidir. Əlavə araşdırma tələb edən sənədlər isə müvafiq qaydada araşdırılmalıdır.

2.4. Qərarların icrası ilə əlaqədar sənədlər, onların icra müddəti gözlənilməklə icmallaşdırılaraq ay ərzində ən azı 2 dəfə Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzi tərəfindən Vəkillər Kollegiyasının sədrinə məruzə edilir. Məruzə təhriri məruzə formasında olmaqla Mərkəzin rəhbəri (direktoru, direktor məzuniyyət və ezamiyyətdə olduqda isə direktorun müavini) və mühasib tərəfindən imzalanıb möhürlənir. Təhriri məruzədə icra edilməli olan qərarlar barədə ümumi məlumatlar, həmin qərarlar üzrə ödənilməli ümumi məbləğlər əks etdirilməklə, digər ətraflı məlumatları özündə əks etdirən Siyahı və qərarların surəti təhriri məruzəyə əlavə edilir (*təhriri məruzənin nümunəvi forması və məlumatları əks etdirən Siyahının nümunəsi bu Təlimatın 3 və 4 nömrəli əlavələrində verilmişdir*). Sənədlər elektron qaydada göndərildikdə, bu sənədlər (imzalı və möhürlü şəkildə) skan edilməklə göndərilməlidir.

2.5. Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzi tərəfindən təhriri məruzə ilə ödəniş üçün təqdim edilmiş sənədlər (qərarlar) üzrə Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədrinin ödənişin təmin edilməsi barədə razılığı olduğu təqdirdə, qərarların icrası ilə bağlı prosedurlar bu Təlimatın 2.12-ci və 2.13-cü bəndlərinə uyğun olaraq yerinə yetirilir. Vəkillər Kollegiyası Rəyasət

Heyətinin sədrinə təqdim edilmiş təhriri məruzəyə və ona əlavə edilmiş sənədlərə Vəkillər Kollegiyası Rəyasət Heyəti sədrinin tapşırığına uyğun olaraq Vəkillər Kollegiyası Rəyasət Heyətinin Aparatında yenidən baxıla bilər.

2.6. Bu Təlimatın 2.1.1-ci yarımbəndində nəzərdə tutulan müşayiət məktubu vəkil qurumunun rəhbəri (fərdi qaydada fəaliyyət göstərən vəkil) və mühasib tərəfindən imzalanmalı və möhürlənməlidir. Müşaiyət məktubuna haqqın ödənilməsini nəzərdə tutan (iş saatlarını əks etdirən) bir və ya bir neçə qərar əlavə oluna bilər.

2.7. Bu Təlimatın 2.1.3-cü yarımbəndində nəzərdə tutulan qərar haqqın ödənilməsi üçün əsas sayılır. Həmin qərarda vəkilin adı, soyadı, atasının adı, habelə iş saatları ilə bağlı məsələlər tam əksini tapmadıqda, habelə qərarda qeyd olunan iş saatları ilə bu Təlimatın 2.1-1-ci bəndinə uyğun olaraq təqdim olunmuş vəkilin hesabatında uyğunsuzluq olduqda (qərarda göstərilən iş saatları vəkilin hesabatında göstərilən iş saatlarından çox olduqda və ya digər uyğunsuzluqlar aşkar edildikdə), həmin məsələlərin dəqiqləşdirilməsi məqsədilə Vəkillər Kollegiyası və ya Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzi tərəfindən qərarı qəbul etmiş səlahiyyətli orqana (məhkəməyə) müraciət edilə bilər. Bu zaman qeyd olunan qərar üzrə haqqın ödənişi səlahiyyətli orqandan (məhkəmədən) cavab alınanadək və ya yekun qərar təqdim olunanadək təxirə salınır. Bu halda bununla bağlı qərarı təqdim etmiş vəkil qurumuna və ya fərdi qaydada fəaliyyət göstərən vəkilə Hüquqi Yardım və Tədris Mərkəzi tərəfindən məlumat verilir.

2.8. Bu Təlimatın 2.1-1-ci yarımbəndində qeyd olunan **vəkilin hesabatı** – vəkilin bir iş üzrə istintaq, təhqiqat, prokurorluq və ya məhkəmə orqanlarında dövlət hesabına hüquqi yardımın göstərdiyini, habelə bununla bağlı iş (göstərdiyi hüquqi yardım) saatlarını və digər zəruri məlumatları əks etdirən "Vəkil tərəfindən dövlət hesabına göstərilən hüquqi yardım barədə hesabat" formasıdır *(həmin formanın nümunəsi bu Təlimatın 2 nömrəli əlavəsində verilmişdir)*. Vəkilin hesabatının əsli vəkilin iştirak etdiyi istintaq, təhqiqat, prokurorluq və ya məhkəmə orqanlarında iş materiallarında saxlandığından dəqiqləşmələrin aparılması ilə əlaqədar zərurət olduğu təqdirdə, Vəkillər Kollegiyası və ya Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzi tərəfindən tərəfindən vəkilin hesabatının surəti həmin orqanlardan istənilə bilər.

2.9. Bu Təlimatın 2.1.5-ci yarımbəndində qeyd olunan bank rekvizitləri barədə məlumatlarda hər hansı dəyişiklik olmadıqda, vəkil qurumunun (fərdi qaydada fəaliyyət göstərən vəkilin) Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzinə ünvanladığı sonrakı (növbəti) müşaiyət məktubunda əvvəlki bank rekvizitləri barədə məlumatlar qeyd olunmaqla, bank rekvizitləri barədə arayış (məlumat) təqdim olunmaya bilər.

2.10. Əvvəlki illərdə (qərarın yerli icra hakimiyyəti və ya yerli maliyyə orqanları tərəfindən icra edilməli olduğu dövr üzrə) icrası müvafiq qaydada təmin olunmamış qərarın icra olunmamasını təsdiq edən müvafiq arayış (məktub) Hüquqi Yardım və Tədris Mərkəzinə təqdim olunmalıdır. Həmin arayış (məktub) aidiyyəti yerli icra hakimiyyəti orqanından və ya yerli maliyyə orqanından istənilə bilər. Arayışda (məktubda) icra olunmamış qərarın tarixi və nömrəsi, haqqı almalı olan vəkilin adı, soyadı və atasının adı göstərilməlidir. Yerli icra hakimiyyəti orqanından və ya yerli maliyyə orqanından təqdim edilmiş həmin arayış (məktub) bundan əvvəl icra olunmamış qərarın icrası üçün əsas hesab edilir.

2.11. Vəkillər Kollegiyası və ya Kollegiyanın Hüquqi Yardım və Tədris Mərkəzi əvvəlki illərə aid olan və icra edilməmiş qərarın icrası ilə əlaqədar müvafiq orqan və təşkilatlara həmin qərarın icra olunub-olunmaması barədə sorğu verə bilər. Vəkillər Kollegiyası tərəfindən icrası təmin edilmiş, Kollegiyanın Hüquqi Yardım və Tədris Mərkəzinə təkrarən icra edilməsi üçün daxil olmuş və ya çoxsaylı nöqsanlarla müşaiyət olunan (tələb olunan səviyyədə təqdim olunmayan) qərarlar (sənədlər) təqdim edildikdə, Mərkəz tərəfindən bu qərarlar (sənədlər) icra olunmur və onları təqdim edən vəkil qurumuna (fərdi qaydada fəaliyyət göstərən vəkilə) geri qaytarılır.

2.12. Haqq bu Təlimatın 2.13-cü bəndinə uyğun olaraq vəkil qurumunda fəaliyyət göstərən vəkilə münasibətdə həmin vəkilin faktiki fəaliyyət göstərdiyi vəkil qurumunun müvafiq bank hesabına, fərdi qaydada fəaliyyət göstərən vəkilə münasibətdə isə onun müvafiq bank hesabına köçürülür. Vəkil bir vəkil qurumundan digər vəkil qurumuna keçdikdə, həmin qərar üzrə vəkilə ödənilməli olan məbləğ (haqq) vəkilin yeni keçdiyi və faktiki fəaliyyət göstərməyə başladığı vəkil qurumunun bank hesabına köçürülməlidir. Bu prosedur fərdi qaydada fəaliyyət göstərən vəkilə münasibətdə də vəklin faktiki fəaliyyət statusuna uyğun olaraq tənzimlənməlidir (yəni vəkil, vəkil qurumuna keçdikdə ona ödənilməli

məbləğ həmin qurumun hesabına, vəkil qurumundan çıxaraq fərdi qaydada fəaliyyətə başladıqda isə həmin vəklin bank hesabına köçürülməlidir).

2.13. Qərarlar üzrə ödənişlər (vəsaitin müvafiq bank hesabına köçürülməsi proseduru) Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin internet portalı vasitəsilə həmin Agentliyin müvafiq qurumu (Xəzinədarlıq İdarəsi) vasitəsilə həyata keçirilir.

III.Dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin proqnozlaşdırılması və uçotu ilə əlaqədar sənədləşmələrin aparılması prosedurları

3.1. Dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün tələb olunan vəsaitin proqnozlaşdırılması və uçotu ilə bağlı sənədləşmələr Vəkillər Kollegiyasına (Kollegiyanın Hüquqi Yardım və Tədris Mərkəzinə) icra üçün daxil olmuş qərarların aylıq, rüblük, illik statistik sayına, həmin qərarlar üzrə müəyyən edilən iş saatlarına, ödəniş məbləğlərinə, vəkillərin sayına və digər göstəricilərə uyğun olaraq aparılır.

3.2. Mərkəzləşdirilmiş uçotla bağlı məsələlər bu Təlimatın 3.1-ci bəndinə uyğun olaraq tənzimlənir. Mərkəzləşdirilmiş uçotun təşkili ilə əlaqədar aşağıdakı məsələlər nəzərə alınmalıdır:

3.2.1. Müvafiq dövr ərzində və ya il ərzində icra edilməsi üçün Vəkillər Kollegiyasına (Kollegiyanın Hüquqi Yardım və Tədris Mərkəzinə) daxil olmuş qərarların **ümumi sayı**, həmin qərarlar üzrə dövlət hesabına həyata keçirilən hüquqi yardıma cəlb olunan vəkillərin sayı, iş saatları və ödənilməli (ödənilmiş) məbləğlər;

3.2.2. Müvafiq dövr ərzində və ya il ərzində icra edilməsi üçün Vəkillər Kollegiyasına (Kollegiyanın Hüquqi Yardım və Tədris Mərkəzinə) daxil olmuş və **icrası təmin edilmiş** qərarların sayı, həmin qərarlar üzrə dövlət hesabına həyata keçirilən hüquqi yardıma cəlb olunmuş vəkillərin sayı, iş saatları və ödənilmiş məbləğlər;

3.2.3. Müvafiq dövr ərzində və ya il ərzində icra edilməsi üçün Vəkillər Kollegiyasına (Kollegiyanın Hüquqi Yardım və Tədris Mərkəzinə) daxil olmuş və **icrası təmin edilməmiş** qərarların sayı, həmin qərarlar üzrə dövlət hesabına həyata keçirilən hüquqi yardıma cəlb olunan vəkillərin sayı, iş saatları və ödənilməli məbləğlər.

3.3. İcrası təmin edilməmiş qərarlar ilə bağlı Hüquqi Yardım və Tədris Mərkəzi tərəfindən ayrıca uçot aparıla bilər.

3.4. Mərkəzləşdirilmiş uçotla əlaqədar məlumatlar (statistik məlumatlar) bu Təlimatın 4 nömrəli əlavəsinə uyğun olaraq qeydə alınır. Təlimatın 4 nömrəli əlavəsinə (cədvəl nümunəsinə) zərurət olduqda və ya təfsilatlı uçotun aparılması, habelə müvafiq proqram təminatında uçotun düzgün təşkil edilməsi məqsədilə yeni sütunlar (*qərar əvvəlki ilə aid olduqda, bununla bağlı qeydlərin aparılması üçün, qərarı qəbul etmiş hakimin soyadının, adının, ata adının qeyd edilməsi üçün, hüquqi yardım göstərilən şəxsin məsuliyyətə cəlb olunduğu norma və digər zəruri qeydlərin aparılması üçün*) əlavə edilə bilər. Təlimatın 4 nömrəli əlavəsi (cədvəl) üzrə məlumatların tərtib edilməsinə və həmin cədvəldə bütün məlumatların düzgünlüyünə məsul olan şəxslərin siyahısı və digər zəruri məsələlər Hüquqi Yardım və Tədris Mərkəzinə münasibətdə Vəkillər Kollegiyasının Rəyasət Heyəti sədrinin, vəkil qurumuna münasibətdə vəkil qurumunun rəhbərinin müvafiq əmri ilə müəyyən olunur. Fərdi qaydada fəaliyyət göstərən vəkillər və onun mühasibləri (mühasib olduqda) təqdim etdiyi cədvəldə bütün məlumatların düzgünlüyünə məsuldurlar.

3.5. Növbəti büdcə ili üzrə dövlət hesabına həyata keçirilən hüquqi yardıma görə vəkillərə ödənilməli olan haqqa görə vəsaitin proqnozlaşdırılması barədə zəruri məlumatlar bu Təlimatın 5 nömrəli əlavəsinə uyğun olaraq qeydə alınır.

3.6. Növbəti illər üzrə dövlət hesabına həyata keçirilən hüquqi yardıma görə haqqın ödənilməsi üçün tələb olunan vəsaitin proqnozlaşdırılması və dövlət büdcəsində nəzərdə tutulması üçün zəruri məlumatların Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməsi və həmin məlumatların təqdim edilmə müddəti "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun tənzimlənir.

IV. Uçotun aparılması ilə bağlı digər tədbirlər

4.1. Ay ərzində Vəkillər Kollegiyasına daxil olmuş bütün qərarlar diqqətlə nəzərdən keçirilir. Ödənişə hazır olan və ya icra olunan qərarlar ilə bağlı aşağıdakı məlumatlar elektron qaydada qeydə alınır:

4.1.1. Qərarı (hökmü) qəbul etmiş səlahiyyətli orqanın (məhkəmənin) və səlahiyyətli şəxsin (hakimin) soyadı, adı və atasının adı;

4.1.2. Qərarın tarixi və iş nömrəsi;

4.1.3. Dövlət hesabına hüquqi yardımı göstərən vəkilin soyadı, adı, atasının adı, vəkilin hansı qurumda fəaliyyət göstərməsi və ya vəkilin fərdi qaydada fəaliyyət göstərməsi barədə qeydlər;

4.1.4. İş saatları və ödənilməli olan vəsaitin məbləği barədə qeydlər;

4.1.5. Vəsaitin hansı vəkil qurumuna, vəkil qurumunun vəkillərinə və ya fərdi qaydada fəaliyyət göstərən vəkilə ödənilməsi (ödəniləcəyi), ödəniş tarixi, bankın adı və bank xidmətinin faizi (məbləği) barədə məlumatlar.

4.1.6. Dövlət hesabına hüquqi yardım göstərilən şəxsin (şəxslərin) soyadı, adı və atasının adı, onun (onların) məsuliyyətə cəlb olunduğu Cinayət Məcəlləsinin və ya İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri (mülki və digər işlərdə ümumi məlumatlar) barədə qeydlər.

4.2.Sənədlərin qeydiyyatı, saxlanması və uçotun aparılması üçün müvafiq proqram təminatından istifadə olunur.

4.3. Uçotla bağlı statistikanın düzgün aparılması və qərarların sayının daha dəqiq müəyyən edilməsi məqsədilə icra üçün Hüquqi Yardım və Tədris Mərkəzinə təqdim edilmiş qərarda bir neçə vəkilə haqqın ödənişi nəzərdə tutulduğu halda, bu qərarın sayı həmin vəkillərin sayına bərabər tutulur (Yəni bir qərarda 5 ayrı-ayrı vəkilə haqqın ödənişi nəzərdə tutulubsa, bu sayca 5 qərar hesab olunur).

4.4. Vəkil qurumu və ya fərdi qaydada fəaliyyət göstərən vəkil tərəfindən qərarlar Hüquqi Yardım və Tədris Mərkəzinə bu Qaydaların 2.1.2-ci yarımbəndində nəzərdə tutulan cədvəl üzrə ardıcıl surətdə, qərarlar və digər müvafiq sənədlər ardıcıl olaraq skan edilməklə elektron qaydada da təqdim olunmalıdır.

V.Digər məsələlər

5.1. Dövlət hesabına həyata keçirilən hüquqi yardıma görə haqqın ödənilməsini (iş saatlarını) nəzərə tutan bütün qərarlar və digər sənədlər Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzinə daxil olduqdan sonra, həmin sənədlərin (qərarların) Hüquqi Yardım və Tədris Mərkəzi tərəfindən skan olunması və elektron qaydada (məlumat bazasında və ya proqram təminatı vasitəsilə elektron qaydada) saxlanılması təmin olunmalıdır. Müvafiq proqram təminatı vasitəsilə sənədlərə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Aparatının və Kollegiyanın Hüquqi Yardım və Tədris Mərkəzinin giriş, baxış və sənədlərin proqram təminatına işləmək imkanı təmin olunmalıdır.

5.2. Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzinə daxil olmuş sənədlər kargüzarlıqla bağlı müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq qeydə alınır.

5.3. Dövlət hesabına hüquqi yardımın göstərilməsi ilə əlaqədar digər statistik məlumatlar bu Təlimat əsasında aparıla bilər.

5.4. Bu Təlimat 1 yanvar 2020-ci il tarixdən qüvvəyə minir.

Təlimata 2 nömrəli əlavə

Dövlət büdcəsi vəsaiti hesabına hüquqi yardım göstərmiş vəkilin

HESABATI

1) Vəkil qurumu, həmin qurumda fəaliyyət göstərən vəkilin və ya fərdi qaydada fəaliyyət göstərən vəkilin adı, soyadı, ata adı:_____

2) Hüquqi yardımın göstərilməsi haqqında qərar qəbul etmiş orqanın (məhkəmənin və ya istintaq və təhqiqat orqanının adı, qərarın tarixi və nömrəsi): _____

_____

3) Hüquqi yardım göstərilən şəxsin adı, soyadı, ata adı; vətəndaşlığı və iş üzrə statusu (vəziyyəti): _____

_____

4) Hüquqi yardımın qısa açıqlaması:_____

5) İşlə tanışlıq:

Tarix	müddəti (başlama və bitmə saatları)	ünvan
Tarix	müddəti (başlama və bitmə saatları)	ünvan
Tarix	müddəti (başlama və bitmə saatları)	ünvan
Tarix	müddəti (başlama və bitmə saatları)	ünvan

_____

cəmi saat

6) Hüquqi yardım göstərilən şəxslə görüş:

Tarix	müddəti (başlama və bitmə saatları)	ünvan
Tarix	müddəti (başlama və bitmə saatları)	ünvan
Tarix	müddəti (başlama və bitmə saatları)	ünvan
Tarix	müddəti (başlama və bitmə saatları)	ünvan

_____

cəmi saat

Təlimata 1 nömrəli əlavə

Cədvəl № __
(nümunəvi forma)

BAKI ŞƏHƏRİ ___ SAYLI VƏKİL BÜROSU
(Fərdi qaydada fəaliyyət göstərən vəkil s.a.a _____) tərəfindən
icrası məqsədəuyğun hesab olunan dövlət hesabına göstərilən hüquqi yardıma görə haqqın (məbləğlərin)
vəkil(lər)ə ödənilməsini nəzərdə tutan məhkəmə və ya cinayət prosesini həyata keçirən digər orqanın qərar(lar)ı ilə bağlı zəruri məlumatları əks etdirən Siyahı (Cədvəl)
Siyahının tərtib edilmə tarixi: __.___.20__-ci il

№	Sənədi göndərən vəkil qurumunun (fərdi qaydada fəaliyyət göstərən vəkilin s.a.a-nın) adı	Vəkil qurumunun (fərdi qaydada fəaliyyət göstərən vəkilin) VK-nin HYTM-nə ünvanladığı müraciət məktubunun tarixi və nömrəsi	Qərarı qəbul etmiş məhkəmənin adı	Məhkəmə qərarının tarixi və nömrəsi	Dövlət hesabına hüquqi yardım göstərmiş vəkilin (müdafiəçinin) soyadı, adı, atasının adı	Dövlət hesabına hüquqi yardım göstərilmiş şəxsin soyadı,adı, atasının adı	Vəkil tərəfindən göstərilmiş hüquqi yardım üzrə iş saatı	Vəkil tərəfindən göstərilmiş hüquqi yardımın məbləği (köçürülməli vəsait, manatla)	Vəsaitin (məbləğin) köçürüləcəyi bankın və onun filialının adı	Ödənişə (köçürülən məbləğə) görə bank xidməti (0,35%-lə, manatla)
1	2	3	4	5	6	7	8	9	10	11
1.										

Bakı şəhəri ___ saylı Vəkil Bürosu və ya
Fərdi qaydada fəaliyyət göstərən vəkil s.a.a _____üzrə vəkil(lər)ə ödənilməli olan ümumi məbləğ (0,35% bank xidməti ilə birlikdə): _____ manat.

QEYD: Bu Cədvəlin 5-ci sütununda qeyd olunan məhkəmə qərarları üzrə müvafiq olaraq 6-cı sütunda göstərilən vəkillərə bundan əvvəl həmin məhkəmə qərarlarının icrası məqsədilə dövlət büdcəsindən vəsait ödənilməmişdir. Cədvəlin bütün sətirləri ayrıca ödənişi nəzərdə tutur və cədvəldə bir məhkəmə qərarı üzrə eyni vəkilə təkrar ödənişi nəzərdə tutan hər hansı sətir yoxdur.

Cədvəlin tərtibinə və cədvəldəki bütün məlumatların düzgünlüyünə məsul şəxslər və onların imzaları:

1) Bakı şəhəri ___ saylı Vəkil Bürosunun müdiri (s.a.a) _____və ya
Fərdi qaydada fəaliyyət göstərən vəkil s.a.a _____ İmza:_____

2) Mühasib (soyadı, adı, ata adı) _____ İmza:_____

Möhür yeri

7) Prosessual sənədlərin tərtib edilməsi:

Tarix	müddəti (başlama və bitmə saatları)	ünvan
Tarix	müddəti (başlama və bitmə saatları)	ünvan
Tarix	müddəti (başlama və bitmə saatları)	ünvan
